Azərbaycan Turizm və Menecment Universiteti
Azerbaijan Tourism and Management University

Turizm
və
qonaqpərvərlik tədqiqatları
Beynəlxalq jurnal

Tourism
and
Hospitality Studies
International journal

Turizm və qonaqpərvərlik tədqiqatları
"BİROL GROUP" MMC, Bakı, 2025, 228 səh.
ISSN 2409-6032 / *E-ISSN -2959-8389*
***DOI* 10.61226/12.2.2023/20252**

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 05.12.2011-ci il tarixli 3507 № ilə qeydiyyata alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə **İqtisad elmləri, Tarix elmləri** və **Sənətşünaslıq üzrə** (6219.01-*Kulturologiya və onun ümumi məsələləri;* 6220.01-*Muzeyşünaslıq*) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlərin siyahısı"na daxil edilmişdir.

Tourism and Hospitality Studies
"BİROL GROUP" LLC, Baku, 2025, 228 p.
ISSN 2409-6032/ *E-ISSN -2959-8389*
***DOI* 10.61226/12.2.2023/20252**

The journal was registered at the Ministry of Justice of the Republic of Azerbaijan by Minutes № 3507 dated 05.12.2011 and included in the list of periodical scientific publications where the main results of the theses on **Economic Sciences, History Sciences** and **Cultural Studies** (6219.01-*Cultural Studies and its general issues*; 6220.01-*Museum Study*) are recommended to be published by the decision dated May 16, 2014 (Minutes № 07-R) of the Board of Supreme Attestation Commission attached to the President of Azerbaijan.

Turizm və qonaqpərvərlik tədqiqatları
Tourism and Hospitality Studies
Beynəlxalq elmi jurnal/International Scientific Journal
İl 14, Say 3, 2025/ Volume 14, Number 3, 2025
ISSN 2409-6032,
E-ISSN -2959-8389
***DOI* 10.61226/12.2.2023/20252**

Redaksiya Şurası	**Editorial board**
Fuad Nağıyev *Redaksiya şurasının sədri* İlham Mədətov *Baş redaktor* İranə Əliyeva *Baş redaktorun müavini*	Fuad Nagiyev *Chairman of Editorial Board* Ilham Madatov *Editor-in-Chief* İrana Aliyeva *Deputy Editor-in-Chief*
Redaksiya şurasının üzvləri Zaur Bağırov Nəsirulla Nəsirli Bahadur Bilalov Kənan Allahverdiyev Hafiz Hüseynov Cənnətxan Eyvazov Əli Əlirzayev Rəna Sultanova Vüqar Nəzərov Novruz Quliyev Həbibə Sultanova Məhərrəm Zülfüqarlı Kərim Şükürov Əliağa Məmmədli Minaxanım Əsədova Sabirə Dünyamalıyeva Günay Qafarova	**Editorial Board Members** Zaur Bagirov Nasirulla Nasirli Bahadur Bilalov Kanan Allahverdiyev Hafiz Huseynov Jannatkhan Eyvazov Ali Alirzayev Rana Sultanova Vugar Nazarov Novruz Guliyev Habiba Sultanova Maharram Zulfugarli Karim Shukurov Aliaga Mammadli Minakhanim Asadova Sabira Dunyamaliyeva Gunay Gafarova

Əcnəbi üzvlər Cəfər Cəfəri (ABŞ) Eva Verner (Avstriya) Ömər Baybars Tek (Türkiyə) Mustafa Tanyeri (Türkiyə) İkbal Aksulu (Türkiyə) Bülent Himmetoğlu (Türkiyə) Hilmi Yüksel(Türkiyə) Uve Veithöner(Almaniya) Vladimir Şalayev(Rusiya) Alberto Romero-Ania (İspaniya)	**Foreign Members:** Jafar Jafari (USA) Eva Werner (Austria) Omer Baybars Tek (Turkey) Mustafa Tanyeri (Turkey) Ikbal Aksulu (Turkey) Bulent Himmetoglu (Turkey) Hilmi Yuksel (Turkey) Uwe Weithoner (Germany) Vladimir Shalayev (Russia) Alberto Romero-Ania (Spain)

MÜNDƏRİCAT

Sevda CƏFƏROVA
TURİZM SAHƏSİNDƏ TƏDRİS PROSESLƏRİNİN İDARƏ OLUNMASI.....9

Sevinc ƏSGƏROVA
TURİZM VƏ MİLLİ MƏDƏNİYYƏTİMİZ.....20

Azər MEHDİYEV
PANDEMİYA DÖVRÜNDƏ TURİZM SEKTORU VƏ ONUN İQTİSADİYYATA TƏSİRİ.....31

Sabir QULUZADƏ
REGİONAL İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN GÜCLƏNDİRİLMƏSİ BAXIMINDAN TURİZM DESTİNASİYASININ İNKİŞAFI.....42

Cavad QOCAMANOV
AZƏRBAYCANDA AQRAR SAHƏNİN VƏ AQROBİZNESİN İNKİŞAFINDA RƏQƏMSAL VƏ İNNOVASİYALI TEXNOLOGİYALARIN TƏTBİQİ VƏZİYYƏTİNİN TƏDQİQİ.....60

Ceyhun GƏNCƏLİ
UNİVERSİTET İNNOVASİYA İNVESTİSİYALARININ EMPİRİK ÖYRƏNİLMƏSİNDƏ KOMBİNƏ EDİLMİŞ TƏDQİQAT DİZAYNI: METODOLOJİ YANAŞMALAR.....71

Günay HƏŞİMOVA
KOS-LARDA KORPORATİV İDARƏETMƏ MƏDƏNİYYƏTİNİN İNVESTİSİYA CƏLBEDİCİLİYİNƏ TƏSİRİ.....83

Xaqani MƏMMƏDLİ
AZƏRBAYCANDA RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏCHİZAT ZƏNCİRİNİN İDARƏ EDİLMƏSİNDƏ TƏTBİQİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ PERSPEKTİVLƏRİ.....95

Tələt ƏLİZADƏ
AZƏRBAYCAN ÜÇÜN BƏRPA OLUNAN ENERJİ TEXNOLOGİYALARI VƏ ONLARIN STRATEJİ ƏHƏMİYYƏTİ.....111

Nəsirulla NƏSİRLİ
MÜASİR UNİVERSİTET.....123

Mikayıl MUSTAFAYEV
ASTARA RAYONUNUN TURİZM POTENSİALININ ARTIRILMASI ÜÇÜN ABİDƏLƏRİN QORUNMASI, BƏRPASI VƏ TƏBLİĞATI.....134

Əli FƏRHADOV
MİRZƏ BALA MƏHƏMMƏDZADƏNİN YARADICILIĞINDA MİLLİ İSTİQLALA DAİR ("AZƏRBAYCAN MİSAQİ-MİLLİSİ: 28 MAY İSTİQLAL BƏYANNAMƏSİNİN TƏHLİLİ" ƏSƏRİ ƏSASINDA).....143

Kamalə ƏLİYEVA
QADIN BƏZƏKLƏRİ İLƏ BAĞLI ADƏT VƏ ƏNƏNƏLƏR.....155

Orxan ƏLİYEV
NAXÇIVANDA TUNC DÖVRÜ MƏDƏNİYYƏTİ VƏ SOSİAL STRUKTURUN ARXEOLOJİ ƏKSLƏRİ.....165

Səadət ƏLİYEVA, Musa MURSAQULİYEV, Şamil NƏCƏFOV
AVEY DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞUNDA ARXEOTURİZM PERSPEKTİVLƏRİ.....173

Aida TEYMUROVA
QAFQAZ ALBANİYASINDA MADDİ MƏDƏNİYYƏT.....188

Nigar İBRAHİMLİ
MUZEYLƏR VƏ TRANSFORMASİYA LİDERLİYİ.....198

Şəfəq AĞAYEVA
SƏLCUQLARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ TƏSİRİ.....212

CONTENTS

Sevda JAFAROVA
MANAGEMENT OF EDUCATIONAL PROCESSES IN THE FIELD OF TOURISM.....9

Sevinc ASKEROVA
TOURISM AND OUR NATIONAL CULTURE.....20

Azar MEHDIYEV
TOURISM SECTOR DURING PANDEMIC AND ITS IMPACT ON ECONOMY.....31

Sabir GULUZADEH
DEVELOPMENT OF TOURISM DESTINATIONS IN TERMS OF STRENGTHENING REGIONAL INVESTMENT ATTRACTIVENESS.....42

Javad GOJAMANOV
RESEARCH OF THE STATE OF APPLICATION OF DIGITAL AND INNOVATIVE TECHNOLOGIES IN THE DEVELOPMENT OF THE AGRICULTURAL SECTOR AND AGRIBUSINESS IN AZERBAIJAN.....60

Jeyhun GANJALI
COMBINED RESEARCH DESIGN IN THE EMPIRICAL STUDY OF UNIVERSITY INNOVATION INVESTMENTS: METHODOLOGICAL APPROACHES.....71

Gunay HASHIMOVA
THE IMPACT OF CORPORATE GOVERNANCE CULTURE ON THE INVESTMENT ATTRACTIVENESS OF SMES.....83

Khagani MAMMADLI
MAIN DIRECTIONS AND PROSPECTS OF THE APPLICATION OF DIGITAL TECHNOLOGIES IN SUPPLY CHAIN MANAGEMENT IN AZERBAIJAN.....95

Talat ALIZADE
RENEWABLE ENERGY TECHNOLOGIES AND THEIR STRATEGIC IMPORTANCE FOR AZERBAIJAN.....111

Nasirulla NASIRLI
MODERN UNIVERSITY.....123

Mikail MUSTAFAYEV
PRESERVATION, RESTORATION,AND PROMOTION OF MONUMENTS FOR ENHANCING THE TOURISM POTENTIAL OF THE ASTARA REGION.....134

Ali FARHADOV
ON NATİONAL INDEPENDENCE IN THE WORKS OF MİRZA BALA MAMMADZADEH (BASED ON THE WORK "THE NATIONAL PACT OF AZERBAIJAN: AN ANALYSIS OF THE DECLARATION OF THE INDEPENDENCE OF MAY 28").....143

Kamala ALIYEVA
CUSTOMS AND TRADİTİONS RELATED TO WOMEN'S ADORNMENTS.....155

Orkhan ALIYEV
ARCHAEOLOGİCAL EVİDENCE OF THE BRONZE AGE CULTURE AND SOCİAL STRUCTURE OF NAKHCHİVAN.....165

Saadat ALIYEVA, Musa MURSAGULIYEV, Shamil NAJAFOV
PROSPECTS OF ARCHAEOTOURISM IN THE STATE HISTORICAL AND CULTURAL RESERVE AVEY.....173

Aida TEYMUROVA
MATERIAL CULTURE IN CAUCASIAN ALBANIA.....188

Nigar IBRAHIMLI
MUSEUMS AND TRANSFORMATIONAL LEADERSHIP.....198

Shafag AGAYEVA
THE INFLUENCE OF THE SELJUKS ON THE CULTURE OF AZERBAİJAN.....212

DOI: doi.org/10.61226/12.2.2023/20253.1
UOT: 37.02:338.48
Sevda CƏFƏROVA
Naxçıvan Dövlət Universiteti,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim
ceferovas@gmail.com
https://orcid.org/0009-0008-5750-1291

TURİZM SAHƏSİNDƏ TƏDRİS PROSESLƏRİNİN İDARƏ OLUNMASI

Xülasə: Turizm sahəsində tədris proseslərinin idarə olunması müasir dövrdə strateji əhəmiyyət kəsb edən bir istiqamətdir. Bu sahənin idarə olunması yalnız nəzəri biliklərin ötürülməsi ilə kifayətlənmir, həm də tələbələrdə praktiki bacarıqların, idarəetmə vərdişlərinin və peşə etikası prinsiplərinin formalaşdırılmasını hədəfləyir. Tədris prosesinin effektiv idarə olunması üçün müasir kurikulumların hazırlanması, təlim metodlarının innovativ texnologiyalarla zənginləşdirilməsi və təhsil müəssisələrinin turizm sənayesi ilə əməkdaşlığının gücləndirilməsi əsas prioritetlərdəndir.

Rəqəmsal texnologiyaların tətbiqi, onlayn tədris platformalarının istifadəsi və beynəlxalq təcrübənin öyrənilməsi tədris prosesinin çevik və səmərəli idarə olunmasına şərait yaradır. Bu yanaşma həm tələbələrin müasir turizm bazarının tələblərinə uyğun hazırlanmasını, həm də təhsil sistemində keyfiyyət və şəffaflığın artırılmasını təmin edir. Eyni zamanda, beynəlxalq qurumlarla əməkdaşlıq və ikili diplom proqramları turizm təhsilinin qlobal səviyyədə tanınmasına mühüm töhfə verir.

Turizm təhsili sistemində innovativ metodların, rəqəmsal texnologiyaların və interaktiv təlim modellərinin tətbiqi tədrisin keyfiyyətini artırır, tələbələrin yaradıcılıq və analitik düşünmə qabiliyyətini inkişaf etdirir. Eyni zamanda, turizm müəssisələri ilə ali və orta ixtisas təhsil müəssisələri arasında əməkdaşlıq, təcrübə proqramlarının təşkil olunması və dual təhsil modellərinin tətbiqi bu sahədə kadr potensialının gücləndirilməsinə xidmət edir. Nəticə etibarilə, turizm sahəsində tədris proseslərinin səmərəli idarə olunması ölkənin iqtisadi və mədəni inkişafına töhfə verən, yüksək ixtisaslı mütəxəssislərin formalaşmasını təmin edən mühüm amildir.

Azərbaycanın zəngin mədəni və təbii irsi nəzərə alındıqda, turizm təhsilinin idarə olunması milli dəyərlər və yerli potensial üzərində qurulmalıdır. Bu, həm ölkənin turizm sahəsində rəqabət qabiliyyətini artırır, həm də milli irsin qorunmasına xidmət edir. Nəticə etibarilə, turizm sahəsində tədris proseslərinin səmərəli idarə olunması həm peşəkar kadr hazırlığının keyfiyyətini yüksəldir, həm də ölkənin iqtisadi və mədəni inkişafına mühüm töhfə verir.

Açar sözlər: turizm tədrisi, turizm işçiləri, tədrisin idarə olunması, peşəkar turizmçilər, bələdçilik və s.

Sevda JAFAROVA

MANAGEMENT OF EDUCATIONAL PROCESSES IN THE FIELD OF TOURISM

Abstract: Management of educational processes in the field of tourism is a direction of strategic importance in the modern era. The management of this field is not only limited to the transfer of theoretical knowledge, but also aims to form practical skills, management habits and principles of professional ethics in students. The main priorities for the effective management of the educational process are the preparation of modern curricula, enrichment of training methods with innovative technologies and strengthening the cooperation of educational institutions with the tourism industry.

The application of digital technologies, the use of online educational platforms and the study of international experience create conditions for flexible and efficient management of the educational process. This approach ensures both the preparation of students in accordance with the requirements of the modern tourism market and the increase in quality and transparency in the education system. At the same time, cooperation with international organizations and dual diploma programs make a significant contribution to the global recognition of tourism education.

The application of innovative methods, digital technologies and interactive learning models in the tourism education system increases the quality of teaching, develops students' creative and analytical thinking skills. At the same time, cooperation between tourism enterprises and higher and secondary specialized educational institutions, the organization of internship programs and the application of dual education models serve to strengthen the human resource potential in this field. Consequently, the effective management of educational processes in the tourism sector is an important factor contributing to the economic and cultural development of the country and ensuring the formation of highly qualified specialists.

Considering the rich cultural and natural heritage of Azerbaijan, the management of tourism education should be based on national values and local potential. This both increases the country's competitiveness in the tourism sector and serves to protect the national heritage. As a result, effective management of educational processes in the tourism sector both improves the quality of professional personnel training and makes a significant contribution to the economic and cultural development of the country.

Keywords: tourism education, tourism workers, education management, professional tourism workers, guiding, etc.

Севда ДЖАФАРОВА

УПРАВЛЕНИЕ ОБРАЗОВАТЕЛЬНЫМ ПРОЦЕССОМ В СФЕРЕ ТУРИЗМА

Абстракт: Управление образовательным процессом в сфере туризма является стратегически важным направлением в современную эпоху. Управление в этой сфере не ограничивается только передачей теоретических знаний, но и направлено на формирование у студентов практических навыков, управленческих навыков и принципов профессиональной этики. Основными приоритетами эффективного управления образовательным процессом являются разработка современных учебных программ, обогащение методов обучения инновационными технологиями и укрепление сотрудничества образовательных учреждений с туристической индустрией.

Применение цифровых технологий, использование онлайн-образовательных платформ и изучение международного опыта создают условия для гибкого и эффективного управления образовательным процессом. Такой подход обеспечивает как подготовку студентов в соответствии с требованиями современного рынка туризма, так и повышение качества и прозрачности системы образования. В то же время сотрудничество с международными организациями и программы двойных дипломов вносят значительный вклад в глобальное признание туристического образования.

Применение инновационных методов, цифровых технологий и интерактивных моделей обучения в системе туристского образования повышает качество преподавания, развивает творческое и аналитическое мышление студентов. Взаимодействие предприятий сферы туризма с высшими и средними специальными учебными заведениями, организация стажировок, применение моделей дуального образования способствуют укреплению кадрового потенциала в данной сфере. Следовательно, эффективное управление образовательными процессами в сфере туризма является важным фактором, способствующим экономическому и культурному развитию страны, формированию высококвалифицированных специалистов.

Учитывая богатое культурное и природное наследие Азербайджана, управление туристическим образованием должно основываться на национальных ценностях и местном потенциале. Это повышает конкурентоспособность страны в сфере туризма и служит защите национального наследия. В результате эффективное управление образовательными процессами в сфере туризма не только повышает качество профессиональной подготовки кадров, но и вносит значительный вклад в экономическое и культурное развитие страны.

Ключевые слова: туристическое образование, работники сферы туризма, управление образованием, профессиональные работники сферы туризма, экскурсоводство и др.

Giriş

Turizm müasir dövrdə dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindən biri kimi xüsusi əhəmiyyətə malik olmaqdadır. Bu sahənin dayanıqlı və səmərəli inkişafı üçün peşəkar kadr potensialı əsas şərtlərdən sayılır. Peşəkar turizm işçilərinin hazırlanması isə səmərəli tədris prosesinin qurulması və bu prosesin idarə olunması ilə sıx bağlıdır. Tədris prosesi yalnız biliklərin ötürülməsi deyil, həm də bacarıq, təcrübə, yaradıcılıq və analitik düşüncə formalaşdıran çoxşaxəli pedaqoji sistemdir. Turizm sahəsində tədrisin idarə olunması həm nəzəri biliklərin, həm də praktik vərdişlərin mütənasib şəkildə formalaşdırılmasını tələb edir.

Turizm təhsili öz spesifik xüsusiyyətlərinə görə digər ixtisaslardan fərqlənir. Bu sahədə tədris prosesi təkcə auditoriya şəraitində deyil, həm də real mühitdə – mehmanxanalarda, turizm agentliklərində, bələdçilik və xidmət müəssisələrində həyata keçirilir. Ona görə də tədris prosesinin idarə olunması burada daha çevik, situativ və nəticəyönümlü olmalıdır. Əgər ənənəvi ixtisaslarda tədrisin idarə olunması əsasən nəzəri tədris planı üzərində qurulursa, turizmdə bu proses təcrübə, əmək bazarı tələbləri və müasir texnologiyaların inteqrasiyası ilə uzlaşdırılmalıdır [5, s. 72].

Tədris prosesinin idarə olunması təhsil sisteminin əsas komponentlərindən biridir. Bu anlayış tədris fəaliyyətinin planlaşdırılması, təşkili, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsini əhatə edir. Turizm sahəsində bu proses daha mürəkkəbdir, çünki burada idarəetmə həm akademik, həm də praktiki səviyyədə həyata keçirilir. Tədris planlarının hazırlanması zamanı əmək bazarının tələbləri, beynəlxalq turizm standartları, yerli mədəni və iqtisadi reallıqlar nəzərə alınmalıdır.

Turizm təhsili idarə olunarkən əsas məqsəd müasir tələblərə cavab verən, analitik düşüncəyə malik, kommunikativ bacarıqları yüksək, dil biliklərinə və texnoloji savadlılığa sahib mütəxəssislər yetişdirməkdir. Bu məqsədə nail olmaq üçün idarəetmə prosesi sistemli şəkildə qurulmalıdır. Tədris planı strateji sənəd kimi çıxış edir və burada məqsədlər, fənn strukturu, təlim nəticələri, praktik fəaliyyət formaları və qiymətləndirmə mexanizmləri dəqiq müəyyən olunmalıdır.

Turizm müasir dövrdə iqtisadiyyatın ən dinamik sahələrindən biri olmaqla yanaşı, həm də mədəni, sosial və elmi təlim-tədris baxımından böyük əhəmiyyət kəsb edir. Qloballaşma şəraitində turizmin inkişafı yalnız təbii resurslardan istifadə və xidmət sektorunun genişlənməsi ilə deyil, həm də bu sahədə savadlı, peşəkar və müasir düşüncəli kadrların hazırlanması ilə birbaşa əlaqəlidir. Turizm sahəsində insan amili əsas hərəkətverici qüvvə hesab olunur. Buna görə də turizm yönümlü tədris proseslərinin düzgün tənzimlənməsi, onun elmi-metodik əsaslarla təşkil olunası və praktik bacarıqların formalaşdırılması günümüzün vacib tələblərindən biridir.

Bununla yanaşı, turizm sahəsində tədris prosesi çoxşaxəli xarakter daşıyır. O, yalnız nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də tələbələrin təcrübə, ünsiyyət, idarəetmə, marketinq, mədəni irs və ekoloji biliklər sahəsində bacarıqlarını formalaşdırmağı hədəfləyir. Turizm təhsili, mahiyyət etibarilə, tətbiqi yönümlü bir sistemdir. Bu sistemdə təlim prosesinin tənzimlənməsi — yəni məqsədin, məzmunun, metodların, qiymətləndirmə meyarlarının və nəticələrin

planlı şəkildə əlaqələndirilməsi — mühüm pedaqoji funksiyadır.

Turizm tədrisinin mahiyyətini formalaşdıran əsas prinsiplərdən biri inteqrativlikdir. Bu sahədə coğrafiya, iqtisadiyyat, mədəniyyətşünaslıq, psixologiya, ekologiya və menecment elmləri arasında qarşılıqlı əlaqə yaradılır. Bu baxımdan, turizm yönümlü tədris proqramlarının tənzimlənməsi çoxfaktorlu bir prosesdir. Tədris planlarında həm nəzəri biliklər, həm də praktiki fəaliyyətə yönəlmiş fənlər balanslaşdırılmalıdır. Tələbələr yalnız turizm anlayışlarını öyrənməməli, eyni zamanda real situasiyalarda qərar qəbul etmə, turistlərlə ünsiyyət qurma, tur planlaşdırma və xidmət keyfiyyətini təmin etmə bacarıqlarını da inkişaf etdirməlidirlər.

Turizm sahəsində tədris prosesinin idarə olunmasında pedaqoji yanaşmalar mühüm rol oynayır. Bu sahədə tələbələrin yalnız nəzəri bilikləri deyil, həm də davranış, ünsiyyət, mədəniyyətlərarası münasibət və etik normalar kimi bacarıqları formalaşdırılır. Buna görə də tədris prosesinin idarə olunması zamanı pedaqoji metodların seçimi çox əhəmiyyətlidir. Layihə əsaslı təlim, situasiya analizi, simulyasiya, praktiki təlim və "case study" üsulları turizm təhsilinin effektivliyini artıran əsas metodlardır [3].

Turizm tədrisinin idarə olunması proseslərində yeni çağırış və tələblərin nəzərə alınması

Müasir dövrdə turizm tədrisinin idarə olunması informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə sıx bağlıdır. Rəqəmsal platformalar, onlayn təlimlər, virtual ekskursiyalar və elektron qiymətləndirmə sistemləri tədris prosesinin idarə edilməsində çeviklik və şəffaflıq yaradır. Bu vasitələr müəllim-tələbə əlaqəsini gücləndirir, təlimin fərdiləşdirilməsini və məsafədən idarə olunmasını təmin edir. Belə sistemlər sayəsində turizm təhsili coğrafi məhdudiyyətləri aradan qaldırır və beynəlxalq səviyyədə əlaqələndirilmiş mühit yaradır.

Turizm sahəsində tədris proseslərinin idarə olunması həm də insan resurslarının idarə edilməsini əhatə edir. Burada müəllim heyətinin peşəkarlığı, ixtisasartırma imkanları və pedaqoji bacarıqları xüsusi əhəmiyyət daşıyır. Müəllim yalnız nəzəri məlumat verən şəxs deyil, həm də tələbələr üçün nümunə, bələdçi və motivasiya mənbəyidir. Buna görə də tədrisin idarə olunmasında müəllimlərin davamlı inkişafına yönəlik proqramlar, təcrübə mübadiləsi və beynəlxalq təlimlər mühüm yer tutur.

Tədris prosesinin effektiv idarə olunması üçün qiymətləndirmə mexanizmi də düzgün qurulmalıdır. Qiymətləndirmə təkcə imtahan və testlərlə məhdudlaşmamalı, tələbənin praktik fəaliyyətini, yaradıcılığını, problem həll etmə bacarığını da əks etdirməlidir. Turizm sahəsində tədris nəticələri çox vaxt real mühitdə – turların təşkilində, qonaqlarla ünsiyyətdə və xidmət keyfiyyətində özünü göstərir. Buna görə də formativ və summativ qiymətləndirmə üsullarının vəhdəti tətbiq olunmalıdır [2, s. 99].

Turizm təhsilinin idarə olunmasında beynəlxalq təcrübədən yararlanmaq vacibdir. Avropa və Asiya ölkələrində turizm üzrə tədris modelləri uzun illərin elmi-pedaqoji təcrübəsinə əsaslanır. Məsələn, İsveçrə, İtaliya və Sinqapur kimi ölkələrdə turizm təhsili real biznes mühiti ilə sıx əlaqədə qurulur. Bu modellərdə

tələbələr təhsil aldıqları dövrdə həm də turizm müəssisələrində işləyir, xidmət göstərmə mədəniyyətini praktik olaraq öyrənirlər. Azərbaycan da bu təcrübədən yararlanaraq öz təhsil sistemində "dual tədris" və "kooperativ təlim" modellərini tətbiq edə bilər.

Turizm tədrisinin yeni keyfiyyət mərhələlərində strateji planlaşdırma və sosial məsuliyyət

Tədris prosesinin idarə olunmasında strateji planlaşdırma mühüm yer tutur. Hər bir turizm təhsili müəssisəsi özünün uzunmüddətli inkişaf planına malik olmalıdır. Bu plan təhsil siyasətini, kadr hazırlığına tələbatı, beynəlxalq əməkdaşlıq istiqamətlərini, elmi-tədqiqat fəaliyyətini və sosial məsuliyyət layihələrini əhatə etməlidir. Belə yanaşma təhsil müəssisəsini sadəcə tədris mərkəzi deyil, həm də turizm sahəsinin elmi və innovativ inkişafına dəstək verən mərkəzə çevirir.

Turizm sahəsində tədris proseslərinin idarə olunması həm də menecment bacarıqlarının inkişafını tələb edir. Tədris prosesinin təşkilində planlaşdırma, koordinasiya, nəzarət və liderlik keyfiyyətləri ön plana çıxır. İdarəetmədə əsas məqsəd yalnız tədrisin gedişinə nəzarət deyil, həm də onun nəticələrinin davamlı olaraq təkmilləşdirilməsidir. Bu məqsədlə tədris idarəçiləri arasında komanda işi, qarşılıqlı əməkdaşlıq və innovativ düşüncə təşviq olunmalıdır.

Turizm təhsili prosesinin tənzimlənməsi dövlət siyasəti, milli təhsil strategiyası və beynəlxalq standartlarla uzlaşdırılmalıdır. Azərbaycanda bu istiqamətdə mühüm addımlar atılmışdır. "Turizm haqqında Qanun", "Təhsil haqqında Qanun", eləcə də "Azərbaycan Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" bu sahədə tədrisin məzmununun formalaşdırılmasına təsir göstərir. Bu sənədlərdə qeyd olunur ki, turizm sahəsində kadr hazırlığı beynəlxalq əmək bazarının tələblərinə uyğun olmalı, ixtisaslı mütəxəssislərin formalaşdırılmasını təmin etməlidir.

Müasir tədris prosesi tələbəyönümlü yanaşmaya əsaslanmalıdır. Bu yanaşma tələbənin aktiv öyrənməsini, yaradıcı düşünməsini və müstəqil qərar vermə bacarığını stimullaşdırır. Turizm ixtisaslarında bu yanaşma xüsusilə vacibdir, çünki gələcək mütəxəssis real situasiyalarda operativ və etik davranmağı bacarmalıdır. Tənzimlənmiş tədris prosesi bu məqsədlərə nail olmaq üçün planlı şəkildə qurulmalıdır: fənlərin ardıcıllığı, praktik məşğələlərin vaxt bölgüsü, qiymətləndirmə meyarlarının obyektivliyi və nəticələrin monitorinqi sistemli şəkildə aparılmalıdır.

Tədris prosesinin tənzimlənməsində əsas komponentlərdən biri praktiki təlimdir. Turizm sahəsində nəzəri biliklərin praktik tətbiqi xüsusi əhəmiyyət daşıyır. Tələbələr ekskursiya bələdçiliyi, turizm obyektlərinin idarə edilməsi, otel və restoran xidmətləri, beynəlxalq turizm münasibətləri, ekoturizm və mədəni turizm istiqamətlərində praktiki məşğələlərə cəlb olunmalıdırlar. Bu praktikumlar real turizm müəssisələri, muzeylər, mehmanxanalar və turizm şirkətləri ilə əməkdaşlıq şəraitində həyata keçirildikdə təlimin keyfiyyəti yüksəlir.

Turizm təhsili həm də mədəni dəyərlərin qorunmasına yönəlmiş sosial prosesdir. Turizm mütəxəssisləri yalnız iqtisadi fəaliyyətlə məşğul olmur, eyni zamanda mədəni irsin qorunması, ekoloji balansın saxlanması və yerli icmaların

rifahına töhfə verir. Buna görə də tədris prosesinin idarə olunması zamanı sosial məsuliyyət və etik davranış prinsipləri əsas prioritetlərdən biri olmalıdır. Tədris planlarında ekoturizm, mədəni irs menecmenti və davamlı inkişaf kimi mövzuların yer alması müasir dövrün zərurətidir [4, s. 87].

Müasir təhsil sistemində innovasiyalar və rəqəmsallaşma tədris prosesinin idarə olunmasında çevik modellərin tətbiqini tələb edir. Süni intellekt texnologiyaları, məlumat analitikası və rəqəmsal qiymətləndirmə vasitələri tədrisin keyfiyyətini yüksəltmək üçün yeni imkanlar yaradır. Bu vasitələrlə tələbələrin öyrənmə tərzi, maraqları və zəif tərəfləri daha asan müəyyən edilir, fərdi tədris planları hazırlanır. Nəticədə tədrisin idarə olunması daha səmərəli və tələbəyönümlü olur.

Turizm sahəsində tədris proseslərinin idarə olunmasında həm də dövlət siyasətinin rolu mühümdür. Turizm təhsilinə dair normativ-hüquqi baza, kadr hazırlığına dövlət sifarişi, beynəlxalq sertifikat sistemlərinin tanınması bu sahənin inkişafını müəyyənləşdirən əsas amillərdəndir. Dövlət orqanları ilə təhsil müəssisələri arasında koordinasiya gücləndirildikcə, tədris prosesinin idarə olunması daha sistemli xarakter alır [3, s. 67].

Tədris prosesinin idarə olunması yalnız ali məktəblərdə deyil, orta ixtisas və peşə təhsili müəssisələrində də aktualdır. Turizm sahəsində bələdçilər, aşpazlar, resepsionistlər, xidmət işçiləri kimi peşəkar kadrların hazırlanması ölkənin turizm keyfiyyətinə birbaşa təsir göstərir. Bu səbəbdən peşə təhsilinin idarə olunmasında praktiki təlimə, əmək bazarı ilə birbaşa əlaqəyə və real iş şəraitində öyrənməyə üstünlük verilməlidir.

Turizm sahəsində etibarlı tədris proseslərinin idarə olunması və müasir dövr

Tədris proseslərinin idarə olunmasında qarşıya çıxan problemlər də mövcuddur. Bunlara bəzən tədris planlarının əmək bazarına uyğun olmaması, təcrübə proqramlarının zəif təşkili, müəllim heyətinin praktiki təcrübəsinin azlığı və innovativ metodların tətbiqində çətinliklər daxildir. Bu problemlərin həlli üçün dövlət, təhsil müəssisələri və özəl sektor arasında əməkdaşlıq gücləndirilməli, turizm təhsili sahəsində elmi-tədqiqatlar artırılmalıdır.

Turizm sahəsində tədris proseslərinin idarə olunması həm də beynəlxalq əlaqələrin inkişafını tələb edir. Xarici universitetlərlə ikili diplom proqramları, tələbə-müəllim mübadiləsi və beynəlxalq konfransların təşkili tədris keyfiyyətini yüksəldir, təhsil alanlara qlobal turizm anlayışını mənimsəmək imkanı yaradır. Bu, eyni zamanda ölkənin turizm imicinə də müsbət təsir göstərir.

Nəticə etibarilə, turizm sahəsində tədris proseslərinin idarə olunması çoxşaxəli, dinamik və strateji əhəmiyyətə malik bir sistemdir. Bu sahədə effektiv idarəetmə yalnız təhsil keyfiyyətini artırmır, həm də turizm sənayesinin ümumi inkişafına bilavasitə töhfə verir. Tədris prosesinin düzgün planlaşdırılması, müasir texnologiyalarla idarə olunması, praktik biliklərin gücləndirilməsi və sosial məsuliyyət prinsiplərinin tətbiqi nəticəsində turizm təhsili ölkənin iqtisadi və mədəni inkişafında aparıcı rol oynaya bilər.

Turizm təhsili həm də mədəni irsin qorunmasına yönəlməlidir. Tələbələr yalnız iqtisadi gəlir əldə etməyə yox, həm də milli dəyərlərin, tarixi abidələrin və təbii sərvətlərin qorunmasına yönəlmiş məsuliyyətli turizm anlayışına

yiyələnməlidirlər. Bu məqsədlə tədris prosesinə "dayanıqlı turizm", "ekoturizm", "mədəni irs və turizm etikası" kimi fənlərin daxil edilməsi vacibdir. Beləliklə, tədris prosesi yalnız bilik vermir, həm də sosial və mənəvi dəyərlərin formalaşmasına xidmət edir.

Tənzimlənmiş tədris prosesi həm müəllim, həm də tələbə fəaliyyətinin qarşılıqlı əlaqəsini təmin etməlidir. Müəllim bu prosesdə yalnız bilik ötürən deyil, həm də təlimin fasilitatoru, yəni öyrənməni asanlaşdıran, istiqamət verən şəxs olmalıdır. O, tələbələrə fərdi yanaşmalı, onların maraq və potensialına uyğun tapşırıqlar verməli, interaktiv müzakirələr, debatlar və layihə işləri vasitəsilə tədrisi daha canlı etməlidir.

Tədris prosesinin qiymətləndirilməsi də tənzimləmənin mühüm hissəsidir. Qiymətləndirmə yalnız imtahan və ya testlərlə deyil, həm də davamlı müşahidə, təqdimatlar, layihə işləri və praktiki tapşırıqlar vasitəsilə həyata keçirilməlidir. Bu zaman tələbənin yalnız biliyi deyil, həm də bacarıqları, yaradıcılığı, komandada işləmək və qərar vermək qabiliyyəti nəzərə alınmalıdır.

Azərbaycanın turizm potensialı böyükdür və bu potensialın reallaşması təhsildə idarəetmənin keyfiyyətindən asılıdır. Turizm sahəsində tədris proseslərini səmərəli idarə etmək gələcəyin mütəxəssislərini hazırlamaqla yanaşı, ölkənin qlobal turizm bazarında rəqabət gücünü də artırır. Peşəkar, mədəniyyətli və yaradıcı turizm kadrlarının yetişdirilməsi üçün tədris prosesinin idarə olunması strateji əhəmiyyət kəsb edir. Beləliklə, tədris prosesinin hər mərhələsində idarəetmə mədəniyyəti formalaşdıqca, turizm sahəsi həm iqtisadi, həm də mənəvi baxımdan inkişafını davam etdirəcək [5, s. 63].

Turizm sahəsində tədris proseslərinin idarə olunması müasir dövrdə strateji əhəmiyyətə malikdir, çünki bu sahə həm iqtisadiyyatın, həm də mədəniyyətin mühüm istiqamətlərindən biridir. Turizm təhsili yalnız nəzəri biliklərin mənimsədilməsi ilə məhdudlaşmır; burada tələbələrə praktiki vərdişlərin, peşə etikası və idarəetmə bacarıqlarının aşılanması da əsas məqsədlərdəndir. Tədris prosesinin idarə olunması zamanı əsas diqqət turizm sektorunun dinamikliyinə uyğun çevik tədris modellərinin qurulmasına yönəlir. Bu sahədə kurikulumların müasir əmək bazarının tələblərinə uyğunlaşdırılması, təlim metodlarının innovativ texnologiyalarla zənginləşdirilməsi və beynəlxalq təcrübənin tətbiqi önəm daşıyır.

Yeni tədris proeslərinin idarə olunmasında insan resursları və müasir çağırışlar

Turizm təhsili sistemində idarəetmə həm də insan resurslarının düzgün planlaşdırılmasını əhatə edir. Müəllim heyətinin peşəkarlığı, onların daimi ixtisasartırma kurslarında iştirakı, həmçinin turizm müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi tədrisin keyfiyyətinə bilavasitə təsir göstərir. Təhsil müəssisələrinin turizm agentlikləri, otellər və regional turizm idarələri ilə birgə layihələr həyata keçirməsi tələbələrin təcrübə qazanmasını təmin edir. Bu, tədrisin real bazar şəraitinə inteqrasiyasını və gələcək mütəxəssislərin hazırlıq səviyyəsini yüksəldir.

Turizm sahəsində tədrisin idarə olunması yalnız pedaqoji prinsiplərlə deyil, həm də idarəetmə nəzəriyyələri ilə sıx bağlıdır. Burada planlaşdırma, motivasiya, nəzarət və qiymətləndirmə funksiyaları mühüm rol oynayır. Müasir tədris

modellərində nəticəyönümlü idarəetmə konsepsiyası ön plana çıxır. Bu, hər bir tələbənin fərdi bacarıqlarına uyğun inkişaf trayektoriyasının müəyyən edilməsinə və tədris resurslarının səmərəli istifadəsinə şərait yaradır. Təhsil prosesinin monitorinqi, tələbələrin nailiyyət göstəricilərinin təhlili və tədris planlarının nəticələr əsasında yenilənməsi idarəetmənin əsas mərhələlərindəndir.

Eyni zamanda, turizm sahəsində tədris proseslərinin idarə olunmasında rəqəmsal texnologiyaların rolu getdikcə artır. Onlayn tədris platformaları, virtual ekskursiyalar, 3D modelləşdirmə və simulyasiya proqramları tələbələrə real turizm mühitini dərindən öyrənmək imkanı yaradır. Bu yanaşma həm də pandemiya dövründə və sonrasında tədrisin fasiləsizliyini təmin edən əsas vasitələrdən biri olmuşdur. Rəqəmsal idarəetmə sistemləri vasitəsilə tədris prosesinin izlənməsi, qiymətləndirilməsi və resursların idarə olunması daha çevik və şəffaf formada həyata keçirilir [3, s. 85].

Turizm təhsilinin idarə olunmasında beynəlxalq əməkdaşlıq da mühüm istiqamətlərdən biridir. UNESCO, UNWTO (Ümumdünya Turizm Təşkilatı) kimi beynəlxalq qurumlarla əməkdaşlıq, ikili diplom proqramları, tələbə və müəllim mübadiləsi layihələri tədris prosesinin qlobal standartlara uyğunlaşdırılmasına şərait yaradır. Bu cür əməkdaşlıqlar nəticəsində tələbələr beynəlxalq turizm bazarının tələblərinə cavab verən bilik və bacarıqlara yiyələnirlər.

Tədris proseslərinin idarə olunmasında milli mədəniyyətin və turizm potensialının nəzərə alınması da vacibdir. Azərbaycan kimi zəngin təbii və mədəni irsə malik ölkələrdə turizm təhsili milli kimlik və dəyərlər əsasında formalaşmalıdır. Bu, tələbələrdə vətənpərvərlik hissini gücləndirir, eyni zamanda ölkənin mədəni irsinin qorunmasına və dünyada tanıdılmasına töhfə verir. Kurikulumlarda Azərbaycanın tarixi abidələri, milli mətbəxi, musiqi irsi və ekoturizm imkanları ilə bağlı fənlərin tədrisi bu istiqamətdə əhəmiyyətli addımdır [1, s. 99].

Tədris prosesinin tənzimlənməsində etik dəyərlərin və peşə davranışının formalaşdırılması da vacibdir. Turizm sahəsində çalışan hər bir mütəxəssis yüksək ünsiyyət mədəniyyətinə, tolerantlığa və qonaqpərvərlik ənənələrinə malik olmalıdır. Tədris prosesində bu keyfiyyətlərin formalaşdırılmasına xüsusi diqqət yetirilməli, tələbələrə mədəni müxtəliflik, beynəlxalq etik qaydalar və müştəri məmnuniyyəti prinsipləri aşılanmalıdır.

Nəticə etibarilə, turizm mahiyyətli tədris proseslərinin tənzimlənməsi müasir təhsil sisteminin strateji istiqamətlərindən biridir. Bu prosesin uğurlu təşkili üçün məqsəd, məzmun, metod və nəticə arasında balans yaradılmalı, tədris həm nəzəri, həm də praktiki yönümlü olmalıdır. Turizm təhsili yalnız bilik qazandırmamalı, həm də tələbələrdə peşəkar düşüncə tərzi, mədəni məsuliyyət və innovativ yanaşma formalaşdırmalıdır. Bu məqsədlə tədris planları mütəmadi yenilənməli, beynəlxalq təcrübə öyrənilməli və müasir texnologiyalarla zənginləşdirilməlidir.

Turizm sahəsində keyfiyyətli təhsil həm milli iqtisadiyyatın, həm də mədəni irsin inkişafına xidmət edir. Peşəkar kadr hazırlığı, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi və tədris prosesinin sistemli tənzimlənməsi nəticəsində Azərbaycan turizmi daha dayanıqlı, rəqabətqabiliyyətli və beynəlxalq səviyyədə tanınan bir sahəyə çevrilə bilər.

Turizm tədrisinin effektiv idarə olunmasında innovativ yanaşmalar

Turizm sahəsində tədrisin səmərəli idarə olunması həm də elmi tədqiqatların tətbiqi ilə əlaqəlidir. Turizm menecmenti, xidmət keyfiyyəti, ekoloji davamlılıq və mədəni irs idarəçiliyi kimi mövzular üzrə aparılan elmi araşdırmalar tədris prosesinə inteqrasiya olunmalıdır. Bu, tələbələrdə tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Elmi nəticələr əsasında tədris proqramlarının yenilənməsi və innovativ yanaşmaların tətbiqi təhsil sisteminin dayanıqlılığını təmin edir.

Turizm təhsili idarəetməsində liderlik və kommunikasiya bacarıqları xüsusi yer tutur. Tədris prosesinin uğurla idarə olunması üçün rəhbərlərin strateji düşünməsi, əməkdaşlıq mədəniyyətini formalaşdırması və müəllim-tələbə münasibətlərində demokratik yanaşma tətbiq etməsi zəruridir. Effektiv idarəetmə təhsil müəssisəsində motivasiya mühitinin yaradılmasını, komanda işinin gücləndirilməsini və innovativ ideyaların dəstəklənməsini tələb edir.

Nəticə etibarilə, turizm sahəsində tədris proseslərinin idarə olunması çoxşaxəli və dinamik bir sistemdir. Bu sahədə keyfiyyətli təhsilin təmin edilməsi üçün dövlət siyasəti, təhsil müəssisələri, özəl sektor və beynəlxalq tərəfdaşlar arasında sıx əməkdaşlıq vacibdir. Tədris prosesinin elmi əsaslarla, müasir texnologiyalarla və milli dəyərlərlə uzlaşdırılması Azərbaycan turizminin gələcək inkişafını təmin edən ən mühüm amillərdəndir. İdarəetmə prosesi yalnız təşkilati fəaliyyət deyil, həm də yaradıcılıq, planlaşdırma və sosial məsuliyyət tələb edən kompleks bir sistemdir [2, s. 72].

İrəliləyən dövrlərdə turizm sahəsində tədrisin daha da təkmilləşdirilməsi üçün regionlarda ixtisaslaşmış təlim mərkəzlərinin yaradılması, innovativ laboratoriyaların qurulması və startap yönümlü layihələrin dəstəklənməsi mühüm əhəmiyyət daşıyacaq. Beləliklə, turizm təhsilində idarəetmə yanaşmaları yalnız peşəkar kadr hazırlığı ilə deyil, həm də milli turizm strategiyasının həyata keçirilməsi ilə birbaşa bağlı olacaq. Bu, Azərbaycanın qlobal turizm məkanında rəqabət qabiliyyətini artıracaq və təhsilin davamlı inkişafını təmin edəcək.

Nəticə

- Turizm sahəsində tədris proseslərinin səmərəli idarə olunması bu sahədə peşəkar, ixtisaslı və praktik bacarıqlara malik kadrların hazırlanmasında əsas rol oynayır;
- Tədris prosesinin idarə olunmasında planlaşdırma, təşkilatçılıq, motivasiya və nəzarət funksiyalarının düzgün tətbiqi təhsil keyfiyyətinin yüksəldilməsinə xidmət edir;
- Rəqəmsal texnologiyaların, innovativ təlim metodlarının və interaktiv yanaşmaların tətbiqi turizm təhsilinin müasir tələblərə uyğunlaşdırılmasını təmin edir;
- Turizm müəssisələri ilə təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsi tələbələrin real istehsalat mühitinə inteqrasiyasını və praktiki təcrübə qazanmasını asanlaşdırır;
- Tədris prosesində keyfiyyətin idarə olunması mexanizmlərinin tətbiqi turizm təhsilinin nəticəyönümlü olmasına və məzunların əmək bazarına uğurla

inteqrasiyasına şərait yaradır;

- Müasir idarəetmə prinsiplərinə əsaslanan tədris strategiyaları turizm sahəsində davamlı inkişaf, ekoloji məsuliyyət və mədəni irsin qorunması kimi dəyərlərin tədris prosesinə inteqrasiyasını təmin edir;
- Turizm sahəsində tədris proseslərinin idarə olunmasının elmi və praktiki əsaslarla təkmilləşdirilməsi ölkənin turizm potensialından daha səmərəli istifadə olunmasına və turizm təhsilinin beynəlxalq standartlara uyğunlaşdırılmasına şərait yaradır;
- Ümumilikdə, turizm sahəsində tədris proseslərinin məqsədyönlü və elmi əsaslarla idarə olunması turizm sənayesinin dayanıqlı inkişafına və ölkənin beynəlxalq rəqabət qabiliyyətinin artmasına mühüm töhfə verir.

Ədəbiyyat

1. Zeynallı Y.Q. Azərbaycanda turizm sistemi fəaliyyətinin və idarə olunmasının iqtisadi-coğrafi problemləri. Bakı: Tuna, 1999
2. Turizmin davamlı inkişafı (yerli planlaşdırma üzrə mütəxəssislər üçün vəsait). Bakı, GİTN, 2001.
3. Turizm sahəsində normativ-hüquqi sənədlər. Bakı, GİTN, 2002.
4. Vəliyev X. Xəzər sahillərinə səyahət. Bakı, Gənclik, 1982.
5. Məmmədzadə M. Ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsində turizmin rolu və əhəmiyyəti. Təhsil problemləri qəzeti. № 03-04, B., 2007.

Məqalənin redaksiyaya daxilolma tarixi: 17.10.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.10.2025
Məqalənin çapa qəbul olunma tarixi: 24.10.2025

DOI: doi.org/10.61226/12.2.2023/20253.2
UOT: 338.48:008
Sevinc ƏSGƏROVA
Naxçıvan Dövlət Universiteti,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
ceferovas72@gmail.com
https://orcid.org/0000-0001-6676-2604

TURİZM VƏ MİLLİ MƏDƏNİYYƏTİMİZ

Xülasə: Məqalədə, göstərilir ki, Azərbaycanın zəngin tarixi, mədəni irsi və təbii gözəllikləri turizmin inkişafı üçün möhkəm əsas yaradır. Turizm təkcə istirahət vasitəsi deyil, həm də milli kimliyin, xalq sənətkarlığının, musiqinin və mətbəxin dünyaya tanıdılması üçün mədəni körpü rolunu oynayır. Şəki, Qəbələ, Naxçıvan, Şuşa kimi şəhərlər, muğam, xalçaçılıq, aşıq sənəti kimi dəyərlər Azərbaycanı mədəni turizmin regional mərkəzinə çevirir. Turizmin inkişafı həm iqtisadi gəlir gətirir, həm də milli dəyərlərin qorunmasına, qədim sənət növlərinin yenidən dirçəlməsinə xidmət edir.

Bəhs olunur ki, müasir dövrdə rəqəmsallaşma, gənclərin iştirakı və Qarabağ bölgəsinin bərpası turizm sahəsinə yeni nəfəs gətirir. Turizm və mədəniyyət bir-birini tamamlayan iki sahə kimi Azərbaycan cəmiyyətinin gələcək inkişafında əsas rol oynayır. Bu əlaqənin gücləndirilməsi milli irsin beynəlxalq səviyyədə təbliğini, mədəni müxtəlifliyin qorunmasını və ölkənin qlobal imicinin möhkəmlənməsini təmin edir. Turizm Azərbaycanın mədəniyyətini yaşadan və onu dünyaya tanıdan ən təsirli vasitədir.

Turizm və milli mədəniyyət bir-biri ilə sıx bağlı olan iki mühüm sahədir. Milli mədəniyyətin zənginliyi və özünəməxsusluğu turizmin inkişafı üçün əsas resurs rolunu oynayır. Azərbaycanın çoxəsrlik tarixi, mədəni irsi, folkloru, musiqisi, milli mətbəxi və memarlıq abidələri ölkəyə gələn turistlər üçün xüsusi maraq doğurur. Bu baxımdan, turizm təkcə iqtisadi gəlir mənbəyi deyil, həm də milli dəyərlərin dünyaya tanıdılmasında mühüm vasitədir.

Eyni zamanda, milli mədəniyyətin qorunması və turizm fəaliyyəti arasında düzgün balansın yaradılması böyük əhəmiyyət daşıyır. Mədəni turizmin inkişafı nəticəsində yerli icmaların iqtisadi rifahı artır, ənənələr yaşadılır və mədəni irs gələcək nəsillərə ötürülür. Beləliklə, turizm və milli mədəniyyətin qarşılıqlı təsiri ölkənin beynəlxalq imicinin formalaşmasına, milli kimliyin güclənməsinə və sosial-iqtisadi inkişafın dayanıqlığına mühüm töhfə verir.

Açar sözlər: Turizm, milli mədənyyət, maddi-mənəvi dəyərlər, coğrafi yerləşmə, turizm cəlbediciliyi və s.

Sevinc ASKEROVA

TOURISM AND OUR NATIONAL CULTURE

Abstract: The article shows that Azerbaijan's rich history, cultural heritage and natural beauties create a solid foundation for the development of tourism. Tourism is not only a means of recreation, but also plays the role of a cultural bridge for introducing national identity, folk crafts, music and cuisine to the world. Cities such as Sheki, Gabala, Nakhchivan, Shusha, values such as mugham, carpet weaving, ashug art make Azerbaijan a regional center of cultural tourism. The development of tourism brings both economic income and serves to protect national values and revive ancient art forms.

It is argued that in the modern era, digitalization, youth participation and the restoration of the Karabakh region breathe new life into the tourism sector. Tourism and culture, as two complementary areas, play a key role in the future development of Azerbaijani society. Strengthening this connection ensures the promotion of national heritage at the international level, the preservation of cultural diversity and the strengthening of the country's global image. Tourism is the most effective means of preserving the culture of Azerbaijan and introducing it to the world.

Tourism and national culture are two important areas that are closely related to each other. The richness and uniqueness of national culture play the role of a key resource for the development of tourism. The centuries-old history, cultural heritage, folklore, music, national cuisine and architectural monuments of Azerbaijan are of particular interest to tourists visiting the country. In this regard, tourism is not only a source of economic income, but also an important means of introducing national values to the world.

At the same time, creating the right balance between the preservation of national culture and tourism activities is of great importance. As a result of the development of cultural tourism, the economic well-being of local communities increases, traditions are preserved and cultural heritage is passed on to future generations. Thus, the mutual influence of tourism and national culture makes a significant contribution to the formation of the country's international image, strengthening national identity and sustainability of socio-economic development.

Keywords: Tourism, national culture, material and spiritual values, geographical location, tourist attractiveness, etc.

Севинч АСКЕРОВА

ТУРИЗМ И НАША НАЦИОНАЛЬНАЯ КУЛЬТУРА

Абстракт: В статье показано, что богатая история, культурное наследие и природные красоты Азербайджана создают прочную основу для развития туризма. Туризм — это не только способ отдыха, но и своего рода культурный мост, знакомящий мир с национальной идентичностью, народными ремёслами, музыкой и кулинарным искусством. Такие города, как Шеки, Габала, Нахчыван, Шуша, а также такие ценности, как мугам,

ковроткачество и ашугское искусство, делают Азербайджан региональным центром культурного туризма. Развитие туризма приносит как экономический доход, так и служит защите национальных ценностей и возрождению древних форм искусства.

Утверждается, что в современную эпоху цифровизация, участие молодёжи и восстановление Карабахского региона вдохнули новую жизнь в туристическую сферу. Туризм и культура, как две взаимодополняющие области, играют ключевую роль в будущем развитии азербайджанского общества. Укрепление этой связи обеспечивает популяризацию национального наследия на международном уровне, сохранение культурного разнообразия и укрепление мирового имиджа страны. Туризм – наиболее эффективное средство сохранения культуры Азербайджана и её популяризации в мире.

Туризм и национальная культура – две важные сферы, тесно связанные друг с другом. Богатство и самобытность национальной культуры играют роль ключевого ресурса для развития туризма. Многовековая история, культурное наследие, фольклор, музыка, национальная кухня и архитектурные памятники Азербайджана представляют особый интерес для туристов, посещающих страну. В этой связи туризм является не только источником экономического дохода, но и важным средством ознакомления мира с национальными ценностями.

При этом большое значение имеет создание правильного баланса между сохранением национальной культуры и туристической деятельностью. В результате развития культурного туризма повышается экономическое благосостояние местных сообществ, сохраняются традиции и передается культурное наследие будущим поколениям. Таким образом, взаимное влияние туризма и национальной культуры вносит значительный вклад в формирование международного имиджа страны, укрепление национальной идентичности и устойчивость социально-экономического развития.

Ключевые слова: Туризм, национальная культура, материальные и духовные ценности, географическое положение, туристическая привлекательность и т. д.

Giriş

Turizm insan fəaliyyətinin ən qədim, eyni zamanda ən müasir sahələrindən biridir. Tarixin dərinliklərindən bu günə qədər insanlar yeni torpaqları, fərqli mədəniyyətləri, dilləri, adət-ənənələri kəşf etmək, istirahət və zövq almaq, bəzən də mənəvi rahatlıq tapmaq məqsədilə səyahət etmişlər. Müasir dövrdə isə turizm yalnız istirahət və əyləncə vasitəsi deyil, həm də ölkələrin iqtisadi inkişafının, beynəlxalq əlaqələrinin və mədəni inteqrasiyasının mühüm tərkib hissəsinə çevrilmişdir. Azərbaycan da bu baxımdan zəngin turizm potensialına malik ölkələrdən biridir. Onun təbii-coğrafi şəraiti, qədim tarixi, çoxşaxəli mədəniyyəti və qonaqpərvər xalqı turizmin inkişafı üçün əlverişli zəmin yaradır.

Azərbaycan coğrafi baxımdan Şərqlə Qərbin kəsişdiyi ərazidə yerləşir. Bu coğrafi mövqe əsrlər boyu ölkəmizi müxtəlif sivilizasiyaların görüş yerinə

çevirmiş, burada mədəniyyətlərin qarşılıqlı təsiri baş vermişdir. Bu amil nəticəsində Azərbaycan torpaqları zəngin tarixi abidələrlə, memarlıq nümunələri ilə, qədim şəhər mədəniyyəti ilə formalaşmışdır. Bakı, Şəki, Gəncə, Naxçıvan, Qəbələ, Şuşa, Ordubad kimi şəhərlər bu mədəniyyətin canlı şahidləridir. Turizmin inkişafında bu şəhərlərin hər biri özünəməxsus rol oynayır və turistlərə həm qədimlik, həm də müasirlik aurasını bir arada hiss etməyə imkan verir [3, s. 63].

Azərbaycanın mədəni irsi çoxqatlıdır. Burada türk, fars, ərəb, Qafqaz və Avropa təsirlərinin sintezi müşahidə olunur. Lakin bütün bu təsirlər içərisində Azərbaycan xalqının özünəməxsus kimliyi, dili, musiqisi, memarlığı və xalq sənətkarlığı ön plandadır. Mədəniyyət bir xalqın ruhudur, turizm isə bu ruhu dünyaya tanıtma vasitəsidir. Ona görə də turizm yalnız iqtisadi fəaliyyət sahəsi kimi deyil, həm də milli mədəniyyətin təbliği və qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın turizm potensialını dəyərləndirərkən onun təbii resurslarını da qeyd etmək vacibdir. Xəzər dənizi sahilləri, dağlar, meşələr, mineral bulaqlar, unikal iqlim şəraiti ölkəmizi həm yay, həm qış turizmi üçün cəlbedici edir. Qusar, Qəbələ, Quba, Şahdağ, Naftalan, Lənkəran kimi bölgələr müxtəlif turizm növləri üçün geniş imkanlar yaradır. Lakin bütün bu təbii gözəlliklərə əlavə dəyər verən əsas məqam mədəni mühitdir. Turist yalnız gözəllik görmək deyil, həm də hiss etmək, öyrənmək və dərk etmək istəyir. Məhz burada mədəniyyətin rolu ön plana çıxır.

Turizm və milli mədəniyyət: milli- mənəvi dəyərlərin yaşadılması

Azərbaycanın xalq musiqisi, aşıq sənəti, muğamı, xalçaçılığı, milli geyimləri, mətbəxi və adətləri turistlərin ən çox maraq göstərdiyi mədəni elementlərdəndir. UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil olunan muğam sənəti, aşıq yaradıcılığı, xalçaçılıq ənənəsi və Novruz bayramı dünya miqyasında Azərbaycan mədəniyyətinin simvollarına çevrilmişdir. Turizm vasitəsilə bu dəyərlər daha geniş auditoriyaya tanıdılır və mədəni diplomatiyanın əsas alətinə çevrilir.

Azərbaycanın mədəni turizmi dedikdə, yalnız tarixi abidələrin və muzeylərin ziyarəti nəzərdə tutulmur. Buraya həm də musiqi festivalları, folklor bayramları, sənət sərgiləri, milli yeməklərin təqdimat tədbirləri, xalq oyunlarının nümayişi kimi fəaliyyətlər daxil olunur. Məsələn, Şəki İpək Yolu Festivalı, Qəbələ Musiqi Festivalı, Qara Qarayev adına Beynəlxalq Musiqi Festivalı, "Fantaziya" caz günləri kimi tədbirlər həm yerli, həm də xarici turistlərin mədəni zövqünə xidmət edir. Belə tədbirlər vasitəsilə Azərbaycan yalnız təbiət gözəllikləri ilə deyil, həm də incəsənət və yaradıcılıq mərkəzi kimi tanınır [2, s. 67].

XXI əsr bəşəriyyətin sürətli inkişaf dövrü kimi səciyyələnir. Qloballaşma prosesləri, texnologiyanın tərəqqisi, informasiya mübadiləsinin asanlaşması və sərhədlərin nisbətən açılması nəticəsində insanlar daha çox səyahət etməyə, yeni ölkələri, xalqları və mədəniyyətləri tanımağa meyilli olublar. Turizm artıq sadəcə istirahət və əyləncə vasitəsi deyil, həm də iqtisadiyyatın mühüm sahəsi, mədəni diplomatiyanın və beynəlxalq əlaqələrin əsas vasitələrindən biri hesab olunur. Müasir turizm bir ölkənin inkişaf səviyyəsini, cəmiyyətin qonaqpərvərlik

ənənələrini və mədəni dəyərlərə münasibətini əks etdirən göstəricidir. Turizmin əsas məqsədlərindən biri insanların müxtəlif bölgələrdəki mədəni irs nümunələri ilə tanış olması, onların qorunması və təbliğinə töhfə verməsidir.

16. Naslund, B., Peters, M., & Smith, J. (2016). European Tourism Trends and Prospects. Brussels: European Travel Commission.
17. Boluk, K. A., Cavaliere, C. T., & Higgins-Desbiolles, F. (2019). Critical Perspectives on Tourism and Sustainability. Abingdon: Routledge.
18. Iorember, P., Alagidede, P., & Etim, P. (2021). Tourism and Economic Growth in Emerging Markets. New York: Springer.
19. Wondirad, A., Tolkach, D., & King, B. (2021). Sustainable Tourism Development in Developing Countries. London: Edward Elgar Publishing.
20. Faber, B. & Cecile, G. (2019). Tourism and Economic Development: Evidence from Mexico's Coastline. American Economic Review.

Məqalənin redaksiyaya daxilolma tarixi: 09.09.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.10.2025
Məqalənin çapa qəbul olunma tarixi: 27.10.2025

DOI: doi.org/10.61226/12.2.2023/20253.4
UOT 33 / 379.85
Sabir QULUZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, dekan müavini
iqtisad üzrə fəlsəfə doktoru, dosent
s.quluzade@atmu.edu.az
https://orcid.org/0000-0002-3827-9081

REGİONAL İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN GÜCLƏNDİRİLMƏSİ BAXIMINDAN TURİZM DESTİNASİYASININ İNKİŞAFI

Xülasə: Azərbaycanın turizm sektorunda mövcud potensialın reallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər daxili turizmin genişləndirilməsi, xarici turist axınının stimullaşdırılması və müasir marketinq alətlərinin tətbiqi ilə səciyyələnir. Mədəni turizm bu strategiyanın mühüm tərkib hissəsi olaraq ölkənin beynəlxalq bazarda rəqabət qabiliyyətini yüksəldir. Azərbaycanın zəngin tarixi irsi bu sahədə əlavə bazar üstünlüyü formalaşdırır və ölkənin imicinin güclənməsinə, sosial-iqtisadi sabitliyin artmasına müsbət təsir göstərir.

Dörd əsas turizm dəhlizi boyunca yerləşən mədəni obyektlər yüksək potensiala malik olsa da, bəzi rayonlarda təbii və antropogen təsirlər nəticəsində bu obyektlərə dəymiş ziyan turist təəssüratlarını mənfi istiqamətdə formalaşdırır. Bu vəziyyət ölkənin mədəni irsinin tam dərk edilməsini çətinləşdirir və turizm layihələrinin inkişaf tempini zəiflədir. Əksinə, mədəni qaynaqların sistemli idarə edilməsi və qorunması məşğulluğun artmasına, icmaların gəlirlərinin yüksəlməsinə və investor maraqlarının güclənməsinə şərait yaradır.

Mədəni abidələrin qeydiyyata alınması, mövcud vəziyyətlərinin təhlili və məqsədli istifadə planlarının hazırlanması turizm siyasətinin əsas prioritetlərindəndir. Bu istiqamətdə fərqli məzmunlu və dəyərləri əks etdirən turizm məhsullarının yaradılması ölkənin beynəlxalq təbliğinə və gəlir mənbələrinin şaxələndirilməsinə strateji töhfə verir.

Müasir mərhələdə turizm sektoru yalnız xidmət sahəsi deyil, həm də kapital və investisiya axınlarını təşviq edən mühüm maliyyə mexanizmidir. Kurort məkanları infrastrukturun genişləndirildiyi, işgüzar fəallığın artdığı və sərmayələr üçün əlverişli şəraitin yarandığı kompleks iqtisadi vahidlər kimi qiymətləndirilməlidir. Dövlət-özəl tərəfdaşlıq layihələri və "intellektual ixtisaslaşma" yanaşmaları regionların iqtisadi inkişaf modelinə yeni keyfiyyət gətirərək turizmi strateji prioritetə çevirir.

Bu amillər turizm məkanlarının inkişafının investisiya strategiyalarının uğurlu həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini təsdiqləyir.

Açar sözlər: Turizm destinasiyası, investisiya cəlbediciliyi, mədəni turizm, regional iqtisadi inkişaf, dövlət-özəl tərəfdaşlığı

Sabir GULUZADEH

DEVELOPMENT OF TOURISM DESTINATIONS IN TERMS OF STRENGTHENING REGIONAL INVESTMENT ATTRATIVENESS

Abstract: The measures implemented to realize the existing potential in Azerbaijan's tourism sector are characterized by the expansion of domestic tourism, stimulation of inbound tourist flows, and the application of modern marketing tools. Cultural tourism, as an integral part of this strategy, enhances the country's competitiveness in the international market. Azerbaijan's rich historical heritage provides additional market advantages in this field and positively affects the strengthening of the country's image and socio-economic stability.

Although cultural sites located along four main tourism corridors possess high potential, in some regions, natural and anthropogenic impacts have damaged these sites, negatively shaping tourists' impressions. This situation complicates the full perception of the country's cultural heritage and slows down the development of tourism projects. Conversely, systematic management and preservation of cultural resources contribute to increased employment, higher community incomes, and greater investor interest.

Registration of cultural monuments, assessment of their current conditions, and preparation of targeted usage plans are among the main priorities of tourism policy. Creating tourism products that reflect unique content and cultural values makes a strategic contribution to the country's international promotion and the diversification of income sources.

At the current stage, the tourism sector is not only a service industry but also an important financial mechanism that stimulates capital and investment flows. Resort destinations should be considered complex economic units where infrastructure expands, business activity increases, and a favorable environment for investment is created. Public-private partnership projects and "smart specialization" approaches bring new quality to the economic development model of regions, making tourism a strategic priority.

These factors confirm that the development of tourism destinations has special importance in the successful implementation of investment strategies.

Keywords: Tourism destination, investment attractiveness, cultural tourism, regional economic development, public-private partnership

Сабир ГУЛУЗАДЕ

РАЗВИТИЕ ТУРИСТСКИХ ДЕСТИНАЦИЙ С ТОЧКИ ЗРЕНИЯ УКРЕПЛЕНИЯ РЕГИОНАЛЬНОЙ ИНВЕСТИЦИОННОЙ ПРИВЛЕКАТЕЛЬНОСТИ

Абстракт: Мероприятия, реализуемые в целях использования существующего потенциала туристского сектора Азербайджана, характеризуются расширением внутреннего туризма, стимулированием

въездного туристического потока и применением современных маркетинговых инструментов. Культурный туризм, являясь важной частью данной стратегии, повышает конкурентоспособность страны на международном рынке. Богатое историческое наследие Азербайджана обеспечивает дополнительные рыночные преимущества и положительно влияет на укрепление имиджа страны и социально-экономическую стабильность.

Хотя культурные объекты, расположенные вдоль четырех основных туристских коридоров, обладают высоким потенциалом, в некоторых районах естественные и антропогенные воздействия нанесли им ущерб, что отрицательно сказывается на впечатлениях туристов. Такая ситуация затрудняет полное восприятие культурного наследия страны и замедляет темпы реализации туристских проектов. Напротив, системное управление и сохранение культурных ресурсов способствует росту занятости, увеличению доходов местных сообществ и усилению интереса инвесторов.

Регистрация культурных памятников, анализ их текущего состояния и разработка планов целевого использования относятся к основным приоритетам туристской политики. Создание туристских продуктов, отражающих уникальное содержание и культурные ценности, вносит стратегический вклад в международное продвижение страны и диверсификацию источников дохода.

На современном этапе туристский сектор рассматривается не только как сфера услуг, но и как важный финансовый механизм, стимулирующий приток капитала и инвестиций. Курортные дестинации следует оценивать как сложные экономические единицы, в которых расширяется инфраструктура, растет деловая активность и создаются благоприятные условия для инвестиций. Проекты государственно-частного партнерства и подходы «интеллектуальной специализации» привносят новое качество в модель экономического развития регионов, делая туризм стратегическим приоритетом.

Эти факторы подтверждают, что развитие туристских дестинаций имеет особое значение для успешной реализации инвестиционных стратегий.

Ключевые слова: туристская дестинация, инвестиционная привлекательность, культурный туризм, региональное экономическое развитие, государственно-частное партнерство

Turizmin regional iqtisadi inkişafda rolu

2014–2025-ci illər ərzində Azərbaycan Respublikasında turizm sektoru, xüsusilə regionların sosial-iqtisadi inkişafının və dirçəlişinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Qeyri-neft sektorunun inkişafına yönəlmiş dövlət siyasəti və həyata keçirilən islahatlar nəticəsində turizmin ümumi daxili məhsulda (ÜDM) payı nəzərəçarpacaq dərəcədə artmışdır. Bu artım prosesində nəqliyyat infrastrukturunun, o cümlədən avtomobil yollarının, beynəlxalq hava limanlarının, müasir otel və kurort komplekslərinin yenilənməsi və modernləşdirilməsi xüsusi rol oynamışdır.

2018–2023-cü illər müddətində Qəbələ, Zaqatala və Lənkəran kimi regionlarda həm dövlət, həm də özəl investisiyaların həcmi əhəmiyyətli dərəcədə artmışdır. Bu dövrdə fəaliyyət göstərən turizm obyektlərinin sayı 21% artmış, yerləşdirmə vasitələrinin (yataq fondunun) tutumu isə əlavə 28 min yer ilə genişlənmişdir. Turizm sektorunda məşğulluq səviyyəsi də kəskin yüksəlmiş, 2014-cü ildəki 220 min nəfərlə müqayisədə 2024-cü ildə bu göstərici 437,6 min nəfərə çatmışdır.

2016-cı ildə qəbul edilmiş "Strateji Yol Xəritəsi" və 2018-ci ildə Dövlət Turizm Agentliyinin yaradılması ilə turizmin idarə olunması və inkişafı istiqamətində institusional baza möhkəmləndirilmişdir. Azərbaycan Turizm Bürosunun fəaliyyətə başlaması ilə sektorun beynəlxalq səviyyədə təşviqi və tənzimlənməsi yeni mərhələyə qədəm qoymuşdur. "Başqa tərəfə bax" adlı milli kampaniya, eləcə də ekoloji, aqrar və tibbi turizm məhsulları ölkənin beynəlxalq turizm imicinin formalaşmasında mühüm rol oynamışdır.

Turist axını baxımından da əhəmiyyətli dəyişikliklər müşahidə olunmuşdur: 2014-cü ildə 2,3 milyon nəfər təşkil edən xarici turistlərin sayı 2019-cu ildə 3,17 milyona çatmışdır. COVID-19 pandemiyası dövründə, 2021-ci ildə bu göstərici 792 min nəfərə qədər azalsa da, 2024-cü ildə yenidən artaraq 2,09 milyon səviyyəsinə yüksəlmişdir. Eyni zamanda, turizm gəlirləri də artmaqda davam edir: 2019-cu ildə 4,1 milyard manat olan gəlir həcmi 2023-cü ildə daha yüksək nəticə göstərmiş, proqnozlara əsasən 2025-ci ildə bu rəqəm 1,03 milyard ABŞ dollarına çatacaqdır. Bu, ölkəyə xarici valyuta axınının artmasına və regionların iqtisadi dirçəlişinə əlavə stimul verəcəkdir [20, s.55].

Azərbaycanın regionlarında – Qəbələ, Şəki, Quba–Qusar, Lənkəran–Astara və Naftalan kimi turizm baxımından perspektivli ərazilərdə infrastrukturun genişləndirilməsi davam etmişdir. Bu bölgələrdə yerləşdirmə və xidmət obyektlərinin, eləcə də ümumi turizm fondunun sayında nəzərəçarpacaq artım qeydə alınmışdır. 2020–2021-ci illərdə pandemiyanın yaratdığı durğunluq 2022-ci ildən etibarən həyata keçirilən yeni təşəbbüslər nəticəsində tədricən aradan qalxmağa başlamışdır.


Hava nəqliyyatı infrastrukturunun genişləndirilməsi və beynəlxalq uçuşların təşkili turizmin bərpasında mühüm amillərdən biri olmuşdur. Bu tədbirlər Azərbaycanın regionlarının beynəlxalq səviyyədə tanınmasına və yeni bazarlara çıxış imkanlarının artmasına şərait yaratmışdır. Mövcud proqnozlara əsasən, 2025-ci ilə qədər ölkəyə səfər edən turistlərin coğrafiyası daha da genişlənəcək, Azərbaycanın turizm məhsulları Asiya, Yaxın Şərq və Avropa kimi əsas regional bazarlarda daha geniş təmsil olunacaqdır.

Ölkənin həyata keçirdiyi turizm siyasəti təkcə bu sahənin inkişafına deyil, eyni zamanda regional iqtisadiyyatın şaxələndirilməsi və çevik inkişafına, həmçinin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına yönəlmişdir. Cari tendensiyalar göstərir ki, qarşıdakı illərdə turizm sektoru Azərbaycanın milli iqtisadiyyatında əsas dayaq sütunlarından birinə çevriləcəkdir.

2015–2024-cü illər ərzində Azərbaycanın turizm sektoru bir sıra qlobal və regional çağırışlara baxmayaraq, ümumilikdə sabit və çevik inkişaf meyilləri ilə səciyyələnmişdir. Bu dövr ərzində sektorun inkişaf trayektoriyası bir tərəfdən davamlı artım tendensiyalarını, digər tərəfdən isə qlobal pandemiya kimi

fövqəladə hallar qarşısında yaranan zəifliklər üzə çıxarmışdır.

Figur 1. Azərbaycan üzrə turizmin dinamikası (2014–2025)



Mənbə: AR Dövlət Statistika Komitəsinin 2015-2024-cü illər üzrə hesabatı.https//stat.gov.az

2015–2019-cu illər aralığı turizm sahəsinin davamlı şəkildə genişlənməsi ilə yadda qalmışdır. Bu illər ərzində ölkəyə səfər edən xarici turistlərin sayı 2,12 milyon nəfərdən 2,6 milyon nəfərə qədər artmışdır. Müvafiq olaraq, turizm sektorundan əldə olunan gəlirlər də 3,15 milyon manatdan 3,87 milyon manata yüksəlmişdir. Bu göstəricilər turizm sahəsində həyata keçirilən dövlət siyasətinin effektivliyini və sektorun iqtisadi dayanıqlılıq potensialını təsdiqləyir.

Lakin 2019-cu ilin sonu və xüsusilə 2020–2021-ci illərdə baş verən COVID-19 pandemiyası qlobal miqyasda olduğu kimi, Azərbaycanın turizm sektoruna da mənfi təsir göstərmişdir. Pandemiya nəticəsində tətbiq olunan sərhəd məhdudiyyətləri və karantin rejimi səbəbilə ölkəyə gələn turistlərin sayı 2020-ci ildə kəskin şəkildə azalaraq 1,45 milyon nəfərə düşmüş, 2021-ci ildə isə bu rəqəm 0,85 milyon nəfər səviyyəsində qeydə alınmışdır [18, s.21]. Eyni dövrdə turizm gəlirlərində də ciddi geriləmə müşahidə olunmuşdur: 2020-ci ildə bu göstərici 2,16 milyon manata enmiş, 2021-ci ildə isə 1,26 milyon manat təşkil etmişdir.

Pandemiya dövründə müşahidə olunan tənəzzül turizm sektorunun qlobal miqyasda baş verən risklərə və beynəlxalq səviyyəli çağırışlara qarşı nə dərəcədə həssas olduğunu aydın şəkildə nümayiş etdirmişdir. Bu vəziyyət, sektorun idarə olunmasında dayanıqlı və risklərə qarşı daha çevik strategiyaların formalaşdırılmasını zəruri etmişdir. 2022-ci ildən başlayaraq turizm sənayesi bərpa mərhələsinə keçmiş, 2024-cü ilədək sürətli inkişaf nümayiş etdirərək pandemiyadan əvvəlki göstəriciləri üstələmişdir. Belə ki, 2024-cü ildə Azərbaycana səfər edən xarici turistlərin sayı 2,63 milyon nəfərə çatmış, turizm

sektorunun ümumi gəliri isə 4,1 milyard manat təşkil etmişdir. Mövcud iqtisadi təhlillər göstərir ki, ölkəyə əlavə cəlb olunan hər 1 milyon turist təqribən 1,4-1,5 milyard dollar həcmində iqtisadi dəyər formalaşdıra bilər. Bu dinamika turizmin ölkənin valyuta ehtiyatlarının artırılması və məşğulluğun genişləndirilməsi baxımından strateji rolunu bir daha təsdiq edir [18, s.21].

Son illərdə ölkənin turizm siyasəti yalnız statistik göstəricilərin artırılması deyil, həm də keyfiyyətin yüksəldilməsi və davamlı inkişaf prinsipinə əsaslanan yanaşmalarla müşayiət olunur. Turizmin geniş iqtisadi effektlərini təmin etmək məqsədilə həyata keçirilən tədbirlər bir neçə prioritet istiqaməti əhatə edir. Əsasən, yeni coğrafi bazarların diversifikasiyası və daha yüksək xərcləmə qabiliyyətinə malik turist seqmentlərinin cəlb edilməsi strateji məqsəd kimi önə çıxır. Bu istiqamət yalnız gəlirləri artırmaqla kifayətlənmir, eyni zamanda ölkənin beynəlxalq turizm brendi kimi mövqeyini gücləndirir.

Eyni zamanda, regionlarda turizm infrastrukturunun inkişaf etdirilməsi istiqamətində mühüm layihələr icra olunur. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, mehmanxana və ictimai iaşə obyektlərinin genişləndirilməsi, rəqəmsal texnologiyalar əsasında turizm xidmətlərinin təşkili regional turizm axınlarının artmasına səbəb olmuşdur. Paralel şəkildə ekoturizm, sağlamlıq turizmi, konfrans və idman turizmi kimi müxtəlif istiqamətlərin təşviqi turizm məhsullarının çeşidliliyini artırmaqla mövsümi asılılığın azalmasına xidmət edir.

Strateji idarəetmə baxımından statistik nəzarət və iqtisadi proqnozlaşdırma mexanizmlərinin gücləndirilməsi dövlət siyasətinin əsas komponentlərindən biri kimi çıxış edir. Bu yanaşma çevik qərarların qəbul olunmasını təmin etməklə, sektorun effektiv idarə olunmasına şərait yaradır. Bununla yanaşı, kiçik və orta sahibkarlıq subyektlərinin bu sahəyə inteqrasiyasını təşviq etmək məqsədilə vergi imtiyazları, maliyyə dəstəyi mexanizmləri və biznes inkubasiya proqramları tətbiq edilir.

Turizm sahəsi məşğulluq göstəriciləri baxımından da milli iqtisadiyyatda mühüm yer tutur. Belə ki, 2023-cü ildə bu sektorda çalışanların sayı 390 min nəfər olduğu halda, 2024-cü ildə bu rəqəm 437,6 min nəfərə yüksəlmiş və ümumi məşğulluğun 8,3 faizini təşkil etmişdir. Turizm sektoru yalnız hotellər və turizm operatorları ilə məhdudlaşmır, həm də nəqliyyat, qida sənayesi, sənətkarlıq və digər əlaqəli sahələrdə geniş iqtisadi əlaqələr formalaşdırır.

Nəticə etibarilə, turizm sektoru həm valyuta daxilolmalarının təmin olunmasında, həm də dayanıqlı məşğulluğun genişləndirilməsində Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə xidmət edən əsas istiqamətlərdən birinə çevrilmişdir. Qarşıdakı illərdə bu sahənin rəqəmsal transformasiya, strateji planlaşdırma və innovativ xidmət yanaşmaları ilə daha da gücləndirilməsi gözlənilir.

2019–2025-ci illəri əhatə edən məşğulluq göstəriciləri Azərbaycanın turizm sektorunda sabit və yüksələn inkişaf trayektoriyasını əks etdirir. 2019–2021-ci illərdə bu sahədə işçi sayında nisbi sabitlik müşahidə edilsə də, 2022-ci ildən etibarən dinamikanın sürətləndiyi və 2024-cü ildə məşğulluğun 437,6 min nəfərə çatdığı qeydə alınmışdır. Mövcud trendlər 2025-ci ilədək bu göstəricinin təqribən 490 min nəfərə yüksələcəyini ehtimal etməyə əsas verir ki, bu da turizm sektorunun iqtisadi sabitlik və inkişaf potensialını açıq şəkildə nümayiş etdirir.

Turizmin regionlar üzrə inkişafı baxımından Qəbələ, Şəki, Zaqatala, Lənkəran, Astara, Gəncə, Naftalan, Quba və Qusar kimi inzibati ərazi vahidləri ön plana çıxır. Bu ərazilərdə nəqliyyat-logistika və yerləşdirmə infrastrukturunun təkmilləşdirilməsi, ekoturizm, sağlamlıq turizmi, qış idmanları və mədəni irsə əsaslanan turizm məhsullarının inkişaf etdirilməsi regional turizm potensialının reallaşdırılmasına əhəmiyyətli töhfə verir.

2024-cü ildə Azərbaycana gələn xarici turistlərin əsas mənşə ölkələri Rusiya (27,8 %), Türkiyə (16,2 %), Hindistan (9,3 %), İran (8 %) və Gürcüstan (4,2 %) olmuşdur. Xüsusilə Hindistan istiqamətində həyata keçirilən bazar diversifikasiyası strategiyası nəticəsində bu ölkədən gələn turistlərin sayında 2,1 dəfə artım qeydə alınmışdır ki, bu da hədəfli bazar yanaşmasının effektivliyini təsdiq edir.

Turizm sahəsinin institusional bazası bir neçə əsas dövlət sənədi və struktur islahatlar vasitəsilə möhkəmləndirilmişdir. 2010–2014-cü illər üçün qəbul edilmiş Dövlət Proqramı, 2016-cı il Strateji Yol Xəritəsi və 2018-ci ildə Azərbaycan Turizm Agentliyi ilə Turizm Bürosunun yaradılması sektorda normativ-hüquqi çərçivənin formalaşdırılmasına və idarəetmədə sistemli yanaşmanın tətbiqinə imkan vermişdir.

Dünya Səyahət və Turizm Şurasının (WTTC) uzunmüddətli proqnozlarına əsasən, 2034-cü ilədək turizm sektorunun Azərbaycanın ÜDM-ə töhfəsi 16,6 milyard ABŞ dollarına çatacaq, sektorda məşğul olanların sayı isə 683 min nəfəri ötəcək. Bu proqnozlar turizmin milli iqtisadiyyatın diversifikasiyasında və regionların davamlı inkişafında strateji rolunu bir daha təsdiqləyir.

Turizm destinasiyalarının investisiya cəlbediciliyini artıran amilləri

Azərbaycan Respublikasında turizm sektoru neft resurslarından asılılığın azaldılması və uzunmüddətli iqtisadi sabitliyin təmin edilməsi baxımından prioritet iqtisadi sahələrdən biri kimi dəyərləndirilir. Son dövrlərdə həyata keçirilmiş institusional islahatlar, genişmiqyaslı infrastruktur təşəbbüsləri və hüquqi stimullaşdırma mexanizmləri bu sahəyə investisiya marağının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur.

Turizm sektorunun investisiya cəlbediciliyini artıran mühüm faktorlar sırasında Azərbaycanın əlverişli geostrateji mövqeyi xüsusi rol oynayır. Ölkənin Avropa ilə Asiya arasında yerləşməsi onun beynəlxalq turizm bazarlarına effektiv inteqrasiyasını asanlaşdırmaqla regional turizm dinamikasına müsbət təsir göstərir. Bu kontekstdə ölkənin inkişaf etmiş logistika infrastrukturu – beynəlxalq hava limanları, magistral avtomobil yolları və dəmir yolu şəbəkəsi – həm turist axınının artırılmasında, həm də xarici investorların marağının yüksəlməsində mühüm rol oynayır.

Dövlət tərəfindən tətbiq edilən institusional təşviq mexanizmləri kapital axınının stimullaşdırılmasında əsas alətlərdən birinə çevrilmişdir. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi" çərçivəsində turizm sektoru prioritet sahə kimi müəyyən edilmiş, nəticədə sahənin normativ-hüquqi bazası ciddi şəkildə təkmilləşdirilmişdir.

Xüsusilə 2016-cı ildən tətbiq edilən "investisiya təşviqi sertifikatı" çərçivəsində investorlar yeddi il müddətinə mənfəət, əmlak və əlavə dəyər

vergilərindən, eləcə də idxal olunan texnika və materiallara tətbiq edilən gömrük rüsumlarından azad olunmuşdur. Bu təşviq alətləri nəticəsində turizm infrastrukturunun inkişaf tempi əhəmiyyətli dərəcədə artmış və sektorun investisiya riski aşağı salınmışdır.

Azərbaycanın turizm siyasətinin praktiki nəticələrini əks etdirən bariz nümunələrdən biri Qəbələ rayonundakı Tufandağ xizək kompleksidir. Eyni zamanda, Naftalanda yerləşən müalicə-sağlamlıq mərkəzləri də turizm investisiyalarının uğurla tətbiq olunduğu digər bölgələrdəndir. Bu ərazilərdə reallaşdırılan layihələr nəticəsində onlarla yeni turizm və xidmət obyektləri istifadəyə verilmiş, ümumi investisiya həcmi isə milyonlarla manata çatmışdır.

İnvestisiya mühitinin yaxşılaşdırılmasında mühüm rol oynayan digər amillərdən biri də yerli icra qurumlarının torpaq icarəsi və tikinti icazələrinin verilməsində sadələşdirilmiş prosedurlar tətbiq etməsidir. "Vahid pəncərə" prinsipi əsasında həyata keçirilən müraciətlərin emal müddətinin Şəki, Quba və Lənkəran kimi rayonlarda orta hesabla 35–40% qısaldılması investorlar üçün inzibati maneələri minimuma endirmiş, layihələrin həyata keçirilmə sürətini və səmərəliliyini artırmışdır [17, s.21].

Eyni zamanda, Azərbaycan Turizm Bürosu ölkənin turizm potensialını beynəlxalq bazarlarda təşviq etmək məqsədilə aktiv tanıtım kampaniyaları həyata keçirir. 2023-cü il ərzində Travel Turkey İzmir, ITB Berlin və WTM London kimi nüfuzlu beynəlxalq sərgilərdə 20-dən artıq təqdimat və ikitərəfli əməkdaşlıq görüşlərinin təşkili, ölkənin turizm imkanlarının tanıdılmasına və regionlara yönəlmiş investisiya layihələrinin genişlənməsinə zəmin yaratmışdır.


Beləliklə, məqsədyönlü dövlət siyasəti, tənzimləyici bazanın liberallaşdırılması və qlobal səviyyədə aparılan tanıtım fəaliyyətləri sayəsində turizm sektoru iqtisadi baxımdan dayanıqlı və aşağı risk profilli investisiya sahəsinə çevrilmişdir. Bu proses eyni zamanda regionlarda yeni turizm istiqamətlərinin formalaşdırılmasına, məşğulluğun artırılmasına və yerli əhali üçün gəlir gətirən iqtisadi fəaliyyət sahələrinin genişlənməsinə şərait yaratmışdır.

Azərbaycanın regional turizm istiqamətlərinin investisiya baxımından cəlbediciliyi bir sıra əsas amillər əsasında formalaşır. Bu amillərə təbii ehtiyatların mövcudluğu, infrastrukturun indiki vəziyyəti və perspektiv inkişaf planları, dövlət tərəfindən tətbiq olunan təşviq mexanizmləri, eləcə də coğrafi əlçatanlıq göstəriciləri daxildir. Aparılan təhlillər göstərir ki, beş ballıq qiymətləndirmə sisteminə görə ən yüksək nəticəni Naftalan və Şuşa əldə etmişdir və bu regionlar ölkənin ən böyük investisiya potensialına malik turizm zonaları kimi fərqlənir. Sözügedən ərazilərin strateji baxımdan prioritet elan edilməsi, burada yerləşən unikal təbii sərvətlər (məsələn, naftalan yağı) və zəngin tarixi-mədəni irs (Şuşa şəhəri) bu regionların investisiya cəlbediciliyini əhəmiyyətli dərəcədə artırmışdır.

Qəbələ, Şəki və Lənkəran bölgələri yüksək investisiya potensialı nümayiş etdirərək reytinq cədvəlində dördüncü sırada qərarlaşır. Son illərdə bu regionlarda xizək kurortları, turizm və istirahət mərkəzləri, eləcə də sağlamlıq və ekoturizm infrastrukturu üçün genişmiqyaslı investisiyalar həyata keçirilmişdir. Quba və Şamaxı isə orta hesabla üç balla qiymətləndirilir. Hərçənd bu ərazilərdə infrastruktur tam inkişaf etməmişdir, lakin paytaxta yaxınlıq, zəngin təbii istirahət

resursları və əhalinin turizmə marağının artması bu regionların gələcək inkişafı üçün mühüm imkanlar yaradır.

Diaqram 1. Azərbaycanın seçilmiş turizm regionları üzrə investisiya cəlbediciliyi



Mənbə: Yusubov, Q. (2022). Regionun turizm destinasiyasına çevrilməsi imkanları. İpək Yolu, №3, s. 49–50.

Zaqatala bölgəsində isə investisiya cəlbediciliyi nisbətən aşağı qiymətləndirilsə də, onun zəngin flora və faunası, eləcə də sərhədyanı mövqeyi uzunmüddətli perspektivdə ekoturizmin inkişafı baxımından böyük potensial vəd edir.

Son onillikdə Azərbaycanda investisiya mühitinin möhkəmləndirilməsi istiqamətində bir sıra institusional və hüquqi islahatlar həyata keçirilmişdir. 2010–2014-cü illəri əhatə edən Dövlət Turizm Proqramı, 2016-cı ildə qəbul edilmiş "Strateji Yol Xəritəsi", həmçinin 2018-ci ildə Azərbaycan Turizm Agentliyi və Turizm Bürosunun təsis olunması ölkədə turizm sahəsinin idarəçiliyinin daha sistemli inkişaf trayektoriyasına keçməsini təmin etmişdir.

Xüsusilə, 2016-cı ildən tətbiq edilən "investisiya təşviqi sertifikatı" mexanizmi otelçilik, kurort və sağlamlıq turizmi istiqamətlərində layihələrin icrasını sürətləndirmiş, investorların mənfəət, torpaq, əmlak, əlavə dəyər vergisi və idxal gömrük rüsumlarından yeddi il müddətinə azad edilməsinə şərait yaratmışdır. Məsələn, Tufandağ xizək kompleksi bu mexanizm vasitəsilə 20 milyon manatdan artıq sərmayə cəlb etmiş, Naftalan şəhərində isə yeni SPA mərkəzlərinin istifadəyə verilməsi təmin olunmuşdur.

Bundan başqa, torpaq icarəsinin hüquqi tənzimlənməsi və tikintiyə icazələrin "bir pəncərə" prinsipi əsasında verilməsi prosesi sadələşdirilmiş, nəticədə Şəki, Quba və Lənkəran bölgələrində sənədləşmə müddəti orta hesabla 35–40 faiz azalmışdır.

Beynəlxalq arenada da turizmin təşviqi sahəsində mühüm irəliləyişlər əldə olunmuşdur. Azərbaycan Turizm Bürosunun fəaliyyəti nəticəsində 2023-cü ildə ölkənin turizm regionları "Travel Turkey İzmir", "ITB Berlin" və "World Travel Market London" kimi nüfuzlu sərgilərdə geniş şəkildə təqdim olunmuş, bu isə Quba, Şamaxı, Zaqatala və Lənkəran kimi regionların beynəlxalq investorların diqqət mərkəzinə düşməsinə şərait yaratmışdır.

Nəticə etibarilə, dövlətin həyata keçirdiyi məqsədyönlü stimullaşdırıcı tədbirlər, hüquqi və institusional əsasların təkmilləşdirilməsi, eləcə də beynəlxalq təşviq mexanizmləri Azərbaycanın regionlarında turizm sektorunun dayanıqlı və rəqabətədavamlı inkişafına güclü təkan vermişdir. Bu siyasət həmçinin regionlarda məşğulluğun artmasına, sosial-iqtisadi tərəqqinin sürətlənməsinə mühüm töhfə vermişdir.

Azərbaycanın təbii-landşaft müxtəlifliyi və zəngin mədəni irsi əsasında formalaşan çoxşaxəli turizm modeli bir sıra konkret regional nümunələrlə öz təsdiqini tapmaqdadır. Belə ki, Qusar-Quba zonasında yerləşən Şahdağ Turizm Kompleksi qış turizmi potensialından istifadə etməklə yeni iş yerlərinin yaradılmasına və xidmət sahələrinin (mehmanxanalar, ictimai iaşə obyektləri, xizək məktəbləri və s.) genişlənməsinə səbəb olmuşdur.

Naftalan şəhəri özünəməxsus müalicəvi neft vannaları ilə postsovet məkanı, Orta Asiya və Yaxın Şərq ölkələrindən turist axınını stimullaşdırmış, dövlət tərəfindən təqdim olunan vergi güzəştləri isə investorlar üçün əlavə təşviq mexanizmi rolunu oynamışdır.

Lahıc, Xınalıq və Basqal kimi tarixi yaşayış məntəqələrində icra olunan kənd ekoturizmi layihələri yerli əhalinin rifah halının yüksəldilməsinə, alternativ gəlir mənbələrinin yaranmasına xidmət edir.

Lənkəran, Astara və Masallı bölgələri isə subtropik iqlimi və təbii isti su mənbələri ilə sağlamlıq turizminin inkişafı üçün əlverişli şərait yaradır.

Şuşa, Şəki və Bakı şəhərlərinin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi, həmçinin burada təşkil edilən beynəlxalq səviyyəli mədəni tədbirlər, festivallar və konfranslar bu məkanlara yönələn investisiya axınının artmasına əhəmiyyətli təsir göstərmişdir.

Turizm sektoruna yönəldilən investisiyalar ölkədə yalnız iqtisadi artıma deyil, həm də dövlət büdcəsinin gəlirlərində nəzərəçarpacaq artıma səbəb olmuşdur. Belə ki, 2014-cü ildə turizm sahəsində gəlir vergisi üzrə dövlət büdcəsinə daxilolmalar 23 milyon manat təşkil etdiyi halda, bu göstərici 2023-cü ildə 96 milyon manata, 2024-cü ildə isə 105 milyon manata yüksəlmişdir. Bu artımın əsas səbəbləri kimi turizm fəaliyyət subyektlərinin sayının 2,5 dəfə artması, rəqəmsal nəzarət mexanizmlərinin tətbiqi nəticəsində qeyri-rəsmi fəaliyyətlərin leqallaşdırılması və məşğulluğun şəffaflaşdırılması göstərilə bilər.

Xüsusilə münaqişədən sonrakı dövrdə Qarabağ bölgəsində sıfırdan inşa edilən turizm infrastrukturu, təqdim olunan vergi və gömrük güzəştləri ilə birgə gələcəkdə vergi bazasının əhatə dairəsinin genişləndirilməsi üçün mühüm baza

formalaşdırır. Bu istiqamətdə görülən tədbirlər göstərir ki, inkişafdan geri qalmış regionlara dəstək proqramları, keyfiyyətli turizm layihələrinin təşviqi və infrastrukturun sürətli modernizasiyası investisiya risklərini minimuma endirərək ölkədə turizmin davamlı inkişafını və regional balanslaşdırmanı təmin edir.

Qarabağ bölgəsinin turizm baxımından inkişafı yalnız məşğulluğun artırılması və infrastrukturun bərpası ilə məhdudlaşmır, eyni zamanda dövlət maliyyəsinin sabitliyinin möhkəmləndirilməsi və vergi gəlirlərinin diversifikasiyası baxımından strateji əhəmiyyət daşıyır. Regionun Cənubi Qafqazda turizm investisiyası üçün ən perspektivli məkanlardan birinə çevrilməsi, bərpa və yenidənqurma siyasətinin uğurlu tətbiqinin nəticəsi kimi qiymətləndirilə bilər.

Eyni zamanda, burada həyata keçirilən Smart City və Smart Village layihələri – enerji səmərəliliyi, ekoloji balans və avtomatlaşdırılmış idarəetmə sistemlərinə əsaslanan müasir şəhərsalma modelləri – uzunmüddətli və dayanıqlı turizm inkişafı üçün əlverişli mühit yaradır. Xüsusilə Zəngilan rayonunun Ağalı kəndində tətbiq edilən "ağıllı kənd" konsepsiyası kənd təsərrüfatı və turizm sahələrində, xüsusilə ekoturizm və aqroturizmdə, təcrübəvi model rolunu oynayır. Burada həyata keçirilən layihələr çərçivəsində bərpa olunan enerji mənbələri ilə təchiz edilən mehmanxana və turizm obyektləri inşa edilir.

Bölgənin əlverişli təbii-coğrafi şəraiti – Murovdağ silsiləsi, Şuşa və Hadrut meşə massivləri, Tərtər və Xudafərin çay hövzələri, habelə zəngin biomüxtəliflik Qarabağı ekoturizm, sağlamlıq turizmi və ekstremal idman növləri üzrə xüsusi əhəmiyyətə malik regional məkana çevirir.

Qarabağ bölgəsi öz zəngin tarixi-mədəni irsi ilə fərqlənir və bu kontekstdə Şuşa şəhəri ölkənin mədəniyyət paytaxtı kimi xüsusi əhəmiyyət kəsb edir. Burada təşkil olunan "Xarı Bülbül" Musiqi Festivalı və "Vaqif Poeziya Günləri" kimi beynəlxalq səviyyəli tədbirlər regionun mədəni turizm potensialının inkişafında mühüm rol oynamaqla yanaşı, onun beynəlxalq arenada tanıdılmasına da xidmət edir.

Dövlət tərəfindən həyata keçirilən vergi və gömrük güzəştləri, investisiya təşviqi sənədləri və güzəştli kreditləşmə mexanizmləri turizm layihələrinin icrasını stimullaşdırmaqla yanaşı, investorların risklərini azaltmaq və layihələrin həyata keçirilmə müddətini qısaltmaq baxımından əhəmiyyətlidir. Bu tədbirlər eyni zamanda regionun fiskal potensialının güclənməsinə və ümumi investisiya mühitinin cəlbediciliyinin artmasına səbəb olur. Qarabağ bölgəsi yalnız turizm sahəsində deyil, enerji və ekoloji istiqamətlərdə də yeni nəsil şəhərsalma strategiyalarına əsaslanan dayanıqlı inkişaf modelinin tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir.

Turizm fəaliyyətinin genişlənməsi əhalinin bölgəyə geri dönüşünü stimullaşdırır, yerli iqtisadi aktivliyi artırır və yeni xidmət sahələrinin, eləcə də məşğulluq imkanlarının yaranmasına zəmin yaradır. Regionun beynəlxalq səviyyədə mədəni irs məkanı kimi tanınması və burada keçirilən beynəlxalq tədbirlər Qarabağın qlobal nüfuzunun möhkəmlənməsinə müsbət təsir göstərir.

Qarabağ bölgəsində müşahidə olunan investisiya aktivliyi və sürətli turizm transformasiyası dövlət siyasətinin məqsədyönlü nəticəsi kimi qiymətləndirilə bilər. Belə ki, təkcə turizm sektorunun deyil, bütövlükdə sosial-iqtisadi sahələrin

dirçəlməsi və regionlara kapital axınının artması bu siyasətin uğurlu nəticələridir. Yeni nəsil infrastrukturun qurulması və dayanıqlı idarəetmə mexanizmlərinin tətbiqi yaxın gələcəkdə Qarabağın Azərbaycanın turizm sənayesində aparıcı rola malik olacağına dair ciddi proqnozlar formalaşdırmağa əsas verir.

2020–2024-cü illəri əhatə edən dövr üzrə aparılmış təhlillər göstərir ki, Qarabağ bölgəsində turizm sahəsinə yönəlmiş investisiyalar davamlı artım meyli nümayiş etdirib. Xüsusilə, 2020-ci ildən etibarən bu artımın sürətləndiyi müşahidə olunur və 2024-cü ilin sonunadək investisiya həcmi 420 milyon manat səviyyəsinə çatmışdır. Bu tendensiyanın arxasında regionun dövlət səviyyəsində strateji prioritet elan olunması və turizm infrastrukturunun yenidən qurulması prosesi dayanır.

Beləliklə, Qarabağ bölgəsində turizm sektoru yalnız infrastruktur və məşğulluq baxımından deyil, həmçinin yüksək investisiya potensialı və uzunmüddətli dayanıqlı gəlir mənbələrinin formalaşdırılması imkanları ilə də seçilir. Yekun olaraq, müşahidə edilən dinamik inkişaf Qarabağın yaxın illərdə ölkənin milli iqtisadiyyatında və regional sosial-iqtisadi bərpa proseslərində strateji rol oynayacağını göstərir. [18, s.71].

Qarabağ regionunun turizm potensialını qiymətləndirmək üçün aparılan SWOT təhlili nəticəsində bir sıra güclü və zəif tərəflər, eyni zamanda mövcud imkanlar və təhdidlər müəyyən edilmişdir.

Güclü tərəflər (Strengths). Qarabağ regionunun turizm sahəsindəki əsas üstünlüklərindən biri dövlət dəstəyinin yüksək səviyyədə olmasıdır. Regionda infrastrukturun sıfırdan və planlı şəkildə qurulması, xüsusilə "ağıllı şəhər" modelinin tətbiqi uzunmüddətli və davamlı inkişafın təmin olunmasına şərait yaradır. Bundan əlavə, bölgənin unikal təbii və mədəni irs potensialı – dağlar, bulaqlar, tarixi abidələr kimi turistik resurslar əhəmiyyətli güclü tərəf kimi çıxış edir. Torpaq və obyekt qiymətlərinin aşağı olması isə investorlar üçün iqtisadi cəhətdən cəlbedici mühit yaradır. Regionun strateji mövqeyi və simvolik dəyəri də turizm sektorunda müsbət təsir göstərən mühüm faktorlardandır.

Zəif tərəflər (Weaknesses). Qarabağda bərpa və tikinti işlərinin hələ tam başa çatmaması, infrastrukturun müəyyən sahələrdə tamamlanmaması turizm inkişafını məhdudlaşdıran amillər sırasındadır. Yerli əmək bazarında turizm üzrə təcrübəli kadr çatışmazlığı xidmət keyfiyyətinə mənfi təsir göstərə bilər. Beynəlxalq turistlərin regiona giriş imkanlarının məhdud olması, xüsusilə logistika sahəsindəki çətinliklər də zəif tərəflərdən biridir. Sosial infrastruktur və şəhərdaxili xidmətlər isə hələ bərpa mərhələsindədir. Bundan əlavə, destinasiya üzrə marketinq strategiyalarının və brendin formalaşmaması regionun turizm cəlbediciliyinin aşağı olmasına səbəb olur.

İmkanlar (Opportunities). Qarabağ regionunda ekoturizm, dağ turizmi və sağlamlıq turizmi kimi yeni və spesifik turizm sahələri üzrə bazarların yaradılması geniş imkanlar açır. Xarici investorlar üçün vergi və gömrük güzəştlərinin cəlbedici olması sərmayə axınını stimullaşdıra bilər. Regionun beynəlxalq tədbirlər vasitəsilə tanıdılması, xüsusilə Şuşa şəhərinin mədəniyyət paytaxtı kimi təqdim olunması turizm brendinin gücləndirilməsinə töhfə verir. Rəqəmsal idarəetmə və yeni texnologiyaların tətbiqi, eləcə də yerli əhalinin xidmət

sektorunda iştirak imkanlarının artırılması isə regional iqtisadiyyatın şaxələndirilməsinə imkan verir.

Təhdidlər (Threats). Qarabağ regionunda geosiyasi risklər və mümkün münaqişə ehtimalları təhlükəsizlik narahatlıqları yarada bilər. Regionun hələ beynəlxalq turizm xəritəsində tam olaraq tanınmaması potensial turist axınının məhdud qalmasına səbəb ola bilər. Turizm fəaliyyətində sezonallıq və iqlim dəyişiklikləri ilə bağlı risklər də nəzərə alınmalıdır. Sahibkarların ilkin kapital və riskə dözümlülük baxımından çətinlik çəkmələri isə yerli bizneslərin inkişafını ləngidə bilər. Ətraf mühitin mühafizəsi üzrə nəzarət mexanizmlərinin zəif olması isə ekoloji tarazlığın pozulması kimi risklərlə nəticələnə bilər.

Qarabağ və işğaldan azad edilmiş digər ərazilər turizm investisiyaları baxımından nəzərə çarpan strateji üstünlüklərə malikdir və mövcud risklər məqbul diapazonda qiymətləndirilir. Bu bölgələrdə turizmin davamlı inkişafına töhfə verən əsas amillər dövlətin güclü siyasi iradəsi, sıfırdan inşa edilmiş müasir infrastruktur, Moderna və ərazinin bənzərsiz təbii və mədəni sərvətləridir. Bundan əlavə, ərazinin nisbətən aşağı qiyməti və bölgənin Milli simvolik dəyəri investorların marağını artıran əlavə amillərdir.

Ancaq bir sıra çətinliklər də var. Məsələn, bəzi yerlərdə infrastruktur hələ tam inkişaf etməyib, turizm sektorunda ixtisaslı yerli kadr çatışmazlığı, məhdud beynəlxalq marketinq fəaliyyəti və zəif xarici əlaqələr potensial investisiyaları ləngidə bilər. Bu səbəbdən bölgəni qlobal miqyasda tanıtmaq üçün hədəflənmiş marketinq və reklam kampaniyalarını gücləndirmək vacibdir.

Gələcək perspektivlər olduqca perspektivlidir. Ekoturizmin və sosial turizmin inkişafı, beynəlxalq səviyyədə tədbirlərin təşkili, həmçinin investorlar üçün vergi və gömrük güzəştləri Qarabağın regional və beynəlxalq səviyyədə tanınmasına və investisiya cəlbediciliyinin artırılmasına mühüm töhfə verə bilər. Bu potensialdan maksimum yararlanmanın əsas məqsədi yerli resurslardan sistematik istifadə və risklərin əvvəlcədən idarə edilməsidir.

Nəticə etibarilə, Qarabağ və ətraf bölgələr Azərbaycan turizminin yeni inkişaf mərhələsinə keçməsi üçün əhəmiyyətli potensiala malikdir. Rəqəmsal texnologiyalara keçidin sürətləndirilməsi, inklüziv yanaşmaların tətbiqi və regional əməkdaşlığın genişləndirilməsi bu sahədə davamlı və müsbət nəticələrin əldə olunması üçün əsasdır.

Turizm destinasiyalarinin investisiya imkanlari və onlarin yüksəldilmə perspektivləri

Azərbaycanda qeyri-neft sektorunun şaxələndirilməsi məqsədilə həyata keçirilən iqtisadi strategiyalar çərçivəsində 2014–2024-cü illər ərzində turizm sahəsinə yönəldilmiş investisiyaların artırılması əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Bu istiqamətdə atılan addımlar turizm sektorunu yalnız istirahət və asudə vaxt keçirmə sahəsi kimi deyil, eyni zamanda, sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması və büdcə daxilolmalarının artırılması baxımından strateji əhəmiyyət kəsb edən sahəyə çevirmişdir. Belə nəticələr dövlət tərəfindən qəbul edilmiş məqsədyönlü inkişaf strategiyalarının praktiki nəticəsi kimi qiymətləndirilə bilər.

Müxtəlif sahələri əhatə edən iri həcmli dövlət investisiya layihələri – o cümlədən yol-nəqliyyat infrastrukturu, enerji, su təchizatı və internet şəbəkələrinin genişləndirilməsi – turizm sektorunun maddi-texniki bazasının gücləndirilməsinə mühüm töhfə vermişdir. Ölkənin müxtəlif bölgələrində, xüsusilə Qəbələ, Şəki, Quba, Lənkəran, Naftalan və Abşeron zonalarında müasir otellər, sağlamlıq mərkəzləri, əyləncə kompleksləri və tematik parklar inşa edilmiş və fəaliyyətə başlamışdır. Bu inkişaf dinamikasında vergi və gömrük güzəştləri, eləcə də dövlət zəmanətli kreditlər kimi stimullaşdırıcı mexanizmlər həlledici rol oynamışdır.

İnvestisiya mühitinin şaxələndirilməsində mikro və kiçik sahibkarlıq subyektlərinin fəallaşması da xüsusi əhəmiyyət kəsb edir. Kənd evlərinə, sənətkarlıq emalatxanalarına, iaşə obyektlərinə və digər yerli turizm məhsullarına yönəlmiş sərmayələr yalnız kənd əhalisinin rifah səviyyəsinin yüksəlməsinə deyil, həm də regionların iqtisadi aktivliyinin artırılmasına və turizm məhsul müxtəlifliyinin zənginləşdirilməsinə şərait yaratmışdır. "Kənd yaşayış evləri" və "eko-kənd" modelləri çərçivəsində tətbiq olunan güzəştli maliyyələşmə mexanizmləri, mentorluq proqramları və texniki dəstək tədbirləri, xüsusilə aqroturizm yönümlü təşəbbüslərin inkişafına əhəmiyyətli dərəcədə təkan vermişdir.

Hazırkı mərhələdə turizm investisiyalarının əsasını təkcə fiziki infrastruktur deyil, həm də rəqəmsal həllərin tətbiqi və onlayn platformaların geniş istifadəsi təşkil edir. Azərbaycanda turizm sektorunun rəqəmsallaşdırılması prosesi qlobal tendensiyalarla uyğunlaşdırılaraq səyahət xidmətlərinin əlçatanlığını və operativliyini artırmaqla yanaşı, potensial investorlar üçün daha şəffaf və proqnozlaşdırıla bilən mühit formalaşdırır. Bu məqsədlə Azərbaycan Turizm Bürosu tərəfindən istifadəyə verilmiş "Experience Azerbaijan" platforması milli turizmin rəqəmsal transformasiyasının əsas daşıyıcılarından biri kimi çıxış edir. Platformada real vaxt rejimində məlumat təqdim edən virtual bələdçilər, onlayn sifariş sistemləri və elektron xəritəçəkmə texnologiyaları birləşdirilərək həm turistlər üçün fərdi təcrübə təmin edilir, həm də müəssisələr üçün marketinq alətlərinin səmərəliliyi artırılır.

Dövlət dəstəyi, özəl sektorun aktiv iştirakı və rəqəmsal texnologiyaların tətbiqi ilə birgə turizm sektoruna investisiya axını intensivləşməkdədir ki, bu da qeyri-neft iqtisadiyyatının davamlı inkişafına mühüm töhfə verir. Böyük həcmdə rəqəmsal məlumatların – o cümlədən big data texnologiyalarının təhlili – səyahət axınlarının, turist davranışlarının və bazar trendlərinin elmi əsaslarla öyrənilməsinə imkan yaradır və bu isə investisiya qərarlarının daha məqsədyönlü və effektiv şəkildə qəbulunu təmin edir. Rəqəmsallaşma, həmçinin turizm sənayesinin dinamik inkişafı və region iqtisadiyyatının şaxələndirilməsi üçün mühüm vasitədir. Qarabağ, Naxçıvan və Şəki-Zaqatala kimi istiqamətlər rəqəmsal platformalar vasitəsilə beynəlxalq auditoriya üçün daha əlçatan olmuş və investisiya cəlbediciliyi artmışdır. Bu cür investisiyalar bir tərəfdən regionlarda məşğulluğu artırır, digər tərəfdən isə iqtisadi artım ilə məşğulluq arasında dayanıqlı balansın qorunmasına imkan verir.

Texnoloji innovasiyalara əsaslanan investisiya təşviqi və müasir texnoloji infrastrukturun yaradılması, Azərbaycanın turizm modelində rəqabət

qabiliyyətinin artırılması ilə yanaşı, "ağıllı turizm" konsepsiyasına keçidi də sürətləndirmişdir. Gələcək perspektivdə investisiya mühitinin daha da cəlbedici olacağı proqnozlaşdırılır. Süni intellekt əsaslı fərdiləşdirilmiş xidmətlərin tətbiqi, blokçeyn texnologiyası ilə dəstəklənən ödəniş və sifariş sistemləri, eləcə də böyük həcmdə məlumatın analitik təhlilinə imkan verən rəqəmsal platformalar bu prosesi daha da dəstəkləyəcəkdir.

2020–2023-cü illər ərzində turizm sahəsində birbaşa xarici investisiyaların həcmi iki dəfədən çox artaraq 25,6 milyon ABŞ dollarına çatmış və bu artım rəqəmsal texnologiyaların turizm sektoruna təsirinin real nəticələrini nümayiş etdirmişdir. Qarabağ və digər regionlarda rəqəmsal turizm infrastrukturunun qurulması və yerli sahibkarlığın təşviqi nəticəsində bu bölgələrə turist axını əhəmiyyətli dərəcədə artmışdır. Bu proses Azərbaycanın "ağıllı turizm" modelinə keçidini sürətləndirməklə yanaşı, ölkənin beynəlxalq turizm standartlarına uyğunlaşmasını da təmin etmişdir.

Cədvəl 1. 2020–2023-cü illərdə Azərbaycanın rəqəmsal turizm investisiyaları

İl	Rəqəmsal turizm investisiyası (mln USD)	İllik artım (%)
2020	12.5	–
2021	14.8	+18.4%
2022	20.3	+37.2%
2023	25.6	+26.1%

Mənbə:.https//www.stat.gov.az

Azərbaycanın işğaldan azad edilmiş əraziləri — o cümlədən Şuşa, Zəngilan, Laçın və Ağdam — milli turizm siyasətində yeni strateji prioritetlər kimi ön plana çıxır. Bu ərazilərdə turizmin inkişafı təkcə infrastrukturun yenidən qurulması ilə məhdudlaşmır, əksinə, "ağıllı şəhər" və "ağıllı kənd" kimi müasir konsepsiyalar əsasında, rəqəmsal texnologiyaların tətbiqi, bərpa olunan enerji mənbələrinin istifadəsi və ekoloji davamlılıq prinsipləri ilə həyata keçirilir.

Məsələn, Şuşada tarixi-mədəni irs müasir texnologiyalar – artırılmış reallıq və 3D modelləşdirmə vasitəsilə rəqəmsallaşdırılaraq ziyarətçilərə təqdim olunur. Zəngilanın "ağıllı kənd" modeli isə — xüsusilə Ağalı kəndi — bərpa olunan enerji resursları, ağıllı ev sistemləri və avtomatlaşdırılmış xidmət infrastrukturunun tətbiqi ilə kənd turizmi sahəsində uğurlu pilot layihə kimi qiymətləndirilir.

Hökumət tərəfindən təqdim olunan institusional və maliyyə təşviqləri – o cümlədən uzunmüddətli torpaq icarəsi, vergi və gömrük güzəştləri, infrastruktur təminatı – investorların risklərini azaldaraq bu regionlarda iqtisadi fəaliyyətin stimullaşdırılmasına xidmət edir. Əsas kommunikasiyalar – enerji, su, qaz, yol infrastrukturu və yüksək sürətli internet bağlantısı – artıq sözügedən layihələrə inteqrasiya olunub.

İşğaldan azad edilmiş Qarabağ və ətraf bölgələr turizm sahəsində strateji üstünlüklərə malik olmaqla, ölkənin iqtisadi və sosial inkişaf prioritetləri arasında xüsusi yer tutur. Bu regionların turizm baxımından investisiya cəlbediciliyi bir sıra əsas amillərlə əlaqələndirilir. İlk növbədə, dövlət tərəfindən nümayiş etdirilən

güclü siyasi iradə və sıfırdan qurulan müasir infrastruktur bu üstünlüklərin bünövrəsini təşkil edir. Regionun unikal təbii landşaftı, zəngin mədəni irsi və memarlıq abidələri də turizm üçün əlverişli şərait yaradır.

Əlavə olaraq, bu ərazilərdə torpaq və daşınmaz əmlak qiymətlərinin nisbətən aşağı olması, həmçinin bölgənin yüksək milli simvolik dəyəri investorlar üçün əlavə motivasiya rolunu oynayır. Bu, xüsusilə daxili turizm bazarında milli kimlik və vətənpərvərlik meylləri ilə uzlaşan bir amil kimi qiymətləndirilə bilər.

Lakin turizmin davamlı inkişafı istiqamətində bir sıra məhdudiyyətlər də mövcuddur. Bəzi ərazilərdə infrastrukturun tam formalaşmaması, yerli turizm sahəsində ixtisaslı kadr ehtiyacının ödənilməməsi, beynəlxalq marketinq və əlaqələndirmə fəaliyyətlərinin zəifliyi potensial investisiya axınlarını məhdudlaşdıra bilər. Xüsusilə regionun qlobal turizm bazarlarında tanınması baxımından sistemli və hədəflənmiş beynəlxalq reklam və tanıtım kampaniyalarının təşkilinə ehtiyac vardır.

Gələcəyə yönəlik baxış isə olduqca nikbindir. Qarabağ və digər işğaldan azad edilmiş bölgələrdə ekoturizm, kənd turizmi və sosial turizm kimi alternativ turizm növlərinin inkişaf etdirilməsi, yerli icmaların prosesə inteqrasiyası ilə turizmin inklüziv və davamlı inkişafına töhfə verə bilər. Eyni zamanda, beynəlxalq səviyyəli tədbirlərin təşkili və regionun mədəni-siyasi identitetini əks etdirən festivallar vasitəsilə bu ərazilərin beynəlxalq arenada tanınması sürətləndirilə bilər.

İnvestorlar üçün daha cəlbedici mühitin yaradılması məqsədilə vergi və gömrük sahəsində stimullaşdırıcı mexanizmlərin genişləndirilməsi, uzunmüddətli və şəffaf müqavilə çərçivələrinin təmin olunması tövsiyə edilir. Habelə, risklərin idarə olunması üçün institusional mexanizmlərin və təhlükəsizlik sistemlərinin gücləndirilməsi vacibdir.

Nəticə etibarilə, Qarabağ və ona bitişik azad edilmiş ərazilər Azərbaycan turizminin yeni mərhələyə keçidində mühüm lokomotiv rolunu oynaya bilər. Bu məqsədlə rəqəmsal texnologiyaların tətbiqinin sürətləndirilməsi, inklüziv və iştirakçılığa əsaslanan yanaşmaların təşviqi, həmçinin regional və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi bu sahədə dayanıqlı və kompleks inkişaf modelinin əsasını təşkil edir.

Nəticə

Azərbaycanda turizm sektoru iqtisadiyyatın şaxələndirilməsi siyasətində xüsusi əhəmiyyət kəsb edən sektorlardan biridir. Bu kontekstdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən 2023-cü il üçün təsdiq edilmiş və 2024-2026-cı illəri əhatə edən" turizmin inkişafı üzrə milli plan " ölkədə bu sahədə yeni inkişaf mərhələsinin əsasını qoyur. Sənəd sistematik olaraq bu sektorda müşahidə olunan müsbət dinamikanı deyil, həm də uzunmüddətli strateji hədəfləri, institusional dəyişiklikləri və gələcək inkişaf istiqamətlərini vurğulayır. Əsas məqsəd turizm sektorunun qabaqcıl texnologiyaların tətbiqi ilə modernləşdirilməsi, ekoloji dayanıqlıq prinsiplərinə uyğunlaşdırılması və regionların turizm potensialından səmərəli istifadənin təmin edilməsidir.

Sənədin prioritetlərindən biri dövlət-özəl tərəfdaşlıq modelinin (PPP) geniş tətbiqidir. Bu model sayəsində dövlətə maliyyə yükü azalır, eyni zamanda bazar

yönümlü idarəetmə prinsipləri güclənir və infrastruktur layihələrinin icrası daha sürətli və daha səmərəli həyata keçirilir. Xizək kurortlarının, istirahət marşrutlarının və ekoturizm marşrutlarının yaradılması bu kontekstdə əsas tətbiq sahələri kimi müəyyən edilmişdir.

Plan həm də ekoloji və uzunmüddətli inkişafa zəmanət verən turizm modellərinə yönəlmişdir. Bərpa olunan enerji ilə işləyən qurğuların təşviqi, karbon neytral məhsulların və "yaşıl tikinti" prinsiplərinə əsaslanan infrastrukturun tətbiqi bu istiqamətdə əsas hədəflərdəndir. Qəbələ və Şəki rayonlarında həyata keçirilən pilot layihələr çərçivəsində günəş batareyaları ilə təchiz edilmiş biokompakt kənd evlərinin tikintisinə başlanılıb ki, bu da ekoloji təmiz texnologiyaların tətbiqi sahəsində praktiki nümunədir.

Eyni zamanda, plan bölgələrdə tematik ixtisaslaşmanı təşviq edən bir marka strategiyasını dəstəkləyir. Bu yanaşmaya uyğun olaraq Naftalan tibbi turizm, Şəki Mədəni İrs və memarlıq turizmi, Zəngilan isə ekoturizm istiqamətində inkişaf edir və "ağıllı kənd"Konsepsiyası üzrə ixtisaslaşıb.

Milli plan rəqəmsallaşmanı da prioritet olaraq təyin edir. "Azərbaycan təcrübəsi" platforması, süni intellektə əsaslanan bazar təhlili sistemləri, rəqəmsal bələdçilər və onlayn sifariş texnologiyaları vasitəsilə turizm xidmətlərinin keyfiyyəti artır, bazar təhlili isə daha çevik və sürətlə aparılır.

Plan təkcə infrastrukturun inkişafını deyil, həm də struktur islahatlarının aparılmasını, regionlar arasında iqtisadi fərqlərin azaldılmasını və Azərbaycanın beynəlxalq turizm bazarına daha dərin inteqrasiyasını nəzərdə tutur. Bu baxımdan sənəddə xüsusi olaraq aşağıdakı altı əsas tövsiyədən bəhs olunur:

1. PPP-nin hüquqi və institusional əsaslarının təkmilləşdirilməsi: investorların riskləri müxtəlif bölgələr üçün çevik hüquqi əsasların hazırlanması ilə optimallaşdırılmalıdır.
2. Açıq və şəffaf bir rəqəmsal investisiya mühiti yaradın: səyahət investisiya platforması kimi texnoloji vasitələrlə səyahət mənbələri və layihələri haqqında real vaxt məlumat axını təmin edilməlidir.
3. Beynəlxalq marketinq dəstəyi və regional markaların təşviqi üçün xüsusi bir fondun yaradılması – səyyar sərgilərdə və sertifikatlaşdırma proqramlarında iştirak bu Fondun əsas vəzifələrindən biri olacaqdır.
4. Ekoturizm obyektləri üçün vergi güzəştləri, vergi güzəştləri və "yaşıl kredit" mexanizmlərinin tətbiqi yaşıl infrastrukturun genişləndirilməsinə kömək etməlidir.
5. Bölgələrə görə turizmə investisiyaların qiymətləndirilməsi metodologiyasının hazırlanması: bu metodoloji baza sayəsində müxtəlif coğrafi bölgələrin turizm potensialı obyektiv müqayisə edilə bilər.
6. Turizm menecmenti və Layihə İdarəetmə təlimi: xüsusi tədris proqramlarının hazırlanması və beynəlxalq sertifikatlaşdırma imkanlarının yaradılması bu sahədə insan resurslarının inkişafını təmin edəcəkdir.

Nəhayət, sənəddə Naftalan, Şəki və Zəngilan kimi uğurlu təcrübə nümunələrinin digər bölgələrdə təkrarlanması tövsiyə olunur. Bu yanaşma yalnız texniki səviyyədə deyil, həm də sosial və institusional səviyyədə tətbiq olunmalıdır. Məşğulluq imkanlarının genişləndirilməsi, yerli icmaların Turizm zəncirinə inteqrasiyası və investorlar üçün cəlbediciliyin artırılması baxımından bu modellər

ölkənin digər bölgələri üçün praktik inkişaf təməli rolunu oynaya bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2019). Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə Sosial-İqtisadi İnkişafi Dövlət Proqramı. Bakı.
2. Azərbaycan Respublikası. (1992). Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu (№ 405, 15 dekabr 1992-ci il). Bakı.
3. Azərbaycan Respublikasının turizm strategiyası 2023-2026
4. Hüseynov, S. (2021). Azərbaycan turizm industurisi üçün strateji istiqamətlər: Müasir Tərəflər və problemlər. Turizm və xidmət elmləri jurnalı, 14(27), 47-62.
5. İspəndiyarov İ. T. Azərbaycanda turizmin inkişafının mövcud vəziyyəti və inkişaf etdirilməsi istiqamətləri. Elmi Xəbərlər № 3, 2024 (İctimai və texniki elmlər seriyası), səh233-237.
6. Məmmədli, O. Q., Cavadov, N. Ə., Cavadzadə, X. N. (2014). Sosial-iqtisadi statistika (Dərslik, II hissə). Bakı: MBM nəşriyyatı.
7. Samadov, F., İsmayılov, V., Abdullayeva, N. (2021). Turizmin Azərbaycanın İqtisadiyyatına təsiri: Əsas göstəricilərin analizi. Turizm və məişət idarəetməsi jurnalı, 9(1), 1- 11.
8. Şirinova, F. (2021). Turizm sahəsində Azərbaycanın regionallaşması problemləri və perspektivləri. İqtisadiyyat, inkişaf və məşğulluq, 7(2), 32-40.
9. Teymurzadə, F., Əhmədov, İ. (2020). Azərbaycanda turizmin hazırki və gələcək imtiyazları. Cənub və Şərq Avropada turizm, 2(2), 1-15.
10. Иванова, Е. А., & Бондаренко, Н. В. (2019). Перспективы развития туризма в Азербайджане. Российский научный журнал, 3, 18-24.
11. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2019, May 6). Sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarları. - https://www.economy. gov.az
12. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, illik turizm statistikası. Turizm. -https://www.stat.gov.az

Məqalənin redaksiyaya daxilolma tarixi: 08.08.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27.08.2025
Məqalənin çapa qəbul olunma tarixi: 12.09.2025

DOI: doi.org/10.61226/12.2.2023/20253.5
UOT: 631.95:004(479.24)
Cavad QOCAMANOV
Bakı Dövlət Universiteti, doktorant
cavad.qocamanov@gmail.com
https://orcid.org/0000-0002-9869-7349

AZƏRBAYCANDA AQRAR SAHƏNİN VƏ AQROBİZNESİN İNKİŞAFINDA RƏQƏMSAL VƏ İNNOVASİYALI TEXNOLOGİYALARIN TƏTBİQİ VƏZİYYƏTİNİN TƏDQİQİ

Xülasə: Əhalinin ərzaqla təminatında, ölkənin ümumi daxili məhsulunun artırılmasında, ərzaq təhlükəsizliyi səviyyəsinin yüksəldilməsində aqrar sahənin və aqrar-ərzaq məhsulları biznesinin rolu yüksək qiymətləndirilir. Eyni zamanda, aqrar sahədə və aqrobiznesdə innovasiya texnologiyalarının işlənməsi və tətbiqinin genişləndirilməsi bu istiqamətlərdə inkişaf üçün böyük imkanlar açır. Son illər qlobal miqyasda aqrar-ərzaq məhsullarına tələbin artması, iqlim dəyişikliyinin yaratdığı fəsadlar, aqrar sahədə işçi qüvvəsinin çatışmazlığı, aqrar məhsullarla təminat zəncirinin səmərəli idarə edilməsi və digər qlobal problemlərin həllində olduğu kimi aqrobiznesdə də yeniklərin tətbiqinin rolu xeyli artmışdır. Bildirilir ki, robotlardan, mexanikləşdirilmiş və avtomatlaşdırılmış sistemlərdən, pilotsuz uçuş aparatlarından, sensor sistemindən, süni intellektdən və digər innovativ alət və vasitələrdən istifadə, kənd təsərrüfatı resurslarının daha səmərəli istifadə edilməsinə, təsərrüfatçılıq ənənələrinin və təcrübələrinin təkmilləşdirilməsinə, bütövlükdə aqrar sahənin və aqrobiznesin inkişafına əhəmiyyətli töhfə verir. Belə nəticəyə gəlinir ki, aqrobiznes subyektlərinin innovativ texnologiyalardan və rəqəmsal platformalardan istifadə etmələri, satışın və gəlirlərin artmasına, aqrar sahənin ÜDM-də xüsusi çəkisinin yüksəlməsinə, aqrar-ərzaq məhsulları tədarükü və təminatı zəncirinin çevik mexanizminin yaradılmasına zəmin yaradacaq.

Açar sözlər: rəqəmsal, innovasiya, aqrar sahə, aqrobiznes, davamlı aqrobiznes.

Javad GOJAMANOV

RESEARCH OF THE STATE OF APPLICATION OF DIGITAL AND INNOVATIVE TECHNOLOGIES IN THE DEVELOPMENT OF THE AGRICULTURAL SECTOR AND AGRIBUSINESS IN AZERBAIJAN

Abstract: The role of the agricultural sector and the agri-food business in providing food to the population, increasing the country's gross domestic product and improving food security is highly appreciated. Consequently, the intensification of the development and implementation of innovative technologies in the agricultural sector and agribusiness opens up great opportunities for development in these areas. In recent years, the importance of using innovative technologies in solving agricultural and food problems on a global scale has increased significantly, related to the growing demand for food products,

complications caused by climate change, effective management of supply chains and the provision of agricultural products, including the development of agribusiness. It is noted that the use of robots, mechanized and automated systems, unmanned aerial vehicles, precision farming systems, the use of artificial intelligence, and other innovative tools and tools makes a significant contribution to more efficient use of agricultural resources, improvement of traditions and methods of agricultural activities, and the development of the agricultural sector and agribusiness in general. It is concluded that the use of innovative technologies and digital platforms by agribusiness entities will create the prerequisites for increasing sales and revenues, increasing the share of the agricultural sector in GDP, creating a flexible supply chain mechanism and providing agri-food products.

Keywords: digital technologies, innovations, agricultural sector, agribusiness, sustainable agribusiness.

Джавад ГОДЖАМАНОВ

ИССЛЕДОВАНИЕ СОСТОЯНИЯ ПРИМЕНЕНИЯ ЦИФРОВЫХ И ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В РАЗВИТИИ АГРАРНОГО СЕКТОРА И АГРОБИЗНЕСА В АЗЕРБАЙДЖАНЕ

Абстракт: Высоко оценивается роль аграрного сектора и агропродовольственного бизнеса в обеспечении населения продовольствием, увеличении валового внутреннего продукта страны и повышении уровня продовольственной безопасности. Следовательно, интенсификация разработки и внедрения инновационных технологий в аграрной сфере и агробизнесе открывает большие возможности для развития в этих направлениях. В последние годы значительно возросло значение применения инновационных технологий в решении аграрно-продовольственных проблем в глобальном масштабе, связанных с ростом спроса на продовольственные товары, осложнениями, вызванными изменением климата, эффективным управлени цепочками поставок и обеспечением сельскохозяйственной продукцией, в том числе в развитием агробизнеса. Отмечается, что использование роботов, механизированных и автоматизированных систем, беспилотных летательных аппаратов, систем точного земледелия, применение искусственного интеллекта, других инновационных средств и инструментов вносит значительный вклад в более эффективное использование сельскохозяйственных ресурсов, совершенствование традиций и методов ведения сельскохозяйственной деятельности, развитие аграрного сектора и агробизнеса в целом. Делается вывод о том, что использование субъектами агробизнеса инновационных технологий и цифровых платформ создаст предпосылки для увеличения продаж и доходов, повышения удельного веса аграрной отрасли в ВВП, создания гибкого механизма цепочки поставок и обеспечение агропродовольственной продукции.

Ключевые слова: цифровые технологии, инновации, аграрный сектор, агробизнес, устойчивый агробизнес.

Giriş

Ümumiyyətlə biznes fəaliyyəti insanların həm həyat keyfiyyətini yaxşılaşdırır həm də onların məhsul-xidmətlərə çıxışını və əlçatanlığını asanlaşdırmaqla ümumi olaraq ölkələrin və regionların iqtisadi tərəqqisinə kömək etmiş olur. Aqrar sahədə yenilikçi texnologiyaların tətbiqi bu sahədə bazarın daha da genişlənməsini, müasir tələblərə uyğun dəyişikliyə məruz qalmasını və yeni orqanik məhsulların yaradılmasını təşviq edərək iqtisadi potensialın daha da güclənməsinə və inkişafına səbəb olur. Bu prosesdə aqrobizneslə məşğul olan təşəbbüskar sahibkarların rolunu qeyd etmək vacibdir. Belə ki, onlar yeni məhsulların yaradılması məqsədilə yeni ideyaların, fikirlərin və həllərin reallaşdırılmasında mühüm rol oynayırlar. Bu baxımdan aqrar sahədə biznes fəaliyyəti inkişaf edən və yeni iqtisadi münasibətlər sisteminə uğurlu keçid edən iqtisadiyyatların hərəkətverici qüvvələrindən biri hesab edilir. Xüsusilə, innovativ texnologiyaların və həllərin geniş tətbiqi, aqrar sahədə biznes fəaliyyətinin hərəkətverici qüvvə kimi effektivliyini əsaslı şəkildə artırır. Ona görə innovasiyalı aqrobiznes fəaliyyəti müasir dövrdə milli iqtisadi sistemlərin prioritet hesab etdikləri istiqamətlərdən biridir.

Müasir inkişaf paradiqmasında innovasiya texnologiyalarının tətbiqinin genişləndirilməsiylə bağlı təşviqlər bütün sahələrdə olduğu kimi aqrar sahənin və aqrobiznesin ümumi davamlı inkişafda olan rolunun artırılmasına nail olmaq üçün əsas vasitələrdən biri kimi dəyərləndirilir.

Ona görə aqrar sahə və bilavasitə onun məhsullarının satışı ilə bağlı fəaliyyət-aqrobiznes bir çox ölkələrin iqtisadiyyatında prioritet istiqamətlərdən biri hesab edilir. Aqrar sahə və aqrobiznes inkişaf edən iqtisadiyyatların optimal quruluşunda, qlobal ərzaq təminatı və ərzaq təhlükəsizliyinin təmini sisteminin formalaşdırılmasında, milli və beynəlxalq iqtisadi münasibətlərin yaranmasında və inkişafında, ticarət siyasətinin reallaşdırılmasında, aqrar məhsullar bazarlarının inkişaf meyillərinin məqsədyönlü istiqamətləndirilməsində və iqtisadi inkişafın davamlılığına töhfə verilməsində əsas rol oynayan sahələrdən biridir.

Müasir dövrdə aqrar sahə məhsullarının istehsalını, emalını, saxlanmasını, daşınmasını və satışını reallaşdıran aqrobiznes fəaliyyəti baş verən texnoloji inkişafad, qlobal və regional ekoloji şərtlərin dəyişikliyində, qloballaşmanın yaratdığı iqtisadi şərtlərdə, iqtisadi fəaliyyət və münasibətlərdə yeni prinsiplərin tətbiqində və istehsal-istehlak proseslərində köklü dəyişikliklərə uyğun olaraq təkamül etməyə davam edir. Belə olan halda ümumi iqtisadi sistemin inkişafı ilə aqrobiznes arasında qarşılıqlı əlaqə və bağlılığın əhəmiyyətini dərk etmək böyük əhəmiyyət kəsb edir. Belə bir təcrübə isə ölkələr, regionlar və aqrar-ərzaq məhsullarının emalı və istehsalı sənayesi ilə məşğul olan sahələrin mütəxəssisləri üçün bu sahədə olan fəaliyyətlərinin planlaşdırılması, strateji inkişafı və idarə edilməsi sahəsində yol bələdçisi kimi qəbul edilə bilər.

Qloballaşmanın genişlənməsi və aqrar-ərzaq məhsulları ilə təminat məsələsinin son illər ciddi aktuallıq kəsb etməsi, aqrobiznesin artıq beynəlxalq bazarlarda mühüm quruluşlardan biri kimi çıxış etməsini şərtləndirmişdir. Bununla belə, aqrobiznesin yeni bazarlarda daha da genişlənməsi, çoxsaylı istehlakçı kütlələrinin aqrar-ərzaq məhsullarına olan tələbatlarının ödənilməsində

fəal rol oynaması, beynəlxalq keyfiyyət standartlarına uyğun məhsulların satışının təşkil edilməsi, geniş coğrafiyalarda ərzaq tədarükü və təminatı zəncirinin yaradılması və idarə edilməsində təzahür edən özünəməxsus çətinliklərin müşahidə edilməsi prosesin təşkili və inkişafına yeni çağırışlar kontekstindən yanaşmaların işlənməsini və tətbiqini tələb edir. Bu tələbin şərtləndirdiyi vəzifələr sırasında rəqəmsal və innovasiyalı texnologiyaların işlənməsi, aqrar sahədə və aqrobiznesdə tətbiqi qlobal bazarlarda uğurlu fəaliyyətə, əhalinin aqrar-ərzaq məhsulları ilə daha üstün səviyyədə təmin edilməsinə təminat verən əsas amillərdən biri hesab edilir.

Mövzunun aktuallığı

Son illər əhalinin aqrar-ərzaq məhsulları ilə təmin edilməsi, aqrar sahədə istehsalın və məhsuldarlığın həcminin artırılması ilə yanaşı, istehsal edilən məhsulların emalı, saxlanması, daşınması, istehlak bazarlarına çıxarılması və istehlakçılara çatdırılması üzrə fəaliyyət zəncirinin səmərəli təşkili, idarə edilməsi və təminatı prosesində itkilərin minimallaşdırılması mühüm məsələlərdən biridir. Qeyd etmək vacibdir ki, bu sahədə problemlərin həllinə rəqəmsal və innovativ texnologiyaların tətbiqinə nail olmadan çatmaq mümkünsüz görünür. Bütün sahələrdə olduğu kimi aqrar sahədə və aqrobiznesdə də yenilikçi texnologiya və satış platformalarının tətbiqi biznes prosesinin daha səmərəli təşkili və inkişafına zəmin yaradan əsas amillərdən biri kimi mühüm rol oynayır. Tədqiqat aqrobiznesin inkişafında rəqəmsal və innovativ texnologiyaların rolunun qiymətləndirilməsinə həsr edilib və bu baxımdan məqalənin aktual məsələyə həsr olunması qənaətinə gəlmək olar.

Tədqiqatın materialı və metodologiyası

Tədqiqatın material bazasını aqrobiznesdə innovasiya fəaliyyətinin və texnologiyalarının təşviqinin, tətbiqinin və təşkilininin səmərələrinə, eyni zamanda, rəqəmsal texnologiyaların və platformaların aqrar-ərzaq məhsullarının satışının artırılmasında və istehlakçıların tələbatlarının daha yüksək səviyyədə təminindəki roluna həsr edilmiş tədqiqat əsərləri təşkil edir. Həmçinin, beynəlxalq, milli və regional aqrar-ərzaq məhsulları istehsalçıları və satıcılarının hesabatları, statistik məlumatları, aqrobiznesə dair internet məlumatları və s. materiallar da mənbələr kimi istifadə olunub.

Məqalənin işlənməsində təhlil, statistik, ümumiləşdirmə, sintez və deduksiya metodlarından istifadə edilmişdir.

Müzakirə

Ümumiyyətlə aqrobiznes aqrar sahə məhsullarının tədarükü, emalı, istehsalı, saxlanması və satışı üzrə fəaliyyəti və bu fəaliyyətdən maddi gəlir əldə etməyi nəzərdə tutur. Aqrobiznes fəaliyyətinin fəlsəfəsini, istehlakçıların aqrar-ərzaq məhsullarına olan tələbatlarını müəyyənləşdirmək, anlamaq və daha yaxşı təmin etmək məqsədilə lazımi xidmətlər göstərmək təşkil edir [6].

Aqrobiznesin inkişafı həm aqrar sahənin, həm də regional və milli iqtisadiyyatın inkişafına müsbət təsirləri ilə seçilir [5]. Aqrobiznesin inkişafı üçün müxtəlif şərtlər nəzərə alınmaqla, fərqli və çeşidli yanaşma və strategiyalar tətbiq edilir [9, s. 32].

Qlobal miqyasda aqrar sahə ilə bağlı aqrobiznes fəaliyyəti əhalinin artan qida tələbatını ödəmək və məhsuldarlığı artırmaq üçün rəqəmsal və innovasiya texnologiyalarını tətbiq edərək daha davamlı aqrar-ərzaq məhsulları istehsalı və ticarəti sistemlərinə keçidi prioritetləşdirməyi strateji məqsədlərdən biri hesab edir [10; 8].

Eyni zamanda bu sahədə inkişafın innovativ texnologiyalara əsaslanması aşağıdakı sosial, təşkilati-iqtisadi göstəricilərin müsbət işarəli dinamika qazanmasına imkan yaradır:

- aqrar-ərzaq məhsulları istehsalı həcminin artmasına;
- tələbatların öyrənilməsi və məhsulların istehlakçılara daha əlverişli kanallarla çatdırılmasında mühüm amil olan marketinqin təkmilləşdirilməsinə;
- kənd ərazilərinin iqtisadi müstəqilliyinin və regionun ümumi iqtisadi səmərəliliyinin yüksəlməsinə;
- rasional paylama və çatdırılma sisteminin yaranmasına;
- aqrar-ərzaq məhsulları bazarında sabitliyin təminə;
- müxtəlif imtiyazlı sosial qrupların ərzaqla sabit təmin olunmasına;
- ərzaq çatışmazlığı və təminatı problemlərinin daha üst səviyyədə həllinə;
- kənd ərazilərində məşğulluğun artırılmasına və s.

Əhalinin mühüm tələbatlarını ödəyən qida məhsulları istehsalı bilavasitə aqrar sahədə, mövcud potensialdan səmərəli istifadə prinsipi əsasında reallaşdırılır [4]. Əsasən bitki və heyvan mənşəli olmaqla, aqrar-ərzaq məhsullarının müasir dövrdə tələbi ödəyən miqdarda istehsalı müasir texnologiya və strategiyaların tətbiqini vacib vəzifə olaraq müəyyən edir [11]. Bunlarla yanaşı, istehlakçıların tələbatlarının, istehlak modellərinin, zövqlərinin və istəklərinin quruluşunda əsaslı transformasiyaların baş verməsi aqrobiznes ilə bağlı innovasiyaların tətbiqini şərtləndirir. Həmçinin, əhali artımı, ekoloji təmiz, üzvi və keyfiyyətli heyvandarlıq və əkinçilik məhsullarına tələbin ilbəil artması, aqrar sahədə olan fəaliyyətin yüksək riskliliyinin olması və ətraf mühit amillərinin mənfi təsirlərinin yaratdığı problemlərin həlli ilə əlaqədar davamlı inkişafın təmininin vacibləşməsi bu sahədə rəqəmsal və innovasiya texnologiyalarının tətbiqini mühüm vəzifə kimi ön plana çəkmişdir. Bu məsələ Azərbaycanda da aktual vəzifələrdən biri sayılır. Belə ki, aqrar sahənin milli iqtisadi sistemin qeyri-neft sahəsinin səkkiz prioritet istiqamətlərindən biri kimi elan edilməsi bu sahədə davamlı inkişafa nail olunması, innovativ texnologiyaların geniş tətbiqi sayəsində innovativ ekosistemin yaradılması, "Made in Azerbaijan" brendli məhsulların xüsusilə aqrar-ərzaq məhsullarının istehsalına və qlobal bazarlara çıxarılmasına nail olunması digər məsələlər ilə bağlı qəbul edilmiş müxtəlif regional inkişaf proqramlarında, strateji yol xəritəsində, inkişaf konsepsiyasında, sosial-iqtisadi inkişaf üzrə milli prioritetlərdə və digər sənədlərdə xüsusi diqqət mərkəzində olan vəzifələr kimi qeyd edilmişdir [1; 2; 3].

Təcrübə göstərir ki, rəqəmsal və innovativ texnologiyaların tətbiqi aqrar sahədə əksər istehsal göstəricilərinin yüksəldilməsinə, o cümlədən idarəetmə sisteminin optimallaşdırılmasına imkan verir. Belə ki, aqrobiznesdə elektron ticarət platformalarının istifadəsi məhsulların yeni bazarlara və istehlakçılara

vaxtında və itkisiz çatdırılmasında böyük köməklik edir. Eyni zamanda, rəqəmsal marketinqin tətbiqi istehlakçı tələbatlarının müəyyən edilməsində və məhsul istehsalı prosesi ilə bağlı istiqamətin istehlakçıların tələb və istəklərinə uyğunlaşmasında çox böyük rol oynayır. Bundan başqa, idarəetmə qərarlarının qəbulunda marketinq tədqiqatlarının nəticələrinə istinad edilməsi və idarəetmə innovasiyalarının aqrar sahə subyektlərinin fəaliyyətinin səmərəli təşkilində tətbiqi innovasiyalı fəaliyyətə meyilli aqrar sahə və aqrobiznes subyektlərinə kömək edir ki, daha keyfiyyətli və rəqabət qabiliyyətli üzvi və spesifik qida məhsulları istehsal etsinlər, bu da öz növbəsində onların yüksək rəqabətli aqrar-ərzaq bazarlarında dayanıqlı fəaliyyətinə zəmin yaradır. Eyni zamanda, aqrar sahədə süni zəka və böyük verilənlər (Big data) analitikası, təcrübələrin və digər texnologiyaların tətbiqi məcmu "istehsal-tədarük-emal-satış-çatdırılma-istehlak-istehlak sonrası xidmət" proseslərini optimallaşdırmağa zəmin yaradır. Həmçinin, bu proseslər aqrar sahənin qlobal aqrar-ərzaq bazarları konyunkturasında baş verən dəyişikliklərə və beynəlxalq keyfiyyət standartları və tələblərinə (BRCGS, SQF, Codex Alimentarius, EU Organic Certification, ISO 9001, ISO 22000, HACCP, GLOBALG.A.P. və s.) çevik uyğunlaşmasını sürətləndirir.

Azərbaycanda aqrobiznesdə tətbiq edilən rəqəmsal və innovativ texnologiyalar

Ölkəmizdə aqrar sahənin inkişafının prioritet istiqamətlərdən biri kimi qəbul edilməsi [2], əhalinin 35,4%-nin bu sahədə çalışması [12], məhsuldarlığın əksər dünya ölkələri ilə müqayisədə aşağı olması (2024-cü ildə məhsuldarlıq: taxılçılıqda-33 sent/ha, kartof 190,5 sent/ha, tərəvəz-204,2 sent/ha, bostan bitkiləri 254,1 sent/ha) [13] və s. amillər rəqəmsal və innovasiya texnologiyalarının aqrar sahə və aqrobiznesdə tətbiqinə, eyni zamanda, bununla bağlı reallaşdırılan tədbirlərin genişləndirilməsinə ciddi ehtiyac yaratmışdır. Cari dövrdə tətbiq edilən müvafiq texnologiyaların və görülən tədbirlərin istehsalın artırılmasına müəyyən töhfə verməsinə baxmayaraq, vəziyyətin hələ də qənaətbəxş səviyyədə olmasını demək olmaz. Bununla bağlı mövcud vəziyyətin yaxşılaşdırılması və ən azından orta qlobal göstəricilərə uyğunlaşdırılması üçün bu istiqamətdə fəaliyyəti genişləndirməklə daha çox işlərin görülməsi tələb olunur.

Hal hazırda Azərbaycanda aqrar sahədə və aqrobiznesdə daha çox tətbiq edilən rəqəmsal və innovasiya texnologiyalarını aşağıdakı kimi sıralaya bilərik:


- Ağıllı suvarma sistemləri. Bu texnologiyalar avtomatlaşdırılmış rejimdə işləyən və damcılı suvarma həyata keçirməyə, su sərfiyyatında qənaətə və məhsul istehsalını artırmağa imkan verir.
- Təsərrüfat subyektlərinə maliyyə dəstəyi mexanizmi. Əvvəllər aqrar sahə subyektlərinə maliyyə dəstəyi müxtəlif fondlar və təşkilatlar (Sahibkarlığın İnkişafı Fondu [14], KOBİA [15], Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və s.) vasitəsilə həyata keçirilirdi. Hal-hazırda bu sahədə fəaliyyətin daha şəffaf və çevik həyata keçirilməsi məqsədilə "FinTech həlləri" tətbiq edilir ki, bu da maliyyə dəstəyinin və kreditlərin onlayn müraciətlə daha operativ alınmasını mümkünləşdirir. Eyni zamanda, hər bir təsərrüfat subyektinin aqrar təsərrüfatların qeydə alınması, məhsuldar toxumlar, gübrələr, kredit, maliyyə dəstəyi, subsidiya

və s. müraciətlərini elektron "kabinet" vasitəsilə etmələri üçün dövlət dəstəkləri barədə onlayn informasiya almağa imkan verən sistem - EKTİS (elektronlaşdırılmış kənd təsərrüfatı informasiya sistemi) yaradılmışdır.

- Rəqəmsal sığorta sistemi. Aqrar sahədə fəaliyyət göstərən subyektlərə risk ehtimalı və hadisələri ilə bağlı dövlət dəstəyinin reallaşdırılması üçün rəqəmsallaşdırılmış sığorta mexanizmi yaradılıb və proses "Aqro-sığorta portalı" üzərindən hayata keçirilir.
- Aqrotexniki xidmətlərlə əlaqəli innovasiyalar. Əkin sahələrində olan becərmə işlərində, gübrə səpinində, eyni zamanda, sahələrə nəzarətin təşkilində, alaqların, zərərvericilərin, xəstəliklərin və s. ziyanlı vasitələrin müəyyən edilməsində, onlarla mübarizədə və s. işlərdə pilotsuz uçan aparatlardan istifadə edilir. Bundan başqa, bu istiqamətdə tətbiq edilən texnologiyalara ərazilərin xəritələrinin tərtibində, suvarma sistemlərinin və əkin rejimlərinin işlənməsində GPS və GİS sistemlərini, topaqların fiziki göstəricilərini və məhsulların yetkinlik dövrünü ölçmək üçün isə sensor texnologiyalarını da misal çəkmək olar. Bu texnologiyaların tətbiqi maliyyə vəsaitlərinə qənaətə, becərmənin daha müasir aqrotexniki qayda və normalara uyğun təşkilinə, suvarma rejiminin optimallaşdırılmasına, məhsuldarlığın artırılmasına və digər üstünlüklərə nail olmağa imkan verir.
- Aqrobiznesdə rəqəmsal marketinq və platformalar. "Fermer Bazar" və "AgroMall" e-ticarət və onlayn bazar platformaları aqrar-ərzaq məhsulları istehsalçılarına öz məhsullarını blok-çeyn texnologiyası əsasında bilavasitə istehlakçılara çatdırmasına, logistikada rəqəmsal texnologiyaların və sistemlərin tətbiqi isə məhsulların daşınmasının və çatdırılmasının izlənməsinə zəmin yaradır, bu isə öz növbəsində məhsulların satışı prosesinin sürətlənməsinə səbəb olur.
- Ekoloji təmiz və üzvi məhsul istehsalı texnologiyaları. Məlumdur ki, müasir aqrobiznesdə xüsusilə qlobal aqrar-ərzaq bazarlarında uğur qazanmağın, dayanıqlı aqrobiznesin təşkilinin və onun genişləndirilməsinin əsas şərtlərindən biri məhsulların ekoloji təmizliyi və üzviliyi, yəni, qlobal keyfiyyət standart və tələblərinə cavab verməsidir. Ölkəmizdə bu tələblərə uyğun aqrar-ərzaq məhsullarının istehsalı məqsədilə yüksək məhsuldarlığı olan və ərazilərin iqlim şəraitinə uyğunlaşdırılmış bitki və heyvan sortlarına, eyni zamanda, bioloji əsaslı gübrələrdən, pestisidlərdən və ekoloji cəhətdən təmiz yem məhsullarından istifadəyə üstünlük verilir və bu meyil ilbəil gücləndirilir.

Qeyd edilənlərdən başqa, aqrar sahədə ağıllı və sensor idarəetmə sistemi olan aqrar təsərrüfat texnikalarından, risklərlə bağlı xəbərdarlıq sistemlərindən, heyvandarlıqda avtomatlaşdırılmış sağım və optimal qida rasionları tərtibi sistemlərindən də istifadə edilir.

Azərbaycanda aqrar sahədə və aqrobiznesdə istifadə edilən rəqəmsal və innovasiya texnologiyalarını aşağıdakı sxemdə təqdim edirik (sxem 1.).



Sxem 1. Azərbaycanda aqrar sahədə aqrobiznesdə tətbiq edilən rəqəmsal və innovasiya texnologiyaları.
Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.

Ölkəmizdə aqrar sahədə və aqrobiznesdə tətbiq edilən rəqəmsal və innovasiya texnologiyaların sayəsində istehsal edilmiş aqrar-ərzaq məhsullarının ümumi dəyərinin artmasında müsbət dinamika müşahidə edilir. Aqrar-ərzaq məhsullarının istehsalına dair statistik məlumatların təhlili göstərir ki, son beş ildə bu sahədə müəyyən artım baş vermişdir (Cədvəl 1.).

Cədvəl 1.
Aqrar sahənin ümumi ərzaq məhsulu (faktiki qiymətlərlə) / milyon manat

İllər	Aqrar sahənin ümumi ərzaq məhsulu (faktiki qiymətlərlə) / milyon manat	Bitkiçilik məhsulları	Heyvandarlıq məhsulları
2019	7 836,7	4 085,5	3 751,2
2020	8 428,9	4 400,5	4 028,4
2021	9 163,0	4 652,0	4 511,0
2022	9834,5	5187,3	4647,2
2023	10964,8	5642,4	5322,4
2024	12 995,2	6 832,9	6 162,3

Mənbə: *Müəllif cədvəli AR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən tərtib etmişdir.*

Göründüyü kimi, son altı ildə istehsal edilən aqrar-ərzaq məhsullarının dəyərində 165,7%, o cümlədən heyvandarlıq məhsullarının dəyərində 164,2%, bitkiçilik məhsullarının dəyərində isə 167,2% artım olmuşdur. Ölkəmizdə mövcud potensialı nəzərə alaraq demək olar ki, bu göstəricilərdə daha çox artıma nail olmaq mümkün olar.

Bundan başqa, aqrar sahədə istehsal olunan əsas məhsulların bəzilərinin statistik göstəricilərinin təhlili onu deməyə əsas verir ki, bu məhsulların istehsalında hələ də ciddi uğurlar əldə edilməyib (Cədvəl 2.).

Cədvəl 2.
Bəzi əsas ərzaq məhsulları istehsalı göstəriciləri.

Məhsul	**2020**	**2021**	**2022**	**2023**	**2024**	2020-ci ilə nisbətən 2024-cü ildə artım/azalma, *dəfə*
Buğda, *ton*	1,867,000	1,885,000	1,736,000	1,834,000	1,850,000	-0,99
Kartof, *ton*	1,037,600	1,062,000	1,074,300	1,010,500	927,400	-0,89
Tərəvəz, *ton*	1,738,900	1,815,500	1,823,300	1,825,600	1,838,900	+1,05
Meyvə və giləmeyvə, *ton*	233,800	177,300	210,600	206,100	244,200	+1,04
Ət, *min ton*	346,000	357,600	368,200	379,700	386,300	+1,11
Süd, min *ton*	2.254.300	2.258.300	2,264,700	2,284,000	2,298,500	+1,02
Yumurta, *mln. ədəd*	1.987.3	2.009.6	2,018.1	2,188.2	2.300.8	+1,15

Mənbə: *Cədvəl müəllif tərəfindən https://www.stat.gov.az/ [16], "Azerbaijan in figures / 2025" [7] məlumatlarına əsasən tərtib edilmişdir.*

Belə ki, buğda, kartof, kimi mühüm ərzaq məhsullarının istehsalı arzu olunan səviyyədə deyil. 2020-2024-cü illərdə tərəvəz, meyvə və giləmeyvə, ət, süd, yumurta istehsalında cüzi artım (1,02-1,15 dəfə) olsa da, kartof və buğda istehsalında azalma baş vermişdir (müvafiq olaraq 0,89 və 0,99 dəfə). Bu azalma əsasən təbii-iqlim şərtləri ilə bağlı olsa da, kifayət qədər xoşagəlməz vəziyyətdir və mövcud problemlərin həlli məqsədilə qarşıdakı illərdə ciddi tədbirlərin görülməsini, xüsusilə rəqəmsal və innovativ texnologiyaların tətbiqinin genişləndirilməsini əsas vəzifələrdən biri kimi qarşıya qoyur. Bu vəzifənin səmərəli icrası məqsədilə aqrar sahə və aqrobiznesdə innovasiya fəaliyyətinin təşviqinə, rəqəmsal və elektron ticarət platformalarına çıxışa, dövlət dəstəyinin daha mütərəqqi formalarının tətbiqinə, aqrar sahə və aqrobiznes subyektləri ilə dövlət-özəl əməkdaşlığının daha da genişləndirilməsinə, kadr potensialının müasir texnologiyaları mənimsəməsinə nail olunmasına və s. tədbirlərin gücləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

Nəticə

Aqrar sahə əhalinin ərzaq və qida məhsulları ilə milli təhlükəsizliyin mühüm elementi olan ərzaq təhlükəsizliyi təminatında bilavasitə mühüm rol oynayır. Əhalinin ərzaq təminatı, bilavasitə aqrobiznes subyektlərinin fəaliyyəti sayəsində reallaşdırılır. Aqrar sahədə istehsal və tədarük edilmiş, emaldan keçmiş və istehlak üçün əmtəə formasına salınmış məhsulların saxlanması, daşınması, bölüşdürülməsi, istehlak bazarlarına və birbaşa istehlakçılara çatdırılması, istehlakdan sonrakı xidmətlərin göstərilməsi aqrobiznes fəaliyyətinin əsas funksiyaları kimi səciyyələndirilə bilər. Müasir dövrdə aqrar-ərzaq məhsulları ilə təminat milli və qlobal səviyyələrdə qida çatışmazlığı probleminin həllində müstəsna əhəmiyyət kəsb edən məsələdir. Bu problemin həlli aqrar sahədə məhsuldarlığın artırılmasını, keyfiyyətin yüksəldilməsini, üzvi və ekoloji təmiz məhsulların istehsalının artırılmasını, istehsal edilmiş məhsulların vaxtında, itkisiz və keyfiyyətli vəziyyətdə istehlakçılara çatdırılmasını və aqrar-ərzaq bazarlarına çıxarlmasını aktual vəzifə kimi qarşıya qoyur. Bu vəzifələrin həlli isə aqrar sahədə və aqrobiznes proseslərində rəqəmsallaşdırılmış və innovasiyalı texnologiyaların, vasitələrin və alətlərin geniş istifadəsini şərtləndirir. Bir çox dünya ölkələrində olduğu kimi, Azərbaycanda da bu sahədə müəyyən tədbirlər görülür.

Tədqiqatlar göstərir ki, ölkəmizdə aqrar sahədə yenilikçi və rəqəmsal texnologiyalardan, biznes platformalarından istifadə edilməsinə baxmayaraq, aqrar-ərzaq məhsulları istehsalı və aqrobiznes prosesləri hələ də lazımi səviyyədə deyil. Belə ki, bir çox əsas ərzaq məhsulları istehsalında artım arzu olunan səviyyədə deyil, bəzi məhsulların istehsalında isə son illər azalma müşahidə edilir.

Araşdırmalarımıza əsasən qeyd etməliyik ki, ölkəmizin aqrar istehsal potensialının səmərəli reallaşdırılmaması və aqrobiznes sahəsində fəaliyyətin müasir standartlar səviyyəsində qurulmamasında əsas problemlərdən biri rəqəmsallaşdırılmış və innovasiyalı texnologiyaların tətbiqində sistemli və kompleks yanaşmanın təmin edilməməsidir. Digər həlli vacib problem isə aqrar sahə subyektlərində innovasiya fəaliyyətinin zəif təşkilidir. Bunun səbəbi isə innovasiya texnologiyalarının işlənməsi, transferi və tətbiqinə maliyyə vəsaitlərinin az ayrılması və ya ayrılmaması, bu istiqamətdə təşəbbüslərin zəif dəstəklənməsidir.

Aqrar sahədə istehsalın artırılması, aqrobiznesdə daha səmərəli və dayanıqlı fəaliyyətin təmin edilməsi və qeyd edilən digər problemlərin həlli ilə bağlı aşağıdakıları təklif edirik:

- dövlətin aqrar sahədə innovasiya fəaliyyətinə maliyyə və təşkilati-iqtisadi dəstəyi gücləndirilməli, aqrar sahə müəssisələri-dövlət quruluşları əməkdaşlığı genişləndirilməlidir;
- rəqəmsal və innovasiyalı texnologiyaların işlənməsinə əlverişli şərait yaradılmalı, bu tip texnologiyaların transferi və mübadiləsi üçün yerli və xarici sərmayələrin cəlbi məqsədilə təşviq tədbirləri həyata keçirilməlidir;
- innovasiya texnologiyalarının işlənməsi və tətbiqində fəallıq göstərən aqrar təsərrüfat subyektlərinə subsidiyaların, uzunmüddətli güzəştli kreditlərin ayrılması təmin edilməlidir;
- aqrar sahə və aqrobiznes subyektlərinin innovasiya fəaliyyəti ilə məşğul olan elmi-tədqiqat institutları, tədris müəssisələri, innovasiya komandaları, innovasiya mərkəzləri və digər quruluşlarla əməkdaşlığı genişləndirilməlidir və s.

Qeyd edilən təkliflərin reallaşdırılması ölkəmizdə aqrar sahədə istehsalın həcminin və məhsulların keyfiyyətinin artmasına, rəqabət qabiliyyətinin yüksəlməsinə, aqrobiznes fəaliyyətinin genişlənməsinə və dayanıqlılığının artmasına imkan verər, bu isə öz növbəsində milli aqrar-ərzaq məhsullarının qlobal bazarlarda satışından valyuta daxilolmalarının həcminin artmasına və ümumlikdə aqrobiznesin ölkənin ÜDM-də olan payının yüksəlməsinə ciddi töhfə verər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı.
3. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
4. Гасанова Ш.К., Гасанов А.Н. Научно-теоретические основы определения производственного потенциала и оценки ресурсных возможностей в аграрном секторе. Sciences of Europe. Praha, 2020, №53 (53), Vol 5, c.3-6.
5. Гайнутдинов И.Г. Малый аграрный бизнес: понятие, организационно-правовые формы и критерии классификации. Достижения науки и техники АПК, №2-2012, с.6-10.
6. Попова А.А., Титова Т.И. Агробизнес: основополагающие функции и нацеленность на результат. Аграрный вестник Урала. №8 (62), 2009. С. 38-40).
7. Azerbaijan in figures / 2025 https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/?lang=en.
8. Bauer, P.; Stevens, B.; Hazeleger, W. A Digital Twin of Earth for the Green Transition. Nat. Clim. Change 2021, 11, 80–83.
9. Kiran Kotyal, Dr. Vivek Uttam Chavhan, Dr. Udaykumar M. S. Agricultural Economics and Agribusiness; Strategies for Growth and Innovation. Stella International Publication. 2025, Volume-4. 487 p.
10. World Economic Forum. Transforming Food Systems with Farmers: A Pathway for the EU. Available online: https://www.weforum.org/publications/transforming-food-systems-with-farmers-a-pathway-for-the-eu/ (müraciət tarixi: 18.09 2025.).
11. Yu Rongjian, I.-e.N. Obomufok, Nazar K. The Role of Advanced Technology in Agricultural Innovation. Mod Concep Dev Agrono.4(1). MCDA.000576.2019. DOI: 10.31031/MCDA.2019.04.000576.
12. https://www.stat.gov.az/source/agriculture/1.5.
13. https://www.stat.gov.az/source/agriculture/1.23.
14. https://edf.gov.az/.
15. https://smb.gov.az/az.
16. https://www.stat.gov.az/.

Məqalənin redaksiyaya daxilolma tarixi: 23.09.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.10.2025
Məqalənin çapa qəbul olunma tarixi: 16.10.2025

DOI: doi.org/10.61226/12.2.2023/20253.6
UOT: 330.322
Ceyhun GƏNCƏLİ
Azərbaycan Texniki Universiteti, doktorant
ceyhunganjali@gmail.com
https://orcid.org/0009-0002-7982-5672

UNİVERSİTET İNNOVASİYA İNVESTİSİYALARININ EMPİRİK ÖYRƏNİLMƏSİNDƏ KOMBİNƏ EDİLMİŞ TƏDQİQAT DİZAYNI: METODOLOJİ YANAŞMALAR

Xülasə: Universitet innovasiya investisiyalarının empirik öyrənilməsi müasir elmi mühitdə həm nəzəri, həm də praktik baxımdan olduqca aktualdır. İnnovasiya iqtisadiyyatı sürətlə inkişaf etdikcə universitetlərin yalnız tədris və tədqiqat müəssisələri kimi deyil, həm də yeni texnologiyaların, startapların və kommersiya yönümlü elmi nəticələrin əsas generatorları kimi rolu artmaqdadır. Bu səbəbdən universitetlərin innovasiya fəaliyyətinə yatırılan investisiyaların öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Belə bir öyrənmənin etibarlı nəticələr verməsi üçün ənənəvi tədqiqat metodları kifayət etmir, çünki bu sahədə həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin birlikdə nəzərə alınması tələb olunur.

Kəmiyyət metodları, məsələn, maliyyə göstəricilərinin statistik təhlili, investisiya həcmlərinin müqayisəsi və gəlirlilik göstəriciləri universitet innovasiya fəaliyyətinin iqtisadi tərəfini əks etdirir. Lakin bu nəticələr universitetlərin sosial missiyasını, akademik mühitdə yaratdığı dəyişiklikləri və uzunmüddətli strateji təsirlərini tam şəkildə izah etmir. Digər tərəfdən, keyfiyyət metodları, yəni rəhbərlərlə, müəllimlərlə, tələbələrlə və investorlarla aparılan müsahibələr, fokus qruplar və ekspert rəyinə əsaslanan yanaşmalar, daha çox subyektiv dəyərləndirmələri əks etdirir və geniş statistik təsvir verməkdə məhdudiyyətə malikdir. Buna görə də empirik araşdırmalarda kombinə edilmiş tədqiqat dizaynı, yəni hər iki yanaşmanın inteqrasiyası vacib olur.

Kombinə edilmiş metodologiyanın əsas üstünlüyü ondan ibarətdir ki, yalnız bir metodun məhdudiyyətlərini digər metod kompensasiya edir. Kəmiyyət yanaşma nəticələrin etibarlılığını və ölçülə bilənliyini təmin edirsə, keyfiyyət yanaşma onların dərinliyini və sosial kontekstdə izahını təmin edir. Bununla yanaşı, belə bir yanaşma tədqiqat prosesində əlavə resurslar və vaxt tələb edir. Empirik baza üçün həm sorğu dizaynı, həm də müsahibə proqramlarının hazırlanması, məlumatların toplanması və təhlili daha mürəkkəb yanaşma tələb edir.

Bütün bu çətinliklərə baxmayaraq, kombinə edilmiş tədqiqat dizaynı universitet innovasiya investisiyalarının öyrənilməsində ən rasional yanaşma kimi qəbul olunur. Bu metodologiya yalnız cari maliyyə nəticələrini deyil, həm də universitetlərin uzunmüddətli inkişaf strategiyalarına təsirini, sosial faydalarını və innovasiya ekosistemindəki rolunu hərtərəfli şəkildə dəyərləndirməyə imkan verir. Beləliklə, kombinə edilmiş metodologiyanın tətbiqi ilə aparılan empirik araşdırmalar həm akademik cəmiyyət, həm dövlət qurumları, həm də özəl sektor

üçün daha real və praktik nəticələr ortaya qoyur.

Açar sözlər: texnologiyalar, investisiyalar, universitetlər, metodologiya, kombinə edilmiş metodologiya, investisiya,müəssisə

Jeyhun GANJALI

COMBINED RESEARCH DESIGN IN THE EMPIRICAL STUDY OF UNIVERSITY INNOVATION INVESTMENTS: METHODOLOGICAL APPROACHES

Abstract: The empirical study of the innovative investments of the university is extremely relevant both theoretically and practically in the modern scientific environment. With the rapid development of an innovative economy, the role of universities is increasing not only as educational and research institutions, but also as the main generators of new technologies, startups and commercially oriented scientific results. For this reason, the study of investment in innovative university activities is of particular importance. Traditional research methods are not enough for such a study to give reliable results, since in this area joint consideration of both quantitative and qualitative indicators is required.

Quantitative methods, such as statistical analysis of financial indicators, comparison of investment volumes and profitability indicators reflect the economic side of the university's innovation. However, these findings do not fully explain the social mission of universities, changes in academia, and long-term strategic implications. On the other hand, quality methods, i.e. interviews with supervisors, faculty, students and investors, focus group and expert opinion-based approaches reflect more subjective assessments and are limited in providing extensive statistical description. Therefore, in empirical studies, a combined research design is important, that is, the integration of both approaches.

The main advantage of the combined methodology is that only one method compensates for the limitations of the other method. If a quantitative approach provides validity and measurability of results, a qualitative approach provides their depth and explanation in a social context. However, this approach requires additional resources and time during the research process. An empirical base requires a more sophisticated approach to both query design and interview programming, data collection and analysis.

Despite all these difficulties, combined research design is considered the most rational approach to studying the university's innovative investments. This methodology makes it possible to comprehensively assess not only current financial results, but also the impact of universities on long-term development strategies, social benefits and their role in the innovation ecosystem. Thus, empirical research conducted using a combined methodology provides more real and practical results for both academic society, government agencies, and the private sector.

Keywords: technology, investment, universities, methodology, combined methodology, investment, enterprise.

Джейхун ГЯНДЖАЛИ

КОМБИНИРОВАННЫЙ ИССЛЕДОВАТЕЛЬСКИЙ ДИЗАЙН В ЭМПИРИЧЕСКОМ ИЗУЧЕНИИ УНИВЕРСИТЕТСКИХ ИННОВАЦИОННЫХ ИНВЕСТИЦИЙ: МЕТОДОЛОГИЧЕСКИЕ ПОДХОДЫ

Абстракт: Эмпирическое исследование инновационных инвестиций университета крайне актуально как теоретически, так и практически в современной научной среде. С бурным развитием инновационной экономики возрастает роль университетов не только как образовательных и исследовательских учреждений, но и как основных генераторов новых технологий, стартапов и коммерчески ориентированных научных результатов. По этой причине изучение инвестиций в инновационную деятельность университетов имеет особое значение. Традиционных методов исследования недостаточно для того, чтобы такое исследование дало достоверные результаты, поскольку в этой области требуется совместное рассмотрение как количественных, так и качественных показателей.

Количественные методы, такие как статистический анализ финансовых показателей, сравнение объемов инвестиций и показателей рентабельности, отражают экономическую сторону инновационной деятельности университета. Однако эти результаты не полностью объясняют социальную миссию университетов, изменения в научных кругах и долгосрочные стратегические последствия. С другой стороны, методы качества, то есть интервью с руководителями, преподавателями, студентами и инвесторами, фокус-группы и подходы, основанные на мнениях экспертов, отражают более субъективные оценки и ограничены в предоставлении обширного статистического описания. Поэтому в эмпирических исследованиях важен комбинированный дизайн исследования, то есть интеграция обоих подходов.

Основным преимуществом комбинированной методологии является то, что только один метод компенсирует ограничения другого метода. Если количественный подход обеспечивает обоснованность и измеримость результатов, качественный подход обеспечивает их глубину и объяснение в социальном контексте. Однако такой подход требует дополнительных ресурсов и времени в ходе исследовательского процесса. Эмпирическая база требует более сложного подхода как к разработке запросов, так и к программированию интервью, сбору и анализу данных.

Несмотря на все эти трудности, комбинированный дизайн исследований считается наиболее рациональным подходом к изучению инновационных инвестиций университета. Данная методология позволяет комплексно оценить не только текущие финансовые результаты, но и влияние вузов на долгосрочные стратегии развития, социальные выгоды и их роль в инновационной экосистеме. Таким образом, эмпирические исследования, проводимые с использованием комбинированной методологии, дают более реальные и практические результаты как для академического общества, государственных учреждений, так и для частного сектора.

Ключевые слова: технологии, инвестиции, университеты, методология, комбинированная методология, инвестиции, предприятие.

Giriş

Universitetlərin innovasiya fəaliyyətinə qoyulan investisiyaların araşdırılması müasir dövrdə həm milli, həm də qlobal miqyasda strateji əhəmiyyət daşıyan mövzudur. Qloballaşma və bilik iqtisadiyyatının inkişafi şəraitində universitetlər yalnız təhsil müəssisəsi funksiyasını deyil, həm də yeni ideyaların, texnologiyaların və innovativ məhsulların generatoru funksiyasını daşıyır. Bu səbəbdən universitetlərin iqtisadi və sosial mühitdə oynadığı rol dəyişir və onların innovasiya potensialının empirik öyrənilməsi elmi tədqiqatların prioritet istiqamətlərindən birinə çevrilir. İnnovasiya investisiyalarının universitetlərdəki tətbiqi yalnız elmi nəticələrin maliyyələşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda startapların inkişafı, texnoparkların yaradılması, tədqiqat nəticələrinin kommersiyalaşdırılması və əmək bazarına yeni bilik əsaslı resursların hazırlanmasını da əhatə edir.

Bu mövzunun aktuallığını artıran digər amil ondan ibarətdir ki, universitetlərin innovasiya fəaliyyəti bilavasitə ölkələrin iqtisadi inkişaf strategiyalarına təsir göstərir. Məsələn, bir çox Avropa ölkələrində universitetlər dövlət innovasiya siyasətinin mərkəzi institutları kimi çıxış edir və sənaye ilə əməkdaşlıq edərək yüksək texnologiyalı məhsulların istehsalında həlledici rol oynayır. ABŞ-da "Bayh-Dole Act" qanunu universitetlərin patent hüquqlarını gücləndirməklə onların kommersiya fəaliyyətini stimullaşdırmışdır. Azərbaycanda isə son illərdə innovasiya yönümlü ali təhsil islahatları çərçivəsində universitetlərin iqtisadiyyata inteqrasiyası məsələsi gündəlikdədir. Belə bir şəraitdə universitet innovasiya investisiyalarının empirik öyrənilməsi həm nəzəri baxımdan, həm də siyasət qərarlarının hazırlanması üçün vacibdir.

Ənənəvi tədqiqat yanaşmaları bu mövzunu yalnız bir tərəfdən işıqlandırır. Statistik göstəricilərə əsaslanan kəmiyyət yanaşmaları investisiya məbləğini, gəlirlilik dərəcəsini, risk göstəricilərini müəyyənləşdirir. Bu isə iqtisadi tərəfi anlamaq üçün faydalı olsa da, sosial və strateji təsirləri tam əks etdirmir. Digər tərəfdən, keyfiyyət yanaşmaları, məsələn, dərin müsahibələr və ekspert rəyinə əsaslanan tədqiqatlar, sosial faydaları və universitet daxilindəki dəyişiklikləri aydın göstərir, lakin geniş miqyaslı etibarlılıq təmin etmir. Buna görə də kombinə edilmiş tədqiqat dizaynı həm nəzəri cəhətdən, həm metodoloji cəhətdən, həm də praktik baxımdan ən optimal yanaşma kimi ortaya çıxır.

Kombinə edilmiş metodologiyanın tətbiqi universitet innovasiya investisiyalarının empirik öyrənilməsinə yeni imkanlar açır. Bu metodologiya kəmiyyət və keyfiyyət yanaşmalarının qarşılıqlı tamamlanmasını nəzərdə tutur. Sorğular vasitəsilə geniş statistik baza yaradılır, eyni zamanda müsahibələr və fokus qruplar vasitəsilə bu məlumatların dərin izahı əldə olunur. Universitet innovasiya investisiyalarının öyrənilməsi prosesində nəzərə alınmalı digər mühüm məsələ tədqiqatın empirik bazasının seçilməsidir. Müxtəlif universitetlər fərqli maliyyələşmə mexanizmlərinə, akademik strukturlara və sənaye ilə əməkdaşlıq modellərinə malikdir. Buna görə də nümunə seçimi məqsədli və stratifikasiya olunmuş şəkildə aparılmalıdır. Bu, tədqiqatın nəticələrinin ümumiləşdirilə bilməsi

üçün əsas şərtdir. Həmçinin regionlararası müqayisələr aparmaqla universitetlərin innovasiya fəaliyyətindəki oxşarlıqlar və fərqlər müəyyən edilə bilər.

Universitet innovasiya investisiyalarının öyrənilməsi yalnız akademik maraq kəsb etmir, həm də praktik nəticələr doğurur. Dövlət qurumları üçün bu tədqiqatlar innovasiya siyasətinin hazırlanmasında, universitet rəhbərləri üçün strateji idarəetmədə, investorlar üçün isə risklərin qiymətləndirilməsində faydalı ola bilər. Bu baxımdan kombinə edilmiş metodologiya yalnız elmi dəyər daşımır, həm də praktik fayda təmin edir. Əldə edilən nəticələr universitetlərin inkişaf planlarının hazırlanmasına, dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsinə və innovasiya ekosisteminin formalaşmasına töhfə verir.

Universitet innovasiya investisiyalarının empirik öyrənilməsi üçün düzgün metodoloji çərçivənin seçilməsi hər bir tədqiqatın elmi dəyərini müəyyənləşdirən ən vacib mərhələlərdən biridir. Ənənəvi tədqiqatlarda sosial və iqtisadi mövzular adətən ya kəmiyyət metodları ilə, ya da keyfiyyət yanaşmaları ilə təhlil olunurdu. Kəmiyyət metodları statistik göstəricilərə, rəqəmsal ölçülərə, maliyyə nəticələrinin müqayisəsinə əsaslanır və nəticələrin etibarlılığını artırmaq üçün güclü alətlər təqdim edir. Bununla yanaşı, keyfiyyət yanaşmaları sosial reallıqları, dərin mədəni və institusional faktorları, aktorların davranış motivlərini və strateji baxışlarını üzə çıxarmaqda əvəzsiz rol oynayır. Lakin hər iki metodun məhdudiyyətləri mövcuddur və bu məhdudiyyətlər universitet innovasiya investisiyalarının kompleks təbiətini yalnız birtərəfli şəkildə əhatə edir.

Kombinə edilmiş tədqiqat dizaynı məhz bu məhdudiyyətlərin aradan qaldırılması üçün inkişaf etdirilmiş nəzəri-metodoloji yanaşmadır. Bu yanaşmanın əsas ideyası ondan ibarətdir ki, sosial və iqtisadi fenomenlərin öyrənilməsində kəmiyyət və keyfiyyət metodlarının birgə tətbiqi nəticələrin daha obyektiv, daha etibarlı və daha zəngin şəkildə əldə olunmasına imkan verir. Universitet innovasiya investisiyaları mövzusu həm maliyyə ölçüləri, həm də sosial təsirlər baxımından ikili xarakter daşıdığı üçün kombinə edilmiş yanaşma burada xüsusi aktuallıq qazanır. Bir tərəfdən, bu investisiyaların miqdarı, səmərəlilik göstəriciləri, gəlirlilik faizi, risk amilləri kimi kəmiyyət xarakterli göstəricilər mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, həmin investisiyaların universitetin daxili mühitinə, tədris prosesinə, elmi fəaliyyətə, tələbələrin yaradıcılıq imkanlarına və regionun sosial-iqtisadi inkişafına təsirləri yalnız keyfiyyətli yanaşmalar vasitəsilə üzə çıxarıla bilər.

Kombinə edilmiş tədqiqat dizaynının nəzəri əsasları sosial elmlərdə "pragmatizm" fəlsəfi cərəyanı ilə sıx bağlıdır. Pragmatizm elmi tədqiqatlarda metodoloji dualizmi qəbul edir və hesab edir ki, hər bir elmi problem üçün ən uyğun metodların seçilməsi nəticələrin faydalılığını və praktik tətbiqini müəyyənləşdirir. Yəni kombinə edilmiş metodologiya nə sırf pozitivist, nə də sırf interpretativ yanaşmaya əsaslanır, əksinə hər iki istiqaməti sintez edir. Bu baxımdan, universitet innovasiya investisiyalarının öyrənilməsi də həm pozitivist yanaşmanın statistik ölçmələrini, həm də interpretativ yanaşmanın sosial izahlarını özündə birləşdirir.

Metodoloji cəhətdən kombinə edilmiş tədqiqat dizaynı müxtəlif formalar ala bilər. Bəzi tədqiqatçılar paralel dizayn tətbiq edərək həm kəmiyyət, həm də keyfiyyət məlumatlarını eyni vaxtda toplayır və sonradan onları müqayisəli

şəkildə təhlil edirlər. Digərləri ardıcıl dizayn seçərək əvvəlcə kəmiyyət nəticələrini əldə edir, daha sonra həmin nəticələri izah etmək üçün keyfiyyət metodlarına müraciət edirlər. Universitet innovasiya investisiyalarının empirik öyrənilməsində bu iki yanaşmanın hər ikisi tətbiq oluna bilər. Məsələn, əvvəlcə müxtəlif universitetlərin maliyyə göstəriciləri toplanaraq statistik təhlil aparıla bilər, daha sonra bu göstəricilərdəki fərqlərin səbəblərini anlamaq üçün rektorlarla və investorlarla müsahibələr təşkil edilə bilər.

Digər tərəfdən, müəyyən dövrlərdə, xüsusən də maliyyə qeyri-sabitliyi dövrlərində, universitetlərin yaşamaq astanasında olduğu və ya sürətli sosial-iqtisadi transformasiya dövrlərində, universitetlərin dəyişən şərtlərə tez uyğunlaşmalı olduğu, təşkilatçılıq bacarıqları, biznes mühiti ilə əlaqə, sahibkarlıq və vəsait toplamaq qabiliyyəti kritik əhəmiyyət kəsb edir. Belə hallarda akademik dünyadakı əlaqələrdən daha çox akademik təcrübə daha vacib ola bilər. Əslində, Azərbaycanda rektorların bir qisminin akademik keçmişi var və onların bəziləri karyeralarını sonradan rektor vəzifəsini tutduqları universitetdə qurublar.

Departament-təlimin istiqaməti (və ya bir neçə istiqaməti) çərçivəsində əsas təhsil proqramı üzrə tədris fəaliyyətinin təşkili, məzmunu, həyata keçirilməsi və nəticələrinə cavabdeh olan struktur bölməsidir. Deportament universitetin fəaliyyət sahəsinə və ya xidmət edilən fənlərin tərkibinə aid olan şöbələr qrupunu birləşdirən struktur bölməsidir və aşağıdakı proseslərə xidmət edir.

- müəyyən təlim sahəsinin intensiv inkişafı üçün şərait yaratmaq;
- seçilmiş təlim sahəsində bir neçə struktur bölməsinin işini əlaqələndirməklə idarəetməni optimallaşdırmaq;
- struktur bölmələrin səylərinin optimal koordinasiyası və sinergik effektin yaradılması yolu ilə təlim sahəs(lər)ində qarşıya qoyulan məqsədlərə nail olmaqda səmərəliliyi artırmaq.

Departament-ali təhsil müəssisəsi daxilində şöbələr aşağıdakı şərtlərə eyni vaxtda riayət olunmaqla yaradılır:
- ali təhsil müəssisəsi tərkibinə daxil olan kafedralar arasında ümumi (əlaqəli) təlim sahələrinin olması;
- ali təhsil müəssisəsi daxilində çox sayda kafedraların olması;
- ali təhsil müəssisəsinin bir neçə (birdən çox) fakültənin birləşdirilməsi əsasında formalaşması;
- ali təhsil müəssisəsinin departament rəhbərlərinə maliyyə və büdcədənkənar vəsaitlər hesabına mükafatlar verməyə hazır olması.
Departament yarandıqda onun funksiaları universitetin rektor müavininin, kafedraların, dekanlıqların, tədris işinin təşkili şöbəsinin bəzi funksiyalarından formalaşa bilər.
İki növ departamentin yaradılması məqsədəuyğun sayılır:
- təşkilatcı departament;
- idarəetmə departamenti.

Birinci tipli departament ("Təşkilatçı") üçün tədris prosesinin idarə edilməsi funksiyalarının kafedra və dekanlıq səviyyəsində şöbələrin fəaliyyətinin əhəmiyyətli dərəcədə mərkəzləşdirilməsi nəzərdə tutulur. Departamentlər müəyyən bir sahədə təhsil fəaliyyətinin planlaşdırılması, tədris yükünün bölüşdürülməsi, tədris və iş planlarının formalaşdırılması, təhsil proqramlarının və texnologiyalarının işlənib hazırlanması və dəyişdirilməsi üzrə fəaliyyətlərin planlaşdırılması kimi funksiyalara cavabdehdirlər.

İkinci tip departament ("Əlaqələndirici") kafedra səviyyəsində təhsil fəaliyyətinin əsas proseslərinin cəmlənməsini nəzərdə tutur və departament səviyyəsində bütövlükdə istiqamətin inkişafını planlaşdırmaq, təhsil proqramları və texnologiyalarının işlənib hazırlanması və dəyişdirilməsində şöbələrin fəaliyyətini əlaqələndirmək, şöbələrdə təhsilin keyfiyyətinə nəzarət etmək, kontingentlə işləmək funksiyaları həyata keçirir.

-Departament yaradıldıqda, növündən asılı olaraq departamentə aşağıdakı funksiyaları yerinə yetirməyə icazə verilir:
- universitetin strateji inkişaf planının göstəricilərinə uyğun olaraq ərazidə təhsil fəaliyyətinin (o cümlədən kontingent, akademik dərs yükü, maliyyə göstəriciləri, inkişaf proqramı ilə bağlı göstəricilər) planlaşdırılması;

- universitetin elektron məlumat bazasında tədris və iş planlarının formalaşdırılması;
- təhsil nəticələri ilə maraqlanan tərəflərin (işəgötürənlər də daxil olmaqla) ehtiyac və gözləntilərinin təhlilinin aparılması;
- yeni doktorantura və magistratura proqramlarının yaradılmasına dair təkliflərin verilməsi;
- maraqlı tərəflərin müəyyən edilmiş ehtiyaclarını ödəmək üçün təhsil proqramlarının və texnologiyalarının hazırlanması və modifikasiyası üzrə şöbələrin fəaliyyətinin əlaqələndirilməsi (o cümlədən, şöbələr arasında təhsil proqramlarının hazırlanmasında fəaliyyətin əlaqələndirilməsi);
- departamentin tədris məhsullarının təbliği və yeni kadrların işə qəbulu (sahələr üzrə işə qəbula cavabdehdir;
- müxtəlif mülkiyyət formalı müəssisələrə təhsil xidmətlərinin təşviqi və həyata kecirilməsi üçün kanalların formalaşdırılması;
- müqavilə işlərinin təşkili və həyata keçirilməsi:
- abituriyentlər, müəssisələr və digər sifarişçilər ilə müxtəlif səviyyəli və dərəcəli təhsil proqramları üzrə kadr hazırlığı müqavilələri bağlamaq;
- təhsil alan tələbələrlə bağlanmış müqavilələrdən əlavə müqavilələrin bağlanması;
- müqavilə öhdəliklərinin yerinə yetirilməsini təmin etmək üçün fəaliyyət iş;
- tədris-metodiki fəaliyyətə dair hesabatların hazırlanması;
- tələbələrlə tədris işinin təşkili;
- peşəyönümü işi üzrə təşkilati tədbirlərin hazırlanması və həyata keçirilməsi.

Karl Yaspers öz tədqiqatında Klassik Universitet fenomenini təhlil edir, onun aktuallığı, müəllifin fikrincə, kilsənin dünyəviləşməsi, xristian ideologiyasının böhranı, universalist mövqelərinin tənqidi ilə bağlıdır [1]. Klassik Universitetin formalaşması və inkişafı nəticəsində ictimai həyatın müxtəlif sahələrində xristianlığın təsirini azaltmaq mümkün oldu. Klassik Universitetin yaranma və inkişaf dövrü 17-ci əsrin sonu - 18-ci əsrin əvvəlləridir; bu dövr elmi-texniki biliklərin sürətli inkişafı ilə fərqlənmirdi. Məhz universitetin inkişafı sayəsində elmi inqilabın maddi və mənəvi əsasları yaradıldı. 20-ci əsrə qədər Klassik Universitet cəmiyyətin elmi və sosial-iqtisadi inkişafının aparıcı qüvvəsi kimi mövqe tuturdu. K.Jaspers birgə tədqiqatı fundamental "universitet ideyası" kimi müəyyən etmişdir. Universitet təhsilinin əsas prinsipi tələbələrin konkret biliklərə yiyələnməsi deyil, tədqiqatda birgə iştirak vasitəsilə biliyin operativ tədqiqat mədəniyyətinə yiyələnməkdir. Belə bir vəziyyətdə müəllim və tələbə tərəfdaş olur, dialoqda iştirak edir, bu da öz növbəsində gələcək mütəxəssisin şəxsiyyətinin formalaşmasına təsir göstərir.

K.Yaspersin təsvir etdiyi Klassik Universitet ideyası yeni nəslin sosial transformasiyalara diskursiv cəlb olunmasını təmin edir.

Vilhelm fon Humboldta görə universitetin fəaliyyətinin əsas prinsipləri tədqiqat və tədrisin vəhdəti və akademik azadlıqdır [2]. Bu prinsiplər müəyyən kompromisə əsaslanır, yəni akademik azadlıq dövlətin və cəmiyyətin inkişaf vəzifələri üçün məsuliyyəti öz üzərinə götürür.

Q.Mayer öz tədqiqatında müasir klassik universiteti təsvir edir ki, onun

ayrılmaz hissəsi, müəllifin fikrincə, dəqiq, humanitar və təbiət elmləri sahəsində aparıcı elmi-pedaqoji məktəblərdir. Onun düşüncəsinə görə yalnız belə məktəblərin fəaliyyətini təşkil etməklə tədris prosesini yüksək səviyyədə həyata keçirmək mümkündür. Biliklərin yayılması prosesi həm də təhsil-mədəni komponentləri ehtiva edir ki, bu da müasir klassik tipli universitetləri elm, təhsil, maarifləndirmə və mədəniyyət mərkəzi kimi təhlil etməyə imkan verir. Mayer araşdırmasında aşağıdakı nəticələrə gəlir [3]:

1. Klassik universitet telekommunikasiya, yeni informasiya texnologiyalarının yaradılması və təbliği mərkəzinə çevrilir ki, bu da onun informasiya mərkəzi kimi rolunu xeyli artırır. Universitetin texnoloji və elmi-təhsil sferalarında koordinasiya və ekspert mərkəzi kimi fəaliyyətinin təşkili vacibdir ki, bu da onun akademik elmi müəssisələr, tədqiqat qrupları və s. ilə inteqrasiyasını asanlaşdırır.

2. XXI əsrdə klassik universitet müxtəlif elmi sahələrdən resursların və texnologiyaların cəlb edilməsini tələb edən, xüsusən sənaye və regional səviyyədə mürəkkəb problemlərin qoyulmasına və həllinə imkan verən fənlərarası tədqiqat və inkişaf mərkəzi kimi mövqe tutur. Belə bir şəraitdə universitetlər sosial-iqtisadi kontekstdə sabitləşdirmə institutları funksiyalarını da yerinə yetirməklə region formalaşdıran strukturlara çevrilirlər.

3. Universitetlər regional tədqiqat və təhsil sistemlərinin "nüvə"sinə çevrilirlər.

4. Qloballaşma proseslərinin tərkib hissəsi kimi yeni tipli universitetlər də beynəlxalq səviyyədə koordinasiya və əməkdaşlıq mərkəzləri kimi mövqe tutmağa başlayırlar.

Hazırda dəyişən sosial-iqtisadi şəraitdə universitetlərin yeni mövqelərinin axtarışı aparılır, müxtəlif ontoloji əsaslar üzərində yeni tipli universitetlər formalaşır.

Məsələ burasındadır ki, universitetdə dominant mövqe bazarın reallıqlarına yaxından bələd olan biznes rəhbərləri və menecerlər tərəfindən tutulmağa başlayıb, professorlar isə tabe mövqeyə keçiblər; universitetin "elm məbədindən bazar yerinə, ticarət platformasına, iqtisadi "bilik satışı korporasiyasına" çevrilməsi prosesini hər yerdə görünməkdədir [4].

Əhalinin alıcılıq qabiliyyətinin aşağı olduğu ölkələrdə təhsilə yüksək qiymət təyin etməyin mümkünsüzlüyü şəraitində universitetin daha çox tələbə qəbul etməsi vacibdir; Elmi araşdırmalara praktiki olaraq vaxtı qalmayan müəllimlərin dərs yükü artır . Müxtəlif funksiyalarda eyni vaxtda yüksək performans təmin edə bilməyən universitetlərin əksəriyyəti ixtisaslaşır.

Universitetlərin müxtəlifliyi "növlər" və ya "modellər" vasitəsilə təsvir edilir. "Növ" termini universitetin təbii şəkildə formalaşmış spesifik obrazını nəzərdə tutur. Universitetlərin müxtəlifliyini tarixdə təbii olaraq yaranmış və təsnifata uyğun olaraq qəbul edən təhsil tarixi alimləri tərəfindən istifadə olunur. "Model" termini universitetin özünəməxsus şəkildə yaradılmış (təşkilati və idarəetmə səyləri ilə) xüsusiyyətə aiddir. Bir universitetin inkişafını idarə edərkən hədəf obrazı kimi seçilən "model" menecerlər tərəfindən istifadə olunur. Universitetlər təbii-süni yaradılmış strukturlar olduğundan (onlar tarixdə, onilliklər, bəzən də əsrlər boyu formalaşır; lakin eyni zamanda öz

rəhbərləri və dövlət tərəfindən formalaşdırılır), onda hər iki termin qanunauyğundur və konkret universitetin hansısa tipə və ya modelə aid olmasından danışmaq olar. Bu araşdırmada aşağıdakı universitet modelləri müzakirə olunur:

1. Klassik universitet.
2. Sahibkarlıq universiteti.
3. Universitet – "kadrlar hazırlayan".
4. Tədqiqat universiteti – "düşüncə fəaliyyəti".
5. Korporativ universitet.
6. Şəbəkə universiteti.
7. Virtual universitet.

Bir qayda olaraq, universitet dedikdə, digər ali təhsil müəssisələri arasında ən yüksək səviyyədə təhsil verən klassik universitet nəzərdə tutulur. Tədqiqatda, klassik universitet modelinə uyğun gəlməyən digər universitetlər də çox vaxt qeyri-mükəmməl imitasiya (məsələn, pedaqoji, texniki və digər institutlar) və ya yalnız metaforik mənada universitetlər kimi ("distant təhsili təmin edən açıq" universitetlər) nəzərə alınır. Avropa və ABŞ-da əsrlər boyu mövcud olan Bolonya, Oksford, Kembric, Salamanka kimi ən qədim universitetlər bu tip üçün nümunədir. Ali təhsil müəssisələrinin bu sinfi yüksək səviyyəli, elm və təhsilin inteqrasiyası ilə seçilir[5].

Klassik universitet modelinin bir neçə milli variantı var[6].

Elmi və təhsil fəaliyyətinin universitet həyatının ayrılmaz şəkildə əlaqəli komponentləri olduğu Alman modeli ("Humboldt") tədqiqat universiteti; tələbələr qabaqcıl elmə daxil olmaqla tədqiqat fəaliyyətlərində təcrübə qazanırlar;

internat universitetinin Britaniya modeli (tələbə və ona həvalə edilmiş repetitor arasında fərdi dərslər formasında tələbələr və müəllimlər arasında sıx ünsiyyətə əsaslanan Oksbridge modeli);

"böyük məktəblər"in fransız modeli (özünü idarəedici elit kimi təsdiqləyən meritokratik icmanın xüsusi atmosferinə malik kasta universitetləri);

Çikaqo modeli (universitet kursu açıq humanitar fokusla ümumi təhsil proqramına əsaslanır).

Klassik universitet müasir multidissiplinar təhsil verir [7]. Texniki, kommersiya, tibb və ya kənd təsərrüfatı universitetlərindən fərqli olaraq, universitet təhsil və elmi tədqiqatların geniş sahələrini (təbii, "dəqiq", sosial, humanitar elmlər) əhatə edən bölmələri (institutlar, fakültələr, şöbələr və s.) ehtiva edir. Universitet ənənəvi olaraq elmi məktəblərin ənənələrini cəmləşdirən və diqqətlə qoruyan, eyni zamanda elmi biliklərin müxtəlif sahələrinin (təbii, texniki və humanitar sahələr) yenilənməsində əsas rol oynayan elmin qalası hesab olunur.

Avrasiya Universitetlər Assosiasiyasının ekspert qrupunun fikrincə, klassik universitetlərin ən mühüm xüsusiyyətləri yüksək səviyyəli mütəxəssis hazırlığı, tələbələrin təbiətşünaslıq və humanitar fənlərin optimal kombinasiyası ilə müxtəlif elm sahələri üzrə əsas biliklər əldə etmək bacarığı, mənəvi və mədəni dəyərləri formalaşdırmaq və yaymaq bacarığı, elmi işdə fundamental tədqiqatların üstünlük təşkil etməsidir. Bu xüsusiyyətlər klassik universitetlərin

xüsusi rolundan danışmağa imkan verir. Həqiqətən də, hazırda ən mühüm texniki və texnoloji problemlərin həlli, bir qayda olaraq, elmlərin qovşağında baş verir və fundamental tədqiqatlara əsaslanır. İqtisadiyyatın mülki sektorunda texnika və texnologiyanın inkişafı, yeni nəsil silahların yaradılması, əhalinin həyatının, ekoloji və texnoloji təhlükəsizliyin təmin edilməsi üçün yeni həll yollarının axtarışı və digər kritik əhəmiyyətli inkişaflar ali təhsilli mütəxəssislər olmadan mümkün deyil.

Klassik universitetlər dövlətdə və cəmiyyətdə baş verən proseslərə təkcə məzunları vasitəsilə deyil, həm də sosial-iqtisadi sferanın bütün sahələri üzrə müxtəlif tətbiqi və eksperimental konstruktor işlərinin əsasını təşkil edən fundamental elmi tədqiqatların nəticələri ilə təsir göstərir.

Universitetlərdə, bir qayda olaraq, digər ali təhsil müəssisələrinə nisbətən daha yüksək ixtisaslı müəllimlər çalışır. Bu, universitetlərə yeni ixtisaslar və istiqamətlər üzrə kadr hazırlığı açmağa, tələbələrin ikinci, əlavə ixtisas əldə etmələrinə şərait yaratmağa imkan verir. Klassik universitetlərin intellektual potensialı onlara təhsilin məzmununda və texnologiyalarında müxtəlif dəyişikliklərin, xüsusən də fundamental hazırlığın gücləndirilməsi, fənlərarası biliklərin ötürülməsi, tədris prosesində elmi tədqiqat texnologiyalarından fəal istifadə kimi sınaq meydançası olmağa imkan verir. Universitetlər ali təhsilin məzmun və metodlarında innovasiyaların episentri olmağa, sonra bütün ali təhsil müəssisələrinə yayılan "dəyişiklik dalğaları"na təşəbbüs göstərməyə çağırılır. Klassik universitetlər aspirantura və doktorantura yolu ilə yüksək ixtisaslı kadrların genişmiqyaslı hazırlanması ilə xarakterizə olunur. Universitetlər təhsil sistemi üçün yeni səviyyəli magistrlərin - mütəxəssislərin buraxılışını həyata kecirir.

Bir çox universitetlər yenidənhazırlanma və ixtisasartırma sistemləri yaradır, digər müəssisələrlə sıx əlaqələr qurur. Beləliklə, fasiləsiz təhsil, ömür boyu təhsil sisteminin özəyinə çevrilən klassik universitetlərdir. Klassik universitetlərin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, onların məzunları istisnasız olaraq bütün fəaliyyət sahələrində çalışırlar: iqtisadiyyat, elm, təhsil, idarəetmə, mədəniyyət. Məhz klassik universitetlər ali təhsil sistemi üçün xüsusilə humanitar, təbiət elmləri və dəqiq elmlər sahələri üzrə müəllim kadrları hazırlamağa peşəkar yanaşır. Klassik ali məktəblərdə təhsil prosesinin fundamental və tətbiqi elmi tədqiqatlarla inteqrasiyası əsasında yerli təhsilin, elmin, texnologiyanın və yüksək texnologiyalı məhsulların istehsalının prioritet inkişaf istiqamətlərini təmin etmək üçün kadrların təkmilləşməsini həyata keçirmək mümkündür. Beləliklə, klassik universitetlər ali təhsil müəssisələrinin xüsusi qrupudur ki, ali təhsilin istənilən islahatları zamanı öz spesifikliyini qoruyub saxlamalıdır.

Sahibkarlıq universitetləri universitetin xüsusi növü və ya modeli kimi kifayət qədər inert və müasir dünyanın çağırışlarına tam cavab verməyən klassik universitetlərə qarşı çıxmışlar. Bu o demək deyil ki, klassik universitetlər sahibkarlıq universitetləri ilə əvəz olunur – bu tiplərin hər biri müasir dünyada özünəməxsus "nüfuz" tapır. Sahibkarlıq universitetləri müasir ali təhsilin dinamik inkişaf edən strukturlarından biridir.

Hər dəfə universitetin transformasiyası onun məqsəd və ideologiyasına,

tədris prosesinin istiqamətlərinə və məzmununa, professor-müəllim heyətinin fəaliyyətinin xarakterinə, universitet korporasiyasının xarakterinə təsir göstərir.

Sahibkarlıq universitetləri müasir ali təhsilin dinamik inkişaf edən strukturlarından biridir. Bir sıra Avropa, Amerika və inkişaf etmiş ölkələrin universitetləri təhsil fəaliyyətinin və elmi tədqiqatların yüksək səviyyədə kommersiyalaşdırılması və sahibkarlıq iş tərzi ilə seçilən uğurlu mövqe tuturlar [8]. Sahibkarlıq üç zəruri elementdən ibarətdir: təşkilati fəaliyyət; dəyişiklərə başlanması; pul gəliri uğurun məqsədi və meyarı kimi.

Universitetlə əlaqədar "sahibkarlıq təşkilatı" dedikdə:

1) öz fəaliyyətini məqsədyönlü innovasiyaya əsaslandıran, risk və dinamik tələbat şəraitində fəaliyyət göstərə bilən təşkilat;
2) gəlirli fəaliyyətlə məşğul olan və ilk növbədə öz imkanlarına arxalanan iqtisadi cəhətdən səmərəli təşkilat;
3) çevik şəbəkə strukturuna malik liberal təşkilat;
4) müvəffəqiyyətin əsas amillərinin insanlar, qruplar və onların səriştəsi olduğu, insanların işinin fayda və risk balansına əsaslandığı təşkilat;
5) menecerləri işçilərin hərəkətlərini planlaşdırmağa və onlara nəzarət etməyə deyil, təşkilatın strategiyası çərçivəsində fəaliyyətlərinə hər cür dəstəyi təmin etməyə üstünlük verən bir təşkilatdır ki, bu məqsədlə menecerlər hüquq və vəzifələri mümkün qədər icraçılara həvalə edir;
6) istehlakçıya, ehtiyaclarındakı dəyişikliklərə operativ və çevik reaksiya verən bir təşkilat.

P. Schulte [9] qrupunun ekspertlərinin fikrincə, sahibkarlıq universitetinin iki əsas məqsədi var:

- sahibkarlığa yönəlmiş təhsil proqramları təklif etməklə öz biznesini qurmaq istəyən insanlara təhsil vermək;
- biznes inkubatorlar, texnoparklar və s. təşkil etməklə sahibkarlıq institutu kimi fəaliyyət göstərmək, tələbələri və məzunları bu fəaliyyətə cəlb etmək, onlara öz şirkətlərini yaratmağa kömək etmək.

Belə ki, sahibkarlıq universiteti təkcə biznes sahəsində və ona aid olan sahələr üzrə təlim və tədqiqat işləri aparmır, həm də öz sahibkarlıq fəaliyyətini həyata keçirir ki, bunun da nəticəsində onun fəaliyyətinin maliyyə bazası iri korporasiyaların, dövlətin investisiyalarından, həmçinin gəlirlərdən ibarətdir. Yüksək şaxələndirilmiş maliyyə mənbələrinə irimiqyaslı layihələrin, o cümlədən beynəlxalq layihələrin həyata keçirilməsi, innovativ texnoloji məhsulların yaradılması və tətbiqi, sınaq və kiçik istehsal, məsləhət xidmətləri, sosial və mədəni xidmətlər daxildir. Sahibkarlıq universiteti hələ biznes tərəfindən araşdırılmamış sahələrdə sahibkarlıq layihələrinin təşəbbüskarı olmaqla, digər qurum və şirkətlərlə əməkdaşlıq edərək regional, milli və qlobal səviyyədə sosial-mədəni və iqtisadi inkişafa böyük töhfə verir.

İ.M.Qaynutdinovanın fikrincə, sahibkarlıq universiteti təkcə biznes və digər sosial-iqtisadi sahələr üzrə kadr hazırlığı və tədqiqat işləri aparmır, həm də universitetlərə iri korporasiyalardan, hökumətdən iri maliyyə

investisiyalarının cəlb edilməsinə və universitetin öz sahibkarlıq fəaliyyətindən gəlir əldə etməsinə kömək edir [10].

Sahibkarlıq universitetinin təşkilati xüsusiyyəti onun sahibkarlıq xarakterli innovativ fəaliyyətə yönəlmiş aktiv və təşəbbüskar siyasətidir ki, bu da strukturun yenidən qurulması yollarının axtarışında, universitetin öz fəaliyyətindən əldə etdiyi gəlirin artırılmasında, bazarda mühüm oyunçu olmaq cəhdində, öz qaydalarına uyğun olaraq biznesin aparılmasında ifadə olunur [11].

Mütəxəssislərin fikrincə, sahibkarlıq universitetinin innovativ modelinin elementləri arasında ən universalı bunlardır:

- idarəetmə fəaliyyətinin gücləndirilməsi,
- periferiyanın genişləndirilməsi və inkişafı,
- maliyyə mənbələrinin şaxələndirilməsi,
- akademik şöbələrin stimullaşdırılması və inteqrasiya olunmuş sahibkarlıq mədəniyyətinin inkişafı.

Sahibkarlıq universiteti, hər hansı bir kommersiya müəssisəsi kimi, işçiləri arasında təşkilatın strateji siyasətinin bir hissəsi kimi dəyişikliklərin qəbulunu nəzərdə tutan müəyyən korporativ mədəniyyəti inkişaf etdirməyə çalışır. Belə bir mədəni perspektivin tətbiqi ilə universitet həyatının simvolik tərəfi, eləcə də institusional kimlik və işgüzar nüfuzu dəyəli əhəmiyyət kəsb edir.

Sahibkarlıq universiteti eyni anda bir neçə istiqamətdə fəaliyyət göstərir:

- təhsil xidmətləri,
- elmi araşdırmalar,
- beynəlxalq təhsil layihələri.

Amerikalı tədqiqatçılar H.Torp və B.Qoldşteynə görə, sahibkarlıq universiteti [12]:

1) tələbələrə öz bizneslərini necə qurmağı və idarə etməyi öyrədən peşə məktəbi deyil. Bu, aparıcı tədqiqat universitetlərinin vəzifəsi deyil;
2) kommersiya təşkilatının bilavasitə analoqu deyil, bir əsrlik tarixə və formalaşmış korporativ mədəniyyətə malik unikal təhsil icmasıdır ki, bu da öz növbəsində universitetin sahibkarlıq ruhunun hərəkətverici qüvvəsidir;
3) yeni şirkətlər yaratmaq üçün sadəcə montaj xətti (konveyer) deyil. Mürəkkəb problemlərin həllinə yönəlmiş prioritet tədqiqatlar çox vaxt yüksək gəlirli müəssisələrin yaradılmasına gətirib çıxarır. Bununla belə, gündəlik işlərin çoxu akademik dairələrdə deyil, startapların gündəlik yaradılması üçün daha əlverişli olan sahibkarlıq mədəniyyətinə malik innovasiya mərkəzlərində baş verir;
4) ölkənin iqtisadi inkişafını idarə edən orqan deyil, çünki universitet əməkdaşlarının hamısı yeni müəssisələrin, texnoloji mərkəzlərin yaradılmasında və ya mövcud zərərlə işləyən müəssisələrin yeindən formalaşdırılması sahəsində mütəxəssis deyillər. Demək olmaz ki, universitetlərdə yaradılan və yeni müəssisələrin yaradılmasında və ya mövcud müəssisələrin strukturunun yenidən qurulmasında tətbiq edilən yeniliklər (xüsusilə dövlət-özəl tərəfdaşlıq formasında) iqtisadi inkişafa töhfə vermir. İqtisadi inkişaf- sahibkarlıq universitetinin uğurlu fəaliyyətinin əlavə məhsuludur. Belə ki, geniş mənada

universitet çoxillik ənənələrindən və korporativ mədəniyyətindən əl çəkərək sahibkarlıq qurumuna çevrilmir.

Digər amerikalı tədqiqatçı C. Ropkeyə görə, sahibkarlıq universiteti aşağıdakı tələblərə cavab verir:

- təşkilat kimi sahibkarlıq davranışı nümayiş etdirməlidir;
- müəllimlər, tələbələr və universitet işçiləri sahibkar olmalıdırlar;
- universitet və ətraf mühit arasında qarşılıqlı əlaqə universitet və regionun "struktur birləşməsinə" səbəb olmalıdır [13].

Universitetin beyin mərkəzi formatına keçid strategiyasını həyata keçirilməsində ilk addım inkişaf üçün yeni istiqamətin formalaşdırılmasıdır. Belə bir formulaya keçid, ya hökumət strukturlarının əmri ilə, ya da hansısa sahədəki vəziyyətlə bağlı narazılıqla müəyyən edilə bilər. Problemi strukturlaşdırmaq və onun inkişaf üsullarını müəyyən etmək üçün Rusiyada dar bir ekspert dairəsi üçün bir neçə giriş seminarları keçirilir. Bundan sonra öz vəsaiti hesabına maliyyələşdirilən İşçi Qrup formalaşır. İşçi qrupu nəticələrə əsasən geniş müzakirə üçün, o cümlədən müxtəlif dövlət strukturlarına "təqdim edilən" hesabat hazırlayır. Sifarişçi müəyyən edilir – yəni islahatı "təbliğ etmək" kimi siyasi vəzifəni öz üzərinə götürməyə hazır olan hakimiyyət tərəfdaşı.

İkinci mərhələ - sifarişçi (müştəri) ilə işləməkdir. Beləliklə, islahat rəsmi forma alır və bürokratik formada həyata keçirilir. Beləliklə, bir tərəfdən hadisələrin analitik dəstəyi üçün sifarişlər qəbul edilir, digər tərəfdən isə islahatdan kənara çıxmaların və mümkün inzibati çıxılmaz nöqtələrin erkən müəyyən edilməsi məqsədi ilə problemin hərtərəfli monitorinqi davam etdirilir.

Üçüncü mərhələ - inkişafın "sifarişçiləri" - universitetin tərəfdaşları dairəsini genişləndirir. İslahat irəlilədikcə, adətən nəzərə alınmayan problemlər ortaya çıxır və vətəndaş cəmiyyətinin həmin elementləri və ya onları təmsil edən hakimiyyət orqanları ilə rezonans yaranır. Bu zaman universitet müxtəlif intellektual, güclü və sosial qrupların ünsiyyətçisi kimi çıxış edir. Bu "yetkin" mərhələdə universitet həm "akademik" bloku, həm də əlavə təhsil bloku üçün möhkəm intellektual əlavə alır. Belə ki, universitetin kafedraları fasiləsiz rejimdə çalışaraq çoxsaylı tədqiqatların nəticələrini təbliğ edir, müxtəlif layihələr üzrə hesabatlar təqdim edir, dövlət siyasətinin bir sıra əsas istiqamətləri üzrə intellektual dizaynı təmin edir. Qeyd olunan bütün hallarda bölmələr yeni ideyaların, təkliflərin, həllərin və ssenarilərin yarandığı, müzakirə edildiyi və sınaqdan keçirildiyi eksperimental və tətbiqi platformalardır. Nəticədə, layihə sənədləri səlahiyyətli orqanlara ünvanlanmış, müəyyən dövlət qurumları tərəfindən qəbul edilən və ya rədd edilən, diqqətlə hazırlanmış tövsiyələrlə ortaya çıxır.

Tədqiqat universitetlərinin təşkilinin xüsusiyyətlərindən bəzi ekspertlərin əsərlərində də bəhs edilir [14-15].

Yüksək keyfiyyətli tədqiqat universitetlərinin ən uğurlu tərifini və onları uğurlu edən əsasları və şərtləri başa düşməyin açarını axtarmaq üçün bir sıra ekspertlərin gəldiyi nəticələrə [16]-da baxmaq olar.

Ədəbiyyat

1. Ясперс К. Идея университета / пер. с нем. Т. В. Тягуновой; ред. перевода О.Н. Шпарага ; под общ. ред. М.А. Гусаковского. – Минск : БГУ, 2006. – 159 с.
2. Шнедельбах Г. Университет Гумбольдта // Логос 5-6 (35), 2002.
3. Майер В.Г. Классические университеты: современность и перспективы /Майер В.Г., Бабанский М.Д. //Университетское управление: практика и анализ.-2002.-№ 2.-С.20-21.
4. Покровский Н.Е. Побочный продукт глобализации: университеты перед лицом глобальных изменений // Общественные науки и современность. 2005. №4. С.148-154
5. Прокопьев В.П. О признаках классического университета // Университетское управление: практика и анализ. 2000. № 2 (13)
6. Строгецкая Е.В. В поисках модели современного // Высшее образование сегодня. – 2009. - № 3. – С. 15-17
7. Горохов П.А. На передовой строительства страны должен находиться классический российский университет / «Оренбургский университет». – 2005. - № 3.
8. Шкуратов С.Е. Развитие университета как предпринимательской организации. [Электронный ресурс] URL: http://viperson.ru/wind.php?ID=425641
9. Schulte, P. The Entrepreneurial University: a Strategy for Institutional Development / P. Schulte // Higher Education in Europe. - 2004. - Vol. 29. - No 2. - p. 187-193.
10. Гайнутдинова И.М. Модели управления высшей школой в условиях глобализации и международной интеграции: предпринимательский университет / Вестник Военного университета. 2010. № 1 (21). С. 21 – 25.
11. Clark B.R. Creating Entrepreneurial Universities: Organizational Pathways of Transformation. N. Y. : Pergamon Press, 1998.
12. Thorp H., Goldstein B. The Entrepreneurial University // http:// www. insidehighered. com/ views/2010/09/27/thorp
13. Ropke J. The Entrepreneurial University: Innovation, academic knowledge creation and regional development in a globalized economy. N.Y., 1998.
14. Кузьминов Я. Центры мозговых атак? Атакуйте! // Со-Общение, 2002, №10.
15. Материалы выступления А.Волкова на семинаре НИУ ВШЭ, ноябрь 2012 г., URL: www.strf.ru
16. Дорога к академическому совершенству. Становление исследовательских университетов мирового класса : пер. с англ. / под ред. Ф.Дж. Альтбаха, Дж. Салми. – Москва : Весь мир, 2012. – 382 с.

Məqalənin redaksiyaya daxilolma tarixi: 16.09.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.09.2025
Məqalənin çapa qəbul olunma tarixi: 25.09.2025

DOI: doi.org/10.61226/12.2.2023/20253.11
UOT: 930.85:338.48:379.85
Mikayıl MUSTAFAYEV
tarix üzrə fəlsəfə doktoru, dosent,
AMEA Arxeologiya və Antropologiya İnstitutunun
"Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması" şöbəsinin müdiri
mustafayev_info@yahoo.com
https://orcid.org/0000-0001-8462-9495

ASTARA RAYONUNUN TURİZM POTENSİALININ ARTIRILMASI ÜÇÜN ABİDƏLƏRİN QORUNMASI, BƏRPASI VƏ TƏBLİĞATI

Xülasə: Məqalədə Astara rayonunun Alaşa kəndində yerləşən Əlişa qalasının tarixi, arxeoloji və mədəni əhəmiyyəti, həmçinin onun regional turizm potensialına təsiri elmi əsaslarla təhlil olunur. 2023–2025-ci illərdə aparılan arxeoloji qazıntılar nəticəsində qalada dörd bürc, sitadel hissəsi, inkişaf etmiş kanalizasiya sistemi, lotusvari hovuz kompleksi, 8 metrlik su borusu və XII–XIV əsrlərə aid saxsı və memarlıq tapıntıları aşkar edilmişdir. Tapılan lotus formalı hovuzun Yaxın Şərq və Hindistan memarlığına bənzərliyi onun nadir memarlıq nümunəsi kimi dəyərləndirilməsinə səbəb olmuşdur.

Astara rayonunun dağlıq-düzənlik relyefi, Xəzər sahili boyunca yerləşməsi, subtropik iqlimi, termal bulaqları və Hirkan Milli Parkı kimi ekosistem resursları bölgənin ekoturizm və mədəni turizm sahəsində geniş imkanlara malik olduğunu göstərir. Eyni zamanda, Əlişa toponiminin etimoloji araşdırmaları onun ümumtürk toponimik sistemində tutduğu yer və Qazaxıstanla tarixi-etnoqrafik bağlılıqlarını ortaya qoyur.

Məqalədə turizmin davamlı inkişafı üçün yolların təmiri, infrastrukturun gücləndirilməsi, müasir qonaqlama obyektlərinin yaradılması, yerli əhalinin maarifləndirilməsi və turizm fəaliyyətinə cəlb olunması kimi kompleks tədbirlərin vacibliyi vurğulanır. Əlişa qalasının beynəlxalq sərgilərdə təqdim edilməsi, sosial mediada aktiv tanıtımı və turizm marşrutlarına daxil edilməsi həm mədəni irsin qorunması, həm də regionun sosial-iqtisadi inkişafı üçün strateji addım kimi təqdim olunur.

Açar sözlər: Astara, Əlişa qalası, xalq yaddaşı, arxeoloji irs, etnoqrafiya, tarixi abidə, turizm

Mikail MUSTAFAYEV

PRESERVATION, RESTORATION, AND PROMOTION OF MONUMENTS FOR ENHANCING THE TOURISM POTENTIAL OF THE ASTARA REGION

Abstract: The article provides a scholarly analysis of the historical, archaeological, and cultural significance of the Alisha Fortress located in the village of Alasha in the Astara region, as well as its impact on regional tourism potential. Archaeological excavations conducted between 2023 and 2025 revealed four towers, a citadel section, an advanced sewage system, a lotus-shaped pool complex, an 8-meter-long water pipe, and ceramic and architectural findings dating back to the 12th–14th centuries. The discovered lotus-shaped pool, resembling Middle Eastern and Indian architecture, has led to its recognition as a unique architectural example.

The mountainous-plain topography of Astara, its location along the Caspian Sea, subtropical climate, thermal springs, and ecological resources such as the Hirkan National Park demonstrate the region's vast potential in eco-tourism and cultural tourism. Additionally, the etymological study of the toponym "Alisha" reveals its place within the pan-Turkic toponymic system and its historical and ethnographic links with Kazakhstan.

The article emphasizes the necessity of comprehensive measures for sustainable tourism development, including road rehabilitation, infrastructure enhancement, establishment of modern accommodation facilities, public awareness-raising, and local community involvement in tourism activities. The presentation of the Alisha Fortress at international exhibitions, its active promotion on social media, and its inclusion in tourism routes are presented as strategic steps for both the preservation of cultural heritage and the socio-economic development of the region.

Keywords: Astara, Alisha Fortress, collective memory, archaeological heritage, ethnography, historical monument, tourism

Микаил МУСТАФАЕВ

СОХРАНЕНИЕ, ВОССТАНОВЛЕНИЕ И ПОПУЛЯРИЗАЦИЯ ПАМЯТНИКОВ ДЛЯ ПОВЫШЕНИЯ ТУРИСТИЧЕСКОГО ПОТЕНЦИАЛА АСТАРИНСКОГО РАЙОНА

Абстракт: В статье проводится научный анализ исторического, археологического и культурного значения крепости Алиша, расположенной в селе Алаша Астаринского района, а также её влияния на региональный туристический потенциал. В результате археологических раскопок, проведённых в 2023–2025 годах, в крепости были обнаружены четыре башни, цитадельная часть, развитая канализационная система, комплекс бассейнов в форме лотоса, водопроводная труба длиной 8 метров, а также керамические и архитектурные находки, датируемые XII–XIV веками. Найденный бассейн в форме лотоса, схожий с архитектурой Ближнего Востока и Индии, признан уникальным образцом архитектурного наследия.

Горная и равнинная местность Астаринского района, его расположение вдоль побережья Каспийского моря, субтропический климат, термальные

источники и такие природные ресурсы, как Гирканский национальный парк, свидетельствуют о широких возможностях региона в сфере экотуризма и культурного туризма. Кроме того, этимологическое исследование топонима «Алиша» выявляет его принадлежность к обще тюркской топонимической системе и историко-этнографические связи с Казахстаном.

В статье подчёркивается важность комплексных мер для устойчивого развития туризма: ремонт дорог, укрепление инфраструктуры, создание современных объектов размещения, просвещение местного населения и его привлечение к туристической деятельности. Представление крепости Элиша на международных выставках, её активное продвижение в социальных сетях и включение в туристические маршруты рассматриваются как стратегические шаги по сохранению культурного наследия и социально-экономическому развитию региона.

Ключевые слова: Астара, крепость Алиша, народная память, археологическое наследие, этнография, исторический памятник, туризм,

Giriş

Azərbaycan Respublikasında yerləşən çoxsaylı tarix və mədəniyyət abidələri dövlət tərəfindən qorunur. Ölkəmizdəki 6308 daşınmaz tarix və mədəniyyət abidəsi dövlət mühafizəsindədir. Bunlardan 82-si dünya, 2059-u ölkə və 4167-si yerli əhəmiyyətli abidələrdir. Bu sahədə Nazirlər Kabineti 2 avqust 2001-ci il tarixli №132 qərarı ilə dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix-mədəniyyət abidələrinin yeni siyahısını təsdiq etmişdir. Son illərdə aparılmış monitorinqlər nəticəsində əvvəlki siyahılara daxil edilməyən 1400-dən çox tarix, memarlıq və arxeoloji əlamət daşıyan obyekt müəyyən edilib və yeni aşkar olunan tarix-mədəniyyət abidələri kimi qeydə alınmışdır [4].

Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində ölkəmizin qədim tarixə və zəngin mədəni irsə sahib olduğu təsdiqlənmişdir. Məsələn, Qax rayonunda Torpaqqala, Qazax rayonunda Baba-Dərviş, Fizuli rayonunda Azıx Mağarası, Naxçıvanda Gəmi Qaya, Bakıda isə Qobustan abidələri və s. ölkənin zəngin tarixi və mədəni irsini nümayiş etdirir. Bu abidələr, həmçinin Azərbaycanın turizm potensialının artırılmasına mühüm töhfə verir.

UNESCO və İSESCO ilə Əməkdaşlıq

Yuxarıda qeyd olunan dünya əhəmiyyətli abidələrin bir qismi UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. UNESCO 1945-ci ilin noyabrında Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu kimi 37 dövlətin nizamnaməni imzalaması ilə təsis edilmişdir. Təşkilatın əsas məqsədi irq, cins, din və dil fərqlərindən asılı olmayaraq xalqlar arasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığı təşviq etməklə beynəlxalq sülh və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verməkdir. 1972-ci ildə UNESCO tərəfindən "Ümumdünya Mədəni və Təbii İrsin Qorunması" haqqında Konvensiya qəbul edilmişdir [2, s.8].

Eyni zamanda, 1979-cu ildə İslam dünyasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın inkişafını dəstəkləmək məqsədilə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı – İSESCO yaradılmışdır. Azərbaycan Respublikası 1991-ci ildən İSESCO-nun üzvüdür. 1991-ci ildə qurulan qarşılıqlı münasibətlər uğurla

inkişaf etmiş və bu əlaqələr 24 noyabr 2006-cı ildə ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İSESCO-nun xoşməramlı səfiri statusunun verilməsi ilə yeni mərhələyə qədəm qoymuşdur. Hal-hazırda İSESCO-nun beynəlxalq nüfuzu durmadan artır və Azərbaycan bu təşkilatla sıx əməkdaşlıq edərək dünya miqyasında mədəni irsin qorunması və təşviqi istiqamətində mühüm təşəbbüslərlə çıxış edir [8].

AMEA-nın Arxeoloji Abidələrin qeydiyyatı və Pasportlaşdırılması Şöbəsi

1993-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Antropologiya (o dövrdə Arxeologiya və Etnoqrafiya) İnstitutunda abidələrin mühafizəsi ilə bağlı "Arxeoloji abidələrin toplusu" adı altında şöbə yaradılmışdır. 2024-cü ilin may ayında şöbənin adı "Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması" kimi dəyişdirilmişdir. Şöbənin fəaliyyətinin nəticəsi olaraq, bir çox yeni aşkar olunmuş abidələrin GPS koordinatları təyin edilmiş və pasportlaşdırılmışdır. Xüsusilə, Azərbaycanın cənub-şərq bölgələrində arxeoloji abidələrin dövlət mühafizəsinə götürülməsi üçün obyektlərin siyahıya alınması və mədəni irsin qorunması istiqamətində rəy bildirilməsi kimi işlər görülmüşdür. Bu dəyişikliklər nəticəsində, yeni aşkar edilmiş abidələrin GPS koordinatlarının təyin edilməsi və pasportlaşdırılması kimi fəaliyyətlər həyata keçirilmişdir. Azərbaycanın cənub-şərq bölgələrində arxeoloji abidələrin dövlət mühafizəsinə götürülməsi üçün obyektlərin siyahıya alınması və mədəni irsin qorunması istiqamətində rəy bildirilməsi işləri görülmüşdür. AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması" şöbəsinin əməkdaşları 15 iyul 2023-cü il tarixində Azərbaycanın cənub-şərq bölgəsində abidələrin qeydiyyata alınması ilə bağlı baxış keçirərək, Astaranın Alaşa kəndində yerləşən Əlişa qalasını aşkar etmişdir [6] (şək.1). Bu arxeoloji kəşf təkcə tarixi baxımdan deyil, həm də coğrafi və ekoloji baxımdan diqqətəlayiq olan Astara rayonunun turizm potensialını ön plana çıxarır.

Astara rayonu Azərbaycanın cənubunda yerləşir və təbii-coğrafi müxtəlifliyi ilə seçilir. Ərazi dağlıq və düzənlik relyefə malikdir; qərbdə Talış silsilələri, şimal-şərqdə isə Lənkəran ovalığı ilə əhatələnir. Rayonun Xəzər dənizi sahilində yerləşməsi və Talış dağlarının sıx meşə örtüyü onun ekosistem zənginliyini artırır. Mülayim subtropik iqlimi ilə seçilən bölgədə yanvar ayında orta temperatur -1,5°C ilə 4°C, iyulda isə 15–25°C arasında dəyişir. Astarada Yanar bulaq və İstisu kimi mineral mənbələr mövcuddur ki, bunlar həm sağlamlıq turizmi, həm də ekoturizm üçün əlverişli şərait yaradır. Rayonun 25,3%-i meşələrlə örtülmüşdür və nadir flora-fauna elementlərinə ev sahibliyi edir. Xüsusilə Hirkan Milli Parkı relikt bitkilərlə zəngin olması ilə turistlər üçün əhəmiyyətli məkandır [1].

Astara rayonu, həmçinin zəngin tarixi-mədəni irsə sahib olan bir bölgədir. Rayon ərazisində 400-dən çox tarixi və memarlıq abidəsi mövcuddur. Bu abidələr arasında Astara-Nəmin yolunun kənarı, Şindan dağında yerləşən VII əsrə aid olan Şindan qalası, Nudis kəndindəki qədim qala, Pensər kəndindəki Məşədi Abutalıb hamamı, Hacı Teymur və Hacı Cahanbaxış məscidləri, Şahağac kəndindəki türbə və Ərçivan kəndindəki Kərbəlayi Həmid Abdulla hamamı kimi nümunələr diqqət çəkir. Ərçivan kəndində kükürdlə zəngin bulaqlar mövcuddur ki, bu da turistlər üçün maraqlı məkanlardan biridir. Qapıçıməhəllə kəndində Daş və Tunc dövrlərinə aid daş abidələr, Sipiyəpart, Seləkəran, Lomin və Pəlikəş kəndlərində

VIII əsrə aid körpü qalıqları da turistik baxımdan əhəmiyyətlidir.

Astara rayonunda son orta əsrlərə aid Ləmləri (yay evi) ilə məşhurdur. Ləm, əsasən təbii materiallardan – daş, ağac və samanla tikilən müvəqqəti yaşayış evləridir. Bu evlər, yerli əhalinin yay aylarında heyvandarlıq və kənd təsərrüfatı ilə məşğul olduqları dövrdə istifadə olunur. Ləmlər, bölgənin ənənəvi memarlığını və həyat tərzini əks etdirən mühüm mədəni irs nümunələri kimi diqqət çəkir [9, s.199—221]

Əlişa Qalasının Bərpası və Turizm Potensialı

Astara rayonunun Alaşa kəndində yerləşən Əlişa qalasının tarixi və mədəni dəyəri nəzərə alınaraq, onun bərpası və qorunması vacib məsələlərdən biri kimi gündəmə gəlmişdir. Əlişa qalası, Astara rayonunun Alaşa kəndində yerləşən və zəngin tarixi ilə diqqət çəkən mühüm bir abidədir. 2023-cü ilin iyul ayında, Astara arxeoloji ekspedisiyasının apardığı arxeoloji qazıntılar nəticəsində qalanın dörd bürcdən ibarət olduğu müəyyən edilmişdir. Bu bürclərdən ikisi tamamilə dağılmış, digərləri isə qismən dağılmış vəziyyətdədir. Qalanın sitadel hissəsi isə yaxşı vəziyyətdə qorunub saxlanılmışdır.

Qazıntılar zamanı çoxsayda saxsı qab nümunələri, o cümlədən şirli və şirsiz qab qırıqları, kaşılar və s. aşkar olunmuşdur. Xüsusilə diqqət çəkən tapıntılardan biri də kanalizasiya xəttidir. Bu, qalanın inkişaf etmiş su təchizatı və kanalizasiya sisteminə malik olduğunu göstərir.

Bundan əlavə, IV əsrə aid saxsı qab parçaları və üzərində şir başı təsviri olan daş parçası tapılmışdır. Şir, əzəmət və qüdrətin simvolu olaraq qədim mədəniyyətlərdə mühüm yer tutmuşdur [6].

2024-cü ildə arxeoloji qazıntı işlərinin davamı nəticəsində Əlişa qalasında yeni maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Qazıntılar zamanı qalada bir neçə otaq, miniatur saxsı kaşılar və 8 metr uzunluğunda saxsı su borusu tapılmışdır (şək.2). Bu tapıntılar əsasən XII-XIV əsrləri əhatə edir və qalada möhtəşəm bir memarlıq abidəsinin varlığını göstərir [5].

2025-ci ildə Əlişa qalasında aparılan arxeoloji qazıntılar zamanı elmi baxımdan böyük önəm kəsb edən unikal memarlıq nümunəsi – lotusvari formada dizayn edilmiş daş hovuz kompleksi üzə çıxarılmışdır. Hovuzun konstruksiyası ümumilikdə 10 ləçəkdən ibarət olub, diametri təxminən 1,5 metrdir. Kompleksə əlavə olaraq, daimi su təchizatını təmin edən daş su kanalları və daş plitələrlə örtülmüş tikililər daxildir (şək.3).

Əldə olunan məlumatlara görə, bu hovuz kompleksi Azərbaycanda sənədləşdirilmiş nadir su qurğusu nümunəsi kimi qiymətləndirilir. Belə çoxləçəkli hovuz formaları daha çox Yaxın Şərq, İran və Hindistan regionlarında məlumdur və onun Azərbaycan ərazisində ilk dəfə aşkarlanması ölkənin qədim memarlıq və mədəni irsinin araşdırılmasında mühüm yenilik kimi dəyərləndirilir [3].

Əlişa qalasında aparılan arxeoloji tədqiqatlar nəticəsində üzə çıxan memarlıq nümunələri və XII–XIV əsrlərə aid maddi mədəniyyət tapıntıları abidənin tarixi dəyərini və dövrünü müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Bu nəticələr qalada sistemli tədqiqatların aparılmasının zəruriliyini göstərir və abidənin mədəni irs kontekstində qiymətləndirilməsinə imkan yaradır. Belə nümunələrin turizm dövriyyəsinə daxil edilməsi, həm ölkənin tarixi-mədəni irsinin qorunmasına, həm də regionun iqtisadi və sosial inkişafına real töhfə verə bilər.

Bu səbəbdən, Əlişa qalasının bərpası, turistik infrastrukturun yaradılması və

yerli icmanın maarifləndirilməsi istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi vacibdir. Dövlət və özəl sektorun birgə əməkdaşlığı ilə bölgədə ekoturizm və mədəni turizmə dair yeni layihələrin icrası, Əlişa qalasının ölkə və dünya səviyyəsində tanıdılmasına töhfə verə bilər. Bunun üçün müasir turizm strategiyalarına əsaslanan marketinq fəaliyyətlərinin həyata keçirilməsi və mədəni irsin geniş kütlələrə təqdim olunması vacibdir [7, s.61].

Davamlı turizmin təşviqi üçün bölgədə infrastrukturun inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Yolların təmiri, nəqliyyat imkanlarının genişləndirilməsi və turistlər üçün müasir qonaqlama obyektlərinin yaradılması bu istiqamətdə prioritet addımlar sırasında yer alır. Eyni zamanda, yerli əhalinin turizm sahəsində maarifləndirilməsi, onların bu fəaliyyətlərə cəlb olunması və əl işlərinin satışına dəstək göstərilməsi regionun sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.

Turizm sahəsinin davamlı inkişafı yalnız fiziki infrastrukturla məhdudlaşmır; bölgənin tarixi-etnoqrafik xüsusiyyətlərinin öyrənilməsi də strateji əhəmiyyət kəsb edir. Bu kontekstdə Alaşa kəndinin toponimik mənşəyi diqqəti cəlb edir. Araşdırmalara görə, kəndin adı Qazaxıstanda bütün qazax tayfalarının ulu əcdadı kimi tanınan Alaşa xanla əlaqələndirilə bilər. Qazax xalq yaddaşında mühüm yer tutan bu mifoloji obrazın Ulıtaudakı məqbərəsi onun tarixi-mədəni çəkisini ortaya qoyur. Alaşa toponiminin Azərbaycanın cənub bölgəsində qeydə alınması orta əsr miqrasiyaları və monqol yürüşləri ilə izah edilə bilər. Beləliklə, bu toponim yalnız lokal səviyyədə deyil, ümumtürk toponimik sistemində də əhəmiyyət daşıyır.

Xorəzmşahlar dövründə türk tayfalarının miqrasiyası və ərazi fəthləri müxtəlif türk xalqlarının dil, mədəniyyət və adətləri arasında qarşılıqlı təsir formalaşdırmış, nəticədə Azərbaycan və Qazaxıstan arasında toponimik paralellərin yaranmasına zəmin yaratmışdır. Alaşa kəndinin dəniz səviyyəsindən 8 metr yüksəklikdə, UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmiş Hirkan Milli Parkının yaxınlığında, İranla sərhəddə yerləşməsi onun həm strateji, həm də ekoloji baxımdan mühüm mövqe tutduğunu göstərir. Toponimin etimologiyasına dair müxtəlif yanaşmalar mövcuddur; Talış dilində "aleşo" sözü həm "böyük həyat", həm də "at" mənasını verir, Azərbaycanda, xüsusilə Şəmkir bölgəsində isə "alaşa" ifadəsi "at" anlamında işlənir [10, s.18–21].

Beynəlxalq və Yerli Tanıtım

Əlişa qalasının turizm potensialını artırmaq məqsədilə müxtəlif beynəlxalq və yerli sərgilərdə təqdimatların keçirilməsi, sosial mediada aktiv tanıtım kampaniyalarının aparılması və turizm marşrutlarına bu abidənin daxil edilməsi nəzərdə tutulmalıdır.

Rayonun tarixi abidələrinin qorunması, bərpası və təbliği, həmçinin bölgənin turizm potensialının artırılması mühüm əhəmiyyət kəsb edir. Bu abidələrin bərpası və mühafizəsi, bölgənin zəngin mədəni irsinin gələcək nəsillərə çatdırılması ilə yanaşı, turizm sektorunun inkişafına da müsbət təsir göstərəcəkdir. Turistlər üçün cəlbedici olan bu abidələrin tanıdılması, həm yerli, həm də xarici turist axınının artmasına səbəb olacaqdır. Mədəni irsin qorunması və turizmin inkişafı istiqamətində aparılan tədbirlər yerli iqtisadiyyatın güclənməsinə və yeni iş yerlərinin yaradılmasına şərait yaradacaqdır. Bununla yanaşı, dövlət və özəl sektorun əməkdaşlığı ilə turizm infrastrukturunun inkişaf etdirilməsi, yolların təmiri, nəqliyyat imkanlarının genişləndirilməsi və turistlər üçün müasir

qonaqlama obyektlərinin yaradılması vacibdir. Həmçinin, yerli əhalinin turizm sahəsində maarifləndirilməsi və onların turizm fəaliyyətlərinə cəlb edilməsi, bölgənin iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir. Beynəlxalq və yerli sərgilərdə Astara rayonunun tarixi abidələrinin təqdim edilməsi, sosial mediada aktiv tanıtım kampaniyalarının aparılması və turizm marşrutlarına bu abidələrin daxil edilməsi bölgənin turizm potensialını artıracaqdır. Bu tədbirlər həmçinin yerli əhalinin mədəni irsə olan marağını artıracaq və onların turizm sahəsində fəaliyyətə cəlb edilməsinə kömək edəcəkdir.

Nəticə

Əlişa qalası yalnız bir arxeoloji abidə deyil, həm də Azərbaycan tarixinin və mədəniyyətinin canlı şahidlərindən biri kimi mühüm əhəmiyyət daşıyır. Onun bərpası, tədqiqi və turizm dövriyyəsinə daxil edilməsi mədəni irsimizin qorunması və davamlı inkişafı istiqamətində atılan mühüm addımlardan biridir. Bu istiqamətdə AMEA Arxeologiya və Antropologiya İnstitutunun, yerli idarəetmə orqanlarının və beynəlxalq təşkilatların əməkdaşlığı mühüm rol oynayır.

Ədəbiyyat

1. Astara Rayon İcra Hakimiyyəti. Coğrafi mövqeyi // Astara-ih.gov.az. – Tarix məlum deyil. – URL: http://astara-ih.gov.az/az/page/13.html
2. Azərbaycan - UNESCO əməkdaşlığı dinamik şəkildə inkişaf etdirilir // İki sahil. – 2014. – 17 may. – S. 8. – https://anl.az/down/meqale/iki_sahil/2014/may/370478.htm
3. Azərbaycan Milli Elmlər Akademiyası. Akademik İsa Həbibbəyli Astarada arxeoloji qazıntı işləri ilə tanış olub // AMEA-nın rəsmi saytı. – 2025. – URL: https://science.gov.az/az/news/open/32974
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti. "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərara dəyişiklik edilməsi barədə 31 avqust 2020-ci il tarixli 318 nömrəli Qərar. – URL: https://e-qanun.az/framework/45817
5. Mustafaev M. Astara rayonu, Alaşa kəndi ərazisində yerləşən Əlişa və ya Divaka qalasında 15 iyul – 13 avqust 2024 tarixlərində aparılmış arxeoloji tədqiqatların hesabatı. – Bakı: AMEA Arxeologiya və Antropologiya İnstitutu, 2024.
6. Mustafayev M. Əlişa (Divəkə) qalası: Astara rayonunun Alaşa kəndində yerləşən Əlişa (Divəkə) qalasında 7 sentyabr – 6 oktyabr 2023 tarixlərində ilkin arxeoloji qazıntı işlərinin hesabatı. – Bakı: AMEA Arxeologiya və Antropologiya İnstitutu, 2023.
7. Turizmin davamlı inkişafı yerli planlaşdırma üzrə mütəxəssislər üçün vəsait. – Bakı, 2012. – 61 s.
8. Азербайджан — ИСЕСКО // Azerbaijan.az. – URL: https://azerbaijan.az/ru/related-information/200
9. Джавадов Г. Д. Талыши (Историко-этнографическое исследование). — Баку: Elm, 2004. — 616 с
10.Мустафаев М., Гусейнова Н. Крепость Алиша на территории южной части Азербайджана в селе Алаша // Азербайджанский журнал исторических исследований. – Алматы, 2024. – № 5. – С. 18–21.



Şəkil 1. Əlişa qalasının ümumi görüntüsünün bir hissəsi.



Şəkil 2. 2024-cü ildə aşkar edilmiş 8 metr uzunluğunda saxsı su borusu.



Şəkil 3. 2025-ci il arxeoloji ekspedisiyası zamanı tapılmış, 10 ləçəkli çiçək formasında su hovuzu.

Məqalənin redaksiyaya daxilolma tarixi: 10.07.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.07.2025
Məqalənin çapa qəbul olunma tarixi: 27.08.2025

DOI: doi.org/10.61226/12.2.2023/20253.12
UOT: 94 (479.24)
Əli FƏRHADOV
Milli Azərbaycan Tarixi Muzeyi,
tarix üzrə fəlsəfə doktoru, dosent
ali_farhadov@yahoo.com
https://orcid.org/0000-0002-9322-3670

MİRZƏ BALA MƏHƏMMƏDZADƏNİN YARADICILIĞINDA MİLLİ İSTİQLALA DAİR ("AZƏRBAYCAN MİSAQİ-MİLLİSİ: 28 MAY İSTİQLAL BƏYANNAMƏSİNİN TƏHLİLİ" ƏSƏRİ ƏSASINDA)

Xülasə: Görkəmli Azərbaycan ictimai-siyasi xadimi Mirzə Bala Məhəmmədzadə Azərbaycan Xalq Cümhuriyyətinə (AXC) və milli istiqlal ideyasına həsr olunmuş dəyərli əsərlər ərsəyə gətirib. Belə əsərlərdən biri də "Azərbaycan Misaqi-Millisi: 28 May İstiqlal Bəyannaməsinin təhlili"dir. Əsərin 1927-ci ildə ərəb qrafikası ilə yazılmış nüsxəsi Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanasında saxlanılır. Bu əsərində M.B.Məhəmmədzadə AXC-nin İstiqlal Bəyannaməsinin maddələrini şərh edir və Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi altında "Müsavat" partiyasının milli istiqlala nail olunmasında oynadığı rolu ətraflı izah edir. Əsərdə həmçinin Osmanlı türklərinin Azərbaycan xalqına qardaşlıq yardımı və onun milli ədəbiyyatda əks olunması məsələlərinə də toxunulur. Bu məqalə M.B.Məhəmmədzadənin həyatı, milli istiqlal uğrunda mübarizəsi, həmçinin muzeydə saxlanılan əsərləri və onların məzmunu haqqında məlumatları özündə ehtiva edir. Bundan əlavə, həmin əsər əsasında dövrün ictimai-siyasi, ədəbi və mədəni hadisələri şərh edilir. M.B.Məhəmmədzadə, İstiqlal Bəyannaməsinin maddələrini şərh edərək, AXC-nin bütün vətəndaşlara bərabər hüquqlar verdiyini, qadınlara seçki hüququ tanıdığını və Şərqdə ilk dünyəvi, demokratik respublika olduğunu vurğulayır. O, ruhanilərin və bəzi radikal dindarların mühafizəkar mövqeyini tənqid edir, milli birliyin əhəmiyyətini, xüsusilə də sünni və şiə məzhəbləri arasındakı ixtilafların aradan qaldırılmasını müdafiə edir. M.B.Məhəmmədzadə əsərində milli azadlıq mübarizəsində maarifçi ziyalıların ədəbi fəaliyyətlərinin də roluna toxunur. Nəticə etibarı ilə, məqalə müəllifin milli istiqlal ideyasını, onun prinsiplərini, məqsədlərini və bu mübarizədə qarşılaşdığı çətinlikləri geniş şəkildə təhlil edir. Bu əsər Azərbaycanın müstəqillik tarixinin öyrənilməsi üçün əvəzsiz bir mənbədir.

Açar sözlər: Mirzə Bala Məhəmmədzadə, Azərbaycan Misaqi-Millisi, AXC, İstiqlal Bəyannaməsi

Ali FARHADOV

ON NATİONAL INDEPENDENCE IN THE WORKS OF MİRZA BALA MAMMADZADE (BASED ON THE WORK "THE NATIONAL PAT OF AZERBAIJAN: AN ANALYSIS OF THE DELARATION OF THE INDEPENDENCE OF MAY 28")

Abstract: Mirza Bala Mammadzade, a prominent Azerbaijani public and political figure, left valuable works dedicated to the Azerbaijan Democratic Republic (ADR) and the idea of national independence**.** One such work is **"**The National Pact of Azerbaijan: An Analysis of the Declaration of Independence of May 28**".** A copy of the 1927 edition, written in Arabic script, is preserved in the library of the National Museum of History of Azerbaijan. In this work, M.B.Mammadzade comments on the articles of the ADR's Declaration of Independence and thoroughly explains the role of the Musavat party, led by M.E.Rasulzade, in achieving national independence. The work also sheds light on the fraternal assistance of the Ottoman Turks to the Azerbaijani people and its reflection in national literature. The presented article provides information about M.B. Mammadzade's life, his struggle for national independence, and his works preserved in the museum, including their content. Furthermore, based on this work, the socio-political, literary, and cultural events of that period are interpreted. Commenting on the articles of the Declaration of Independence, M.B.Mammadzade emphasizes that the Azerbaijan Democratic Republic granted equal rights to all citizens, including the right to vote for women, and became the first secular, democratic republic in the East. He criticizes the conservative stance of the clergy and some radical religious figures, advocating for the importance of national unity and overcoming the differences between Sunnis and Shiites. In his work, M.B.Mammadzade also touches upon the role of enlightened intellectuals and their literary activities in the national liberation struggle. As a result, the article provides a comprehensive analysis of the idea of national independence, its principles, and goals, as well as the difficulties encountered by those involved in this struggle. This work is an invaluable source for studying the history of Azerbaijan's independence.

Keywords: Mirza Bala Mammadzade, National Pact of Azerbaijan, ADR, Declaration of Independence

Али ФАРХАДОВ

О НАЦИОНАЛЬНОЙ НЕЗАВИСИМОСТИ В ТВОРЧЕСТВЕ МИРЗЫ БАЛЫ МАМЕДЗАДЕ (НА ОСНОВЕ РАБОТЫ «НАЦИОНАЛЬНЫЙ ПАКТ АЗЕРБАЙДЖАНА: АНАЛИЗ ДЕКЛАРАЦИИ НЕЗАВИСИМОСТИ ОТ 28 МАЯ»)

Абстракт: Мирза Бала Мамедзаде, выдающийся азербайджанский общественно-политический деятель, оставил ценные труды, посвященные Азербайджанской Демократической Республике (АДР) и идее национальной независимости. Одним из таких произведений является «Национальный пакт Азербайджана: анализ Декларации независимости от 28 мая». Копия издания 1927 года, написанная арабской графикой, хранится в библиотеке Национального музея истории Азербайджана. В этом труде М.Б.Мамедзаде комментирует статьи Декларации независимости АДР и подробно разъясняет роль партии «Мусават» под руководством М.Э.Расулзаде в достижении национальной независимости. В работе также освещается братская помощь тюрок-османов азербайджанскому народу и её отражение в национальной литературе. Представленная статья содержит информацию о жизни М.Б.Мамедзаде, его борьбе за национальную независимость, а также о хранящихся в музее работах и их содержании. Кроме того, на основе этого труда интерпретируются общественно-политические, литературные и культурные события того периода. М.Б.Мамедзаде, комментируя статьи Декларации независимости АДР, подчёркивает, что Азербайджанская Демократическая Республика предоставила равные права всем гражданам, включая избирательное право для женщин, и стала первой светской, демократической республикой на Востоке. Он критикует консервативную позицию духовенства и некоторых радикальных религиозных деятелей, выступая за важность национального единства и преодоление разногласий между суннитами и шиитами. В своей работе М.Б.Мамедзаде также затрагивает роль просветительских деятелей и их литературной деятельности в национально-освободительной борьбе. Таким образом, статья представляет собой всесторонний анализ идеи национальной независимости, её принципов и целей, а также трудностей, с которыми столкнулись участники этой борьбы. Эта работа является бесценным источником для изучения истории независимости Азербайджана.

Ключевые слова*:* Мирза Бала Мамедзаде, Национальный пакт Азербайджана, АДР, Декларация независимости

Giriş

Məqalədə görkəmli ictimai-siyasi xadim Mirzə Bala Məhəmmədzadənin (1898-1959) Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanasında qorunan "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" əsərinin surəti [8] əsasında müəllifin milli istiqlal mövzusundakı fikirləri, dövrün ictimai-siyasi, ədəbi-mədəni hadisələrinə baxışı təqdim olunur. Kitabın orijinalı 1927-ci ildə İstanbulda nəşr edilmişdir və 54 səhifədir. Məqalədə istifadə edilən nüsxə muzeyin kitabxanasındakı nüsxə olub 51 səhifədən ibarətdir və son üç səhifəsi

əskikdir. Muzeyin Sənədli mənbələr fondunda isə kitabın sadəcə 52-ci və 53-cü səhifələrinin surəti qorunur [9, s.52-53].

Məqalədə mövzu ilə bağlı M.B.Məhəmmədzadənin digər əsərlərindən, o cümlədən, müxtəlif ədəbiyyatlardan - o cümlədən, A.Askerin, İ.Türkoğlunun, S.Mehralıyevanın və s. müəlliflərin müvafiq əsərlərindən istifadə edilmişdir. M.B.Məhəmmədzadənin 2023-cü ildə Bakıda nəşr edilmiş "Seçilmiş əsərləri"ndə onun "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" əsəri təqdim edilsə də, onun Ankarada nəşr olunmuş 2022-ci il türkcə nüsxəsindən istifadə edilmişdir [8, s.25]. Təqdim etdiyimiz məqalə isə M.B.Məhəmmədzadənin qeyd olunan əsərinin 1927-ci ildə İstanbulda ərəb əlifbası ilə nəşr edilmiş nüsxəsi əsasında hazırlanmışdır.

Mirzə Bala Məhəmmədzadənin həyatı və əsərləri

M.B.Məhəmmədzadə Abşeron rayonunun Zirə kəndində anadan olmuş, Bakıda rus-tatar məktəbində təhsil almışdır. O, Bakı Politexnik Məktəbindən inşaat-memarlıq ixtisası üzrə məzun olmuşdur [4, s.6]. M.B.Məhəmmədzadə tələbəlik illərində M.Ə.Rəsulzadənin nəşr etdiyi "Açıq söz" qəzetində işləmiş və yazmış, 1917-ci ildə Müsavat Partiyasına üzv olmuşdur. M.B.Məhəmmədzadə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra respublikanın müxtəlif orqanlarında, o cümlədən parlamentdə stenoqrafçı kimi çalışmış [4, s.9] və Müsavat Partiyasının Bakı komitəsinin üzvü seçilmişdir. Eyni zamanda "Bəsirət", Azərbaycan" və s. mətbuat orqanlarında müxbir və yazar olaraq çalışmışdır.

M.B.Məhəmmədzadə AXC-nin süqutundan sonra işğala qarşı yaradılmış Milli Müqavimət Komitəsinin sədri olmuş, komitənin "İstiqlal" qəzetində Rusiya işğalına qarşı yazılar yazdığına görə bir müddət həbs edilsə də, İrana qaça bilmişdi. M.B.Məhəmmədzadə bir müddət Rəştdə və Tehranda yaşamış, daha sonra Rusiyanın İrana təzyiqləri səbəbilə 1926-cı ildə Türkiyəyə mühacirətə getmiş və İstanbul Universitetində hüquq təhsili almışdır [13, s.271-272]. Dövrün sovet qaynaqları hər nə qədər 28 aprel işğalını Azərbaycan zəhmətkeşlərinin sovetləri dəstəkləməsi və inqilab kimi dəyərləndirsələr də, M.B.Məhəmmədzadə bu dövrü "qatı ÇEKA (sovet xüsusi xidmət orqanı-Ə.F.) istibdadı" adlandırmış və hadisənin işğal olduğunu bildirmişdir [8, s.5].

M.B.Məhəmmədzadə İstanbulda tələbə ikən azərbaycanlı mühacirlərin nəşr etdiyi "Yeni Kafkasya" jurnalında məqalələr yazıb, M.Ə.Rəsulzadə və M.Sadıq ilə "Azəri Türk" jurnalını, daha sonra "Odlu yurd" jurnalını nəşr etmişdir. Bu jurnallarda o, Azərbaycanda və Rusiyada yaşayan müsəlman türklərin tarixi və siyasətlə bağlı məqalələr yazırdı. Lakin onun Rusiya əleyhinə yazıları, o cümlədən, Türkiyəyə sığınan mühacirlərin fəaliyyəti Rusiya ilə Türkiyə arasında siyasi ziddiyyətə səbəb olmuş, nəticədə digər mühacirlərlə birlikdə M.B.Məhəmmədzadə də Türkiyəni tərk etməyə məcbur olmuşdu. O, bir müddət Varşavada yaşamış və Berlində nəşr olunan "İstiqlal" və "Qurtuluş" jurnallarında məqalələr yazmışdır [13, s.271-272].

1939-cu ildə Almaniya Polşanı işğal edəndə M.B.Məhəmmədzadə İstanbula qayıtmış və Türkiyənin Milli Təhsil Nazirliyinin nəşr etdiyi İslam Ensiklopediyasında müəllif kimi çalışıb, burada türk dünyası ilə bağlı məqalələr

yazmışdır. O, 1947-ci ildə M.Ə.Rəsulzadə ilə birlikdə Azərbaycan Kültür Dərnəyinin yaradılmasında əsas rol oynayıb, 1955-ci ildə M.Ə.Rəsulzadənin vəfatından sonra Müsavat Partiyasının və Azərbaycan Milli Mərkəzinin rəhbəri seçilmişdir. M.B.Məhəmmədzadə Almaniyada yerləşən Sovet İttifaqını Öyrənmə İnstitutunun dəvəti ilə Münhenə getmiş, burada bir müddət institutun rəhbərlərindən biri olmuş, institutun türk dilində nəşr etdiyi "Dergi" adlı jurnalda V.Nuhoğlu adı ilə bir sıra məqalələr yazmışdır [13, s.271-272].

Başda Azərbaycan mövzusu olmaq üzrə türk dünyası haqqında yüzlərlə məqalə yazan M.B.Məhəmmədzadə Rusiya işğalına qarşı türk xalqlarının milli mübarizəsinin əsas müdafiəçilərindən biri olmuşdur. O, "Komünizmle mücadele", "Türk yurdu", "Milliyet", "Cumhuriyet" və s. mətbu orqanlarındakı yazılarında Mirza Bala, V.Nuhoğlu, Daşdemir, M.B.Ali Kutluk kimi adlardan istifadə etmişdir [13, s.271-272].

M.B.Məhəmmədzadənin 1905-1917-ci illər Rusiya inqilabları dövründə Azərbaycanda baş verən ictimai-siyasi hadisələrdən bəhs edən "İki inqilab arasında", 15 sentyabr 1918-ci ildə Qafqaz İslam Ordusunun Bakını işğaldan azad etməsindən bəhs edən "Bakı uğrunda mücadilə", 1875-1922-ci illərdə Azərbaycanda və Gürcüstanda türkcə nəşr olunan nəşrlər haqqında məlumat verdiyi "Azərbaycan türk mətbuatı", 28 may 1918-ci ildə qalib gəlmiş milli istiqlaldan və bolşeviklərə qarşı mübarizəsindən bəhs edən "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili", İran ermənilərinin müsəlmanlar əleyhinə fəaliyyətindən bəhs edən "Ermənilər və İran", AXC-dən bəhs edən "Milli Azərbaycan hərəkatı", "Azərbaycan tarixində türk Albaniyası" kimi əsərləri var.

M.B.Məhəmmədzadə öz əsərlərində milli mübarizənin problemlərini tədqiq edərək tarixçi mövqeyi ilə hadisələrə yanaşmışdır. Onun Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı "İflas nədən oldu", "Azərbaycan parlamentosu, "Azərbaycanın Milli Şurası", "Azərbaycan Universiteti" adlı məqalələri Şərqdə ilk respublika olan Cümhuriyyət tarixini və həmin dövrün siyasi proseslərini öyrənmək baxımından dəyərli mənbələrdir. O, "Bolşeviklər və daşnaklar" adlı məqaləsində AXC-yə qarşı mübarizədə bolşevik – daşnak ittifaqını xüsusi qeyd etmişdir [12, s.2935, 2939].

Milli dövləti mədəni inkişafın ən yüksək forması sayan M.B.Məhəmmədzadəyə görə, türk-islam aləmində ilk demokratik dövlətin – AXC-nin yaranması ilə nəticələnən milli hərəkatda M.F.Axundzadədən, H.Zərdabidən, İ.Qaspralıdan Ə.Hüseynzadəyə, Ə.Ağaoğluya, M.Ə.Rəsulzadəyə qədər hər kəsin müəyyən bir rolu vardır [4, s.25].

Mirzə Bala Məhəmmədzadə və "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" adlı əsəri

M.B.Məhəmmədzadənin "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" adlı əsəri Azərbaycan milli hərəkatının tədqiqi baxımından mühüm yer tutur. AXC-nin İstiqlal Bəyannaməsini "Misaqi-Milli" ("Milli müqavilə") adlandıran müəllifə görə, bu ideya və üçrəngli Azərbaycan bayrağı milli məfkurəni təmsil etdiyi üçün müqəddəsdir [8, s.5-6].

"Azərbaycan Misaqi-Millisi" "Azəri gəncliyi" adlı gizli təşkilat tərəfindən 1923-cü ilin may ayında nəşr edilmişdir. Bu bəyannamə milli məfkurə uğrunda

azəri türk millətpərvərlərinin mücadiləsinin başlanğıcı sayılır [8, s.3]. M.B.Məhəmmədzadə göstərir ki, 1918-ci ilin mart faciəsi Azərbaycan istiqlal məfkurəsi reallaşmasın deyə qəsdən tərtib edilmişdir. Lakin irtica qüvvələrinin zərbələri milli hərəkatın əzmini daha da artırdı, azərbaycanlıların "muxtariyyət və federasiya" arzusu "milli istiqlal" arzusuna döndü və bu uğurda mücadilə başladı [8, s.3-4]. Bunun qarşısında əsas maneələrdən biri isə "bolşevik-daşnak" işğalı idi [8, s.46]. Şair Əli Yusifin ifadəsilə "Şərqin Kəbəsi" adlanan Azərbaycanın xilaskarı isə qardaş Osmanlı türklərinin göndərdiyi Qafqaz İslam Ordusu oldu [4, s.362]. M.B.Məhəmmədzadə hələ Rusiya işğalı dövründə zalım çarizm məmurlarına və daşnak terroruna, "müsəlman qövmlərinin tənəzzülünə" qarşı mübarizədə Ə.Ağaoğlunun elmi-publisistik, ictimai-siyasi fəaliyyətinə, xüsusilə Difai Partiyasının roluna xüsusi əhəmiyyət vermişdir [11, s.35].

M.B.Məhəmmədzadə göstərir ki, Azərbaycanın istiqlalı 1918-ci ilə qədər təkcə Müsavat Partiyasının qayəsi idi, mart faciəsindən sonra isə o, Milli Şuranın elan etdiyi və xalqımızın inandığı milli bir məfkurəyə çevrildi [8, s.5]. Müəllifə görə, milli istiqlalı olmayan bir millət öz mədəniyyətini qoruya bilməz. Buna görə də ən təbii hökumət milli hökumətdir [8, s.8-9]. Bu ideyanın əsas hərəkətverici qüvvəsi olan Müsavat Partiyasının Proqramına görə millət mexaniki surətdə toplanmış insanlardan ibarət bir kütlə deyil, əksinə müştərək arzusu, dil birliyi, ortaq tarixi, ədəbiyyatı, mədəniyyəti, adət-ənənəsi olan bir cəmiyyətdir [8, s.10]. AXC-nin yaradılma qayəsi də bu müqəddəs milli məfkurə olmuşdur.

İstiqlal Bəyannaməsinin I maddəsini şərh edən M.B.Məhəmmədzadə göstərir ki, Milli Şura vasitəsilə müstəqil dövlət olduğunu elan edən Azərbaycan xalqı türklüyünü və azərbaycanlılığını dərk etmədən bu qərara gələ bilməzdi. Milli Şurada bu qərarın bayraqdarı azəri-türk millətpərvərliyini təşkil edən Müsavat Partiyası olmuşdur [8, s.8]. Bu prosesə gedən yolda Rusiya türklərinin milli şüurunun oyanmasında, bütün türk xalqlarını vahid bir türk dili ətrafında birləşdirməyə çalışan İ.Qaspralıya və onun nəşr etdiyi "Tərcüman" qəzetinə, onun milli təhsil sahəsində ortaya qoyduğu "üsuli-cədid" (yeni metod-Ə.F.) məktəblərinə, bu cərəyanın Azərbaycanda da yayılmasına M.B.Məhəmmədzadə böyük əhəmiyyət və dəyər vermişdir [11, s.15-16]. O, Ə.Hüseynzadənin "türkləşmək, islamlaşmaq və avropalılaşmaq" şüarı ilə türklüyün gələcək hədəflərini ortaya qoyduğunu göstərir, bu ideyanın Müsavat Partiyasının şüarı və AXC-nin Dövlət Bayrağının əsasını təşkil etdiyini vurğulayırdı [11, s.16]. Azərbaycanda türk-islam mədəniyyətinin inkişafında, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi ziyalıların maliyyə olaraq dəstəklənməsində, "Həyat", "Füyuzat", "Kaspi" kimi mətbu orqanlarının nəşrində görkəmli xeyriyyəçi H.Z.Tağıyevin mühüm rolu M.B.Məhəmmədzadə tərəfindən vurğulanmışdır [11, s.35].

M.B.Məhəmmədzadə Azərbaycanda müsəlmançılıq şüurundan milli şüura keçişdə, milli məfkurənin formalaşmasında Müsavat Partiyasının rəhbəri M.Ə.Rəsulzadənin daha mühüm rol oynadığını qeyd edir. M.B.Məhəmmədzadə yazır ki, azəri millətpərvərlərinin rəhbəri M.Ə.Rəsulzadə 1905-ci ildən bəri milli şüurun elmi prinsiplərini "Dirilik", "Şəlalə" jurnallarında, "Açıq söz", "Təkamül", "Müsavat" qəzetlərində ortaya qoyaraq milli məfkurəni formalaşdırdı. O, "Dirilik"dəki "Milli dirilik" məqalələri, "Şəlalə"də "Dil-ictimai bir amil", "Yeni lisançılar və türkçülər", "Sadə türkcə" ətrafında yazılan elmi məqalələri, "Açıq

söz"də "türkləşmək, müasirləşmək, islamlaşmaq" şüarının izahı haqqındakı fikirləri ilə müasir millət nəzəriyyəsini inkişaf etdirdi, Azərbaycanda türklük şüurunun qələbə çalmasına nail oldu [8, s.10].

M.B.Məhəmmədzadə göstərir ki, M.Ə.Rəsulzadə C.Əfqaninin – müsəlmanlar müxtəlif millətlərdən ibarətdir, bu millətlər öz milli dövlətlərini qurub, daha sonra bir federasiyada birləşməlidirlər, fikrinə əsaslanaraq bu ideyanı daha da inkişaf etdirdi. M.Ə.Rəsulzadə yazırdı ki, insanlıq naminə biz razı ola bilmərik ki, bir millət başqa bir millətə zülm etsin, bütün millətlər bərabər hüquqda olmalıdır [8, s.25-26].

İstiqlal Bəyannaməsinin II, IV və V maddələrini, yəni AXC dövründə millət, din, sinif, cins fərqi olmadan bütün vətəndaşlara bərabər hüquq verildiyini və onlar tərəfindən seçkili cümhuriyyət sistemini şərh edən M.B.Məhəmmədzadə göstərir ki, Azərbaycanda demokratik respublika idarə formasıdır. Dövləti idarə edən Milli Şura demokratik bir məclis idi, millətin bütün siniflərinin, zümrələrinin, qadın-kişi fərqi olmadan sərbəst iştirakı ilə demokratik seçkiyə əsaslanan bir müəssisə idi [8, s.18]. Müəllif qeyd edir ki, İstiqlal Bəyannaməsi ilə qadın-kişi bərabərliyi ortaya qoyularaq "cins fərqi gözləmədən" ifadəsilə Şərqdə yeni bir mədəni inqilab reallaşmışdır [8, s.33]. M.B.Məhəmmədzadə göstərirdi ki, bu mütərəqqi hadisənin başlanğıcı olaraq Rusiya fevral inqilabından sonra islamçıların təzyiq və təhqirlərinə baxmayaraq məhz Müsavat Partiyasının təşviqi ilə Azərbaycan qadınları Duma seçkilərində aktiv iştirak edərək müsəlman deputatların daha çox seçilməsinə nail oldular [8, s.41-42]. AXC ilə müsəlman Şərq dünyasında ilk dünyəvi dövlətçilik modeli ortaya qoyulmuşdur. Ona görə, demokratiyanın din və vicdan azadlığı prinsipinin tətbiqi ilə milli hakimiyyət yaradıldı. Lakin islam dini də rədd edilmir, dövlət bayrağında ortaya qoyulduğu kimi - türkləşməkdən sonra islamlaşmaq şüarı siyasi olmamaq şərti ilə qəbul edilmişdi [8, s.32]. Bunun reallaşmasında islamçıların əksinə olaraq "ruhaniləri siyasətə qarışdırmayın" deyən M.Ə.Rəsulzadə mühüm rol oynamışdır [1, s.7].

M.B.Məhəmmədzadə milli dövlətçiliyin qurulmasında əsas rolun müsavatçılarda olduğunu qeyd edir və yazırdı ki, millət sözünün müsəlmanlıq kimi anlayan ruhani-mülkədarlar xalqı çoban və qoyun kimi iki sinifə ayırıb hakimiyyəti yalnız Allah tərəfindən seçilmiş çobanlara, yəni ali ruhani-mülkədarlara xas bir imtiyaz sayırdılar. Milli Şurada ruhanilərə və feodallara əsaslanan İttihadi-islam partiyası və milliliyi yox, beynəlmiləlçiliyi müdafiə edən sosialist qrupları olsa da, əksəriyyət millətpərvər demokrat müsavatçılardan ibarət idi [8, s.18-19]. Ə.Ağaoğlu, M.Pişnamazzadə, Q.Qarabəyov kimi osmanlıpərəst, islamçı ziyalılar da ilk dövrlərdə cümhuriyyətçiliyə, dünyəvi dövlətçiliyə qarşı çıxış edirdilər. M.Ə.Rəsulzadə qeyd edirdi ki, bir tərəfdən islamçılar bizi islam birliyinə xəyanətdə, digər tərəfdən isə sosialistlər bizi sosializm ideyasına zidd getməkdə ittiham edirdilər [2].

M.B.Məhəmmədzadə xalqı parçalayan din və məzhəb ixtilafını tənqid edir, göstərirdi ki, vahid bir milləti iki düşmən qismə bölən sünni və şiə mücadiləsidir. Bu ixtilaf aradan qalxmalıdır. Lakin bu uğurda mücadilə, məzhəb ixtilafına qarşı mübarizə, milli mətbuat, milli məktəb, üsuli-cədid üzrə tədris, bütün yeniliklər mürtəcelərin hücumuna məruz qalmışdı. Xarici istismarçılar, mürtəcelərin başında duran ruhanilər, mollalar yenilikçi millətpərvərlərə qarşı çıxırdılar. "Molla

Nəsrəddin" və s. mütərəqqi ziyalılar buna qarşı mübarizə edirdilər [8, s.14-15]. Təəssüf ki, M.B.Məhəmmədzadə bu fikirlərini ortaya qoyarkən bir qədər subyektiv hərəkət edərək, mənfi ruhani obrazı yaradaraq ümumiləşdirmə etmişdir. O, məzhəbçiliyə, dində ixtilafa, uydurmalara qarşı çıxan, kişi və qadınların dünyəvi təhsil almasını müdafiə edən, elm və dini vəhdətdə görmək istəyən, ərəb dilini bilməyən azərbaycanlılar üçün ana dilində yazdığı ilk Quran təfsiri olan "Kəşfül-həqayiq" əsərində milli və dini maarifçiliyi təbliğ edən Bakı qazısı M.K. əl-Bakuvi kimi ruhanilərin mütərəqqi fəaliyyətlərini qeyd etməmişdir. Əsərdə İraqda və Şamda ali dini təhsil almış şair S.Ə.Şirvaninin məzhəbçiliyə qarşı mübarizə apardığı qeyd edilsə də, onun dini maarifçi fikirləri təqdim edilməmişdir. Həmçinin ruhanilərdən "İslamın təfriqəsi səbəbləri" əsərinin müəllifi Əbu Turab Axundzadənin adı sadəcə qeyd edilmiş, onun məzhəbçiliyə qarşı mübarizə apardığı, lakin millilikdən uzaq olduğu göstərilmişdir [8, s.31].

M.B.Məhəmmədzadə yazırdı ki, Müsavat partiyası istiqlalçı, millətçi, türkçü və mədəniyyətcə turançı, müsəlman bir partiya idi. Lakin bu partiya ittihadi-islamı yox, ittifaqi-islamı təbliğ edirdi. Bütün islam dövlətlərinin və türk dövlətlərinin bir dövlətdə birləşməsini yox, ittifaqını, dünya federasiyasına gedən yolda bir federasiya daxilində müstəqil olmasını arzu edirdi. Ona görə Turan və islam birliyi dinə yox, mədəni birliyə əsaslanmalıdır [8, s.24-26]. Mütəfəkkirə görə vahid bir dövlətə əsaslanan siyasi turançılıq və ya islam birliyi mexaniki şəkildə millətlərin birliyinə əsaslana bilməz, bu, imkansız bir xəyaldır. Yeganə yol milli istiqlal və türk-islam xalqlarının mədəni birliyidir [6, s.14].

Milli istiqlala gedən yolda Azərbaycanda Rusiyaya meyilli bolşevik və sosialistlər, o cümlədən dini siyasətə əsaslanan ittihadi-islam cərəyanları güclənmişdi və M.B.Məhəmmədzadə göstərir ki, bunlar milli istiqlala qarşı olduğu üçün onlara qarşı mücadilə etmək vacib idi. Onlar xalqı öz tərəfinə çəkməyə çalışırdılar. Bunlara qarşı mübarizəni aparan əsas qüvvə Müsavat Partiyası idi. Onun hədəfi millətçilik, türklüyü mühafizə və Azərbaycanın istiqlalı idi [8, s.47-48].

M.B.Məhəmmədzadə bolşevikləri və milli istiqlala qarşı olan digər qrupları tənqid edərək yazırdı ki, milli istiqlalı xan və bəylərin intriqası sayan düşmənlərimiz demokratik cümhuriyyətimizi Müsavat Partiyasının şəxsi arzusu saya bilərlər. Lakin bu istiqlal fikrini və milli hərəkatı, Müsavat Partiyasını yaradan Azərbaycan xalqının özü idi [8, s.24].

İstiqlal bəyannaməsinin VI maddəsini, yəni Azərbaycanda xalqın seçdiyi Milli Şura və ona tabe olan hökumət sistemini şərh edən M.B.Məhəmmədzadə yazırdı ki, cümhuriyyəti qurucuları bu xüsusda ancaq demokratiyanı və milli iradəni, parlamentarizmi əsas saymış, seçilmiş Milli Şuradan başqa ikinci hakim iradə qəbul edilməmişdir. Azərbaycan Cümhuriyyəti konstitusiya ilə idarə olunan dövlətlərdə olduğu kimi bütün vətəndaşların hüquq bərabərliyinə əsaslanırdı [8, s.44-45]. AXC-nin konstitusiyasının qəbul edilməsi hərbi-siyasi səbəblərdən sonrakı dövrə saxlansa da, İstiqlal Bəyannaməsi demokratik bir konstitusiyanın əsas müddəalarını özündə ehtiva etmişdi. AXC-nin İstiqlal Bəyannaməsinin II maddəsində göstərildiyi kimi o, bütün qonşuları ilə sülh və mehriban qonşuluq prinsipi ilə fəaliyyət göstərirdi [8, s.24-25]. Lakin keçmiş çar Rusiyasının sərhədlərini bərpa etməyi qarşısına məqsəd qoymuş olan bolşeviklər bu yeni

dövlətin yaşamasına imkan vermədilər və Şimali Azərbaycanı işğal etməklə yanaşı erməni millətçilərindən istifadə edərək bölgədə separatçılığa da münbit şərait yaratdılar. M.B.Məhəmmədzadə erməni millətçilərinin nəinki Şimali Azərbaycanda, hətta İran Azərbaycanındakı separatçılıq hərəkətlərini də tənqid edirdi. O, ermənilərin İran Azərbaycanında muxtariyyət və ya yerli özünüidarəetmə haqqı arzusuna təbrizli ictimai-siyasi xadim S.H.Tağızadənin mənfi cavab verdiyini və konstitusiyada azsaylı xalqlara, etnik azlıqlara yerli özünüidarəetmə haqqının verilməyəcəyini dediyini göstərirdi [10, s.16]. Şimali Azərbaycanda ermənilərə bu haqqın verilməsi ilə ölkədə on illərlə davam edən işğalçılıq siyasətinin təməlinin qoyulması M.B.Məhəmmədzadənin və S.H.Tağızadənin mövqeyinin nə qədər doğru olduğunu göstərdi.

28 Aprel işğalı nəticəsində məhv edilən milli dövlətçiliyimizin yenidən bərpasının zəruriliyini vurğulayan M.B.Məhəmmədzadə yazırdı ki, milli istiqlal və Azərbaycan dövlətçiliyi yenidən bərpa edilməzsə, Azərbaycan bir coğrafiya olaraq da məhv olacaq, Azərbaycan türkləri əcnəbiləşəcəkdir. Xilas yolumuz və ehtiyacımız Misaqi-Millinin yenidən hakim olmasıdır [4, s.362-363].

M.B.Məhəmmədzadə "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" əsərində şair və ədiblərin, yazarların Azərbaycan istiqlalında oynadığı rol haqqında geniş məlumat vermişdir. Məqalədə M.F.Axundzadənin, H.Zərdabinin, H.Cavidin və digər ziyalıların yaradıcılıqlarındakı milli ideyalara xüsusi yer verilmişdir. Müəllif qeyd edir ki, H.Zərdabi Azərbaycan dilində ilk teatr əsərlərini yazan M.F.Axundzadədən ilham alaraq milli mədəniyyətimizi və elmi dünyagörüşünü təbliğ edirdi. Onun illər əvvəl təbliğ etdiyi milli və dini maarifçiliyin, xeyriyyəçiliyin əhəmiyyəti barədəki fikirləri Azərbaycanda cəhalət səddini dağıtmağa başlamışdı [8, s.16]. M.B.Məhəmmədzadə "Bizi puç etdi sünni, şiə sözü" deyərək məzhəbçiliyə qarşı mübarizə aparan S.Ə.Şirvaninin H.Zərdabinin maarifçi fikirlərini dəstəklədiyini göstərirdi [8, s.30-31]. M.B.Məhəmmədzadə milli istiqlal fikrinin formalaşmasında H.Zərdabinin "Əkinçi" qəzetinin mühüm rol oynadığını göstərir və vurğulayır ki, əgər H.Zərdabi 50 il sonra dünyaya gəlsəydi, istiqlal fikri, Misaqi-Milli 50 il sonra reallaşacaqdı [8, s.7-8].

M.B.Məhəmmədzadə milli istiqlal üçün dini vəhdətin əhəmiyyətini çox gözəl anlayır və bunu təbliğ edirdi. O, Abdulla Şaiqin müsəlmanları vəhdətə çağıran -

"Tərk edək cümlə məzahib söhbətin...
Tanrı bir, peyğəmbərü Quran bir" [8, s.30]

şerini nümunə verərək məzhəbçiliyin milli birliyə ən böyük əngəllərdən biri olduğunu göstərirdi.

M.B.Məhəmmədzadə 1917-ci ilin aprel ayında Bakıda keçirilmiş Qafqaz müsəlmanlarının qurultayında sünni və şiə ruhanilərinin ittifaq qurmasını alqışlayır və bu dini birlik ideyasının cümhuriyyət dövründə davam etdirildiyini göstərirdi [8, s.29]. Həqiqətən də İstiqlal Bəyannaməsinin IV maddəsi və cümhuriyyət dövründə şiə və sünni ruhani idarələrinin vahid bir dini idarədə - "Məşixət"də birləşdirilməsi AXC hökumətinin dini vəhdət siyasətindəki ən böyük uğurlarından biridir. Lakin M.B.Məhəmmədzadə ruhanilərin qadın azadlığına qarşı çıxdığını yenə Qafqaz müsəlmanları qurultayındakı ruhanilərin nümunəsi ilə

göstərir və bu azadlığın ancaq dünyəvi dövlət quran və qadınlara kişilərlə bərabər hüquqlar verən AXC dövlətinin töhfəsi olduğunu göstərirdi [8, s.42]. Bu qurultayda Şəfiqə Əfəndizadə və digər bəzi maarifçi qadınların çadrasız olaraq kişilərin qarşısında çıxış etməsi radikal ruhanilərin hiddətinə səbəb olmuş, onlar bu hadisəni şəriətə zidd saymışdılar [5]. Bu ruhaniləri tənqid edən M.B.Məhəmmədzadə yazır ki, Milli Şura da öz İstiqlal Bəyannaməsində qadınlara kişilərlə bərabər hüquq və azadlığı verərək milli müqəddəratda mühüm rol oynadı. Bu bəyannamə bütün azəri qadınlarının Misaqi-Millisi oldu. Azəri qadınlar öz hüquq və azadlıqlarını tam əldə edərək bütün idarələrdə çalışa bilərdilər, hətta parlamentdə məmur kimi də fəaliyyət göstərirdilər. Qadınlar üçün ibtidai, orta və ali məktəblər açılmışdı, universitetdə ali təhsil ala bilirdilər [8, s.42-43]. Təbii ki, bu prosesdə M.B.Məhəmmədzadənin də qeyd etdiyi kimi uzun illər boyu qadın hüquqlarını təbliğ edən "Molla Nəsrəddin" jurnalının, "İqbal" qəzetinin, Müsavat Partiyasının böyük rolu olmuşdur. Çadraya qarşı mübarizəni "rəzalət" adlandıran, islama zidd olduğunu deyən "Şəlalə" jurnalının baş redaktoru Xalid Xürrəm Səbribəyzadənin, islamçıların və digər radikal dindarların təzyiqlərinə baxmayaraq qadınlar öz layiq olduqları haqları əldə etdilər. Bunda isə müsavatçıların və AXC dövlətinin böyük rolu oldu [8, s.38-40]. Əliqulu Qəmküsar X.X.Səbribəyzadənin qadın haqlarına qarşı olan mövqeyini belə tənqid edirdi:

"Yaxşı təsvir elə öz rəyin ilə Quranı,
Çadra, çarşafa bük, dustaq elə nisvani (qadın-Ə.F.),
Qoyma getsin qabağa milləti qaytar ani" [3].

M.Ə.Sabirin hicvlə yazdığı –

"Övrətlərə tədrisi-kitabət yeni çıxdı,
İslama xələl qatdı bu bidət, yeni çıxdı" [8, s.38]

şerini misal çəkən M.B.Məhəmmədzadə qadın azadlığına, qadınların dünyəvi təhsil almasına qarşı çıxanları tənqid edir, görkəmli xeyriyyəçi H.Z.Tağıyevin ilk dəfə müsəlman qız məktəbi açmasını alqışlayırdı [8, s.34-35].

M.B.Məhəmmədzadə Azərbaycan ədəbiyyatından nümunə verdiyi –

"Bir gün gələcək şəmsi-həqiqət doğacaqdır,
Şərqin bu əsir validəsi hürr olacaqdır",

şeri ilə buna olan qəti ümidini göstərirdi [8, s.33].

M.B.Məhəmmədzadə AXC-nin öz vətəndaşları arasında varlı – kasıb fərqi qoymadan hamıya bərabər yanaşdığını vurğulayır. Lakin bu ədalətli yanaşma məhz cümhuriyyət qurucularının sayəsində oldu. Çarizm dövründə M.Ə.Sabirin hicv dili ilə yazdığı –

"Pul istənilir, məktəb açılsın füqarəyə...
Kasibləri elmlə ucalandırmaq olarmı?" [8, s.38]

şerini nümunə verən M.B.Məhəmmədzadə bu ayrı-seçkiliyə məhz AXC dövləti dövründə son qoyulduğunu göstərir.

M.B.Məhəmmədzadə H.Cavidin də Rusiya işğalı dövründəki problemlərdən, "Fəqir olan çürüsün!... Həqqü müadələt (haqq-ədalət-Ə.F.) nərədə?" – deyərək ədalətsizlikdən şikayət etdiyini göstərir [8, s.22], onun AXC dövründə reallaşmış olan mütərəqqi ideyalarını nümunə verirdi:

"Böyük, kiçik, qara, ağ, həp xristian, islam,

Bütün bəşər nə hüquq istiyorsa, həp alacaq;
Demək ki, qalmayacaq zülmdən cihanda nişan" [8, s.27].

"Misaqi-Milli bu ruhdan yaranmışdır" deyən [8, s.28] M.B.Məhəmmədzadə çarizm dövründəki milli, dini, sinfi ayrı-seçkiliklərə cümhuriyyət dövründə nəzəri olaraq son qoyulduğunu göstərir. O, yazırdı ki, Müsavat Partiyası torpağı əkinçilərə, zəhmətkeş kəndliyə verməklə, ölkənin taleyini xalqın bütün təbəqələrinin bərabər şəkildə idarə etməsinə şərait yaratmaqla xalqın ümidinə çevrildi. Demokratik cümhuriyyət xalqın Müsavat Partiyasına olan etimadı sayəsində bu amaldan yarandı [8, s.24].

Nəticə

Son olaraq deyə bilərik ki, M.B.Məhəmmədzadə təkcə Azərbaycanın yox, Bütün türk dünyasının problemlərini öz problemi sayır və onların həlli yolunda çalışırdı. O, həm bolşevik ideologiyasına və Rusiya işğalına, həm də işğalçılar tərəfindən Azərbaycan türklərinin ruslaşdırılmasına qarşı idi [11, s.VII]. M.B.Məhəmmədzadənin "Azərbaycan Misaqi-Millisi" əsəri Azərbaycanın müstəqillik ideyasının əsas mahiyyətini və reallaşması yollarını ehtiva edir. M.B.Məhəmmədzadə bu əsərində Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan tarixi inkişaf yolunu, milli özünüdərk və istiqlal mücadiləsinin əsas mərhələ və prinsiplərini, hədəflərini ətraflı təhlil etmişdir. Əsərdə Rusiya işğalı altında olan Azərbaycanın ilk dəfə 1918-ci ildə dövlət quruculuğuna nail olması, 1920-ci ildə Rusiya tərəfindən süqutu, 1917-1920-ci illərdə milli istiqlal uğrunda milli mübarizə, bu mücadilənin hədəf, prinsip və nəticələrini ətraflı şəkildə izah etmişdir. Əsərdə AXC-nin üzləşdiyi problemlər, Sovet Rusiyasının işğalçılıq siyasəti, məğlubiyyətə baxmayaraq azadlıq mübarizəsinin davam etdiyi göstərilmişdir. Bu əsər Azərbaycan xalqının azadlıq ideyasının güclü ifadəsi və milli istiqlal uğrunda apardığı uzun və şərəfli mücadilənin parlaq təcəssümü kimi xarakterizə edilə bilər. M.B.Məhəmmədzadənin "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" əsəri Azərbaycanın müstəqillik əldə etməsi və dövlət quruculuğu yolundakı çətin, lakin haqq mübarizəsinin, xalqın istiqlal ideyalarının əks olunduğu mühüm bir əsərdir. Bu əsər Azərbaycan milli hərəkatının tarixi inkişaf xəttini, prinsiplərini və hədəflərini ətraflı işıqlandırır. Təsadüfi deyil ki, M.Ə.Rəsulzadə başda olmaqla azərbaycanlı mühacirlər tərəfindən 1928-ci ildə İstanbulda nəşr olunan "Azəri Türk" məcmuəsində verilmiş "İstiqlal Bəyannaməsi" də məhz M.B.Məhəmmədzadənin əsərinin adına uyğun olaraq "Azərbaycan Misaqi-Millisi" şəklində təqdim edilmişdir [7, s.1]. M.B.Məhəmmədzadə "Azərbaycan Misaqi-Millisi"ni azərbaycanlıların möhtac olduğu həyat proqramı sayırdı [4, s.362; 9, s.53]. Bu müqəddəs prinsipləri daim qorumaq, yaşatmaq və təbliğ etmək AXC qurucularının ölənə qədər inandıqları və ümid etdikləri bir inanc olmuşdur və bu, müstəqil Azərbaycan vətəndaşlarının da əbədi borcu olmalıdır.

Ədəbiyyat

1. Balayev, A. Rəsulzadə: Əlhəzər, ruhaniləri siyasətə qarışdırmayın // Ədalət. – 2012, 11 yanvar. – s.7.
2. Ələkbərli, F. Azərbaycanda milli şüur məsələsi: tarix və cağdaşlıq. – 20 dekabr, 2013. URL: https://modern.az/azerbaycanda-milli-suur-meselesi-tarix-ve-cadasliq/49322
3. Həyatova, S. "Şəlalə" jurnalının nəşri tarixi. – 6 iyun, 2017. URL: https://tehsiljurnali.az/metodika/209-lal-jurnalinin-nr-tarx.html
4. Məhəmmədzadə, M.B. Seçilmiş əsərləri // M.B.Məhəmmədzadə, tərtib ed. N.Cabbarlı. – Bakı: Elm və təhsil, – 2023. - 612 s.
5. Vəzir, M. İlk qadın jurnalist - Şəfiqə xanım Əfəndizadə. – 27 may, 2018. URL: https://teleqraf.com/news/yazarlar/175053.html
6. Asker, A. Mirza Bala Mehmetzadenin Azerbaycan Misaki-Millisi üzerine yorumları // "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda III beynəlxalq elmi-nəzəri konfransın materialları. – Bakı: – 13 iyun, – 2018, – s.12-15.
7. Azerbaycan Misaki-Millisi // – İstanbul: Azeri Türk mecmuası, – 1928. № 9, – s.1.
8.Mehmedzade, M.B. Azerbaycan Misaqi-Millisi: 28 Mayıs İstiqlal Beyannamesinin tahlili / M.B.Mehmedzade. – İstanbul: Necmi-İstanbul matbaası, – 1927. – 51 s. // Milli Azərbaycan Tarixi Muzeyinin Kitabxanasının Nadir kitablar fondu, № 959.
9. Mehmedzade, M.B. Azerbaycan Misaqi-Millisi: 28 Mayıs İstiqlal Beyannamesinin tahlili / M.B.Mehmedzade. – İstanbul: Necmi-İstanbul matbaası, – 1927. – s.52-53 // Milli Azərbaycan Tarixi Muzeyinin Kitabxanasının Sənədli mənbələr fondu (SMF), № 4455.
10.Mehmetzade, M.B. Ermeniler ve İran. – 18 s. URL: https://www.academia.edu/35936406/ERMENİLER_ve_İRAN
11. Mehmetzade, M.B. Milli Azerbaycan hareketi / M.B.Mehmetzade. – Ankara: Azerbaycan Kültür Derneği yayınları, – 1991. – 239 s.
12. Mehraliyeva, S. Azərbaycanın istiqlal mübarizəsi tarixində Mirzə Bala Məhəmmədzadənin rolu // Akademik Tarih ve Düşünce Dergisi, – 2024. № 11 (5), – s.2933-2940.
13. Türkoğlu, İ. Mirza Bala Mehmetzade // TDV İslam Ansiklopedisi, c. Ek-2. – Ankara: Türkiye Diyanet Vakfı yayınları, – 2019. – s.271-272.

Məqalənin redaksiyaya daxilolma tarixi: 08.09.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.09.2025
Məqalənin çapa qəbul olunma tarixi: 29.09.2025

DOI: doi.org/10.61226/12.2.2023/20253.13
UOT 39:739.2(479.24)
Kamalə ƏLİYEVA
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
"Müasir Etnologiya" şöbəsi, tarix üzrə fəlsəfə doktoru, dosent,
aparıcı elmi işçi
aylin_kama@mail.ru
https://orcid.org/0009-0004-7434-9843

QADIN BƏZƏKLƏRİ İLƏ BAĞLI ADƏT VƏ ƏNƏNƏLƏR

Xülasə: Məqalədə Azərbaycanda qadın bəzəklərinin tarixi, etnoqrafik və simvolik xüsusiyyətləri geniş şəkildə araşdırılmışdır. Tədqiqatın əsas məqsədi qadın bəzəklərinin yalnız estetik məqsəd daşımadığını, həm də dini, qoruyucu və sosial funksiyalara malik olduğunu göstərməkdir. Bu məqsədlə arxeoloji qazıntılar, yazılı mənbələr və şifahi etnoqrafik məlumatlar sistemli şəkildə təhlil edilmişdir. Məqalədə müxtəlif amuletlər, ulduz və aypara motivləri, quş və balıq təsvirləri, firuzə, əqiq, zümrüd, mirvari və digər qiymətli daşlardan istifadə nümunələri təqdim olunmuşdur. Həmçinin, kəmər, sırğa, üzük və bilərziklərin həm bəzək, həm də qoruyucu və müalicəvi simvol kimi rolu araşdırılmışdır. Qadın bəzəklərinin fərdi və ictimai həyatda tutduğu yer, toy və mərasimlərdə istifadəsi, dini məhdudiyyətlər və dövrlərə görə dəyişən adət-ənənələr də diqqət mərkəzində saxlanılmışdır. Tədqiqat göstərir ki, qadın bəzəkləri həm estetik zövqün ifadəsi, həm qoruyucu vasitə, həm də ictimai status və ailə həyatında rolun simvolu olmuşdur. Məqalədə bəzəklərin üzərindəki naxışların ibtidai dövrdən XIX əsrə qədər keçdiyi tarixi inkişaf mərhələləri, dini-mitoloji kökləri və xalqın dünyagörüşünü əks etdirməsi izah edilmişdir. Bu baxımdan, qadın bəzəkləri həm mədəni irs, həm də etnoqrafik və simvolik araşdırmalar üçün zəngin material kimi təqdim olunmuşdur.

Açar sözlər: qadın bəzəkləri, amulet, qiymətli daşlar, etnoqrafiya, simvolizm, Azərbaycan

Kamala ALIYEVA

CUSTOMS AND TRADİTİONS RELATED TO WOMEN'S ADORNMENTS

Abstract: The article provides a comprehensive study of the historical, ethnographic, and symbolic features of women's jewelry in Azerbaijan. The research demonstrates that these adornments served not only aesthetic purposes but also fulfilled religious, protective, and social functions. The study draws on archaeological findings, written sources, and oral ethnographic data to analyze the cultural significance of jewelry. Various amulets, motifs of stars and crescents, depictions of birds and fish, and the use of precious stones such as turquoise, agate, emerald, and pearl are examined. Additionally, the symbolic and protective roles of belts, earrings, rings, and bracelets are explored. The article discusses the

role of jewelry in both individual and social life, its use in weddings and ceremonial contexts, as well as religious restrictions and evolving traditions over different historical periods. The research highlights that women's adornments expressed aesthetic taste, acted as protective and medicinal objects, and symbolized social status and familial roles. Furthermore, the historical development of ornamentation from the prehistoric period to the 19th century is outlined, including its religious and mythological roots. The study concludes that Azerbaijani women's jewelry represents a rich source for understanding cultural heritage, ethnography, and symbolic practices.

Keywords: women's jewelry, amulet, gemstones, ethnography, symbolism, Azerbaijan

Кямаля АЛИЕВА

ОБЫЧАИ И ТРАДИЦИИ, СВЯЗАННЫЕ С ЖЕНСКИМИ УКРАШЕНИЯМИ

Абстракт: В статье подробно исследуются исторические, этнографические и символические особенности женских украшений в Азербайджане. Основная цель исследования заключается в том, чтобы показать, что женские украшения выполняли не только эстетическую функцию, но и обладали религиозным, охранным и социальным значением. Для этого системно анализировались археологические раскопки, письменные источники и устные этнографические сведения. В статье представлены различные амулеты, мотивы звезд и полумесяцев, изображения птиц и рыб, а также использование драгоценных камней, таких как бирюза, агат, изумруд и жемчуг. Кроме того, исследованы функции поясов, серег, колец и браслетов как декоративных предметов, одновременно выполняющих охранную и лечебную роль. Рассмотрено значение украшений в индивидуальной и общественной жизни женщин, их использование на свадьбах и церемониях, а также религиозные ограничения и изменяющиеся традиции в разные эпохи. Исследование показывает, что женские украшения были одновременно выражением эстетического вкуса, защитным средством и символом социального статуса и роли в семейной жизни. В статье также освещается историческое развитие орнаментов на украшениях от первобытного периода до XIX века, их религиозно-мифологические корни и отражение мировоззрения народа. Таким образом, женские украшения представляют собой богатый материал для изучения культурного наследия, этнографии и символики. украшения представляют собой богатый материал для изучения культурного наследия, этнографии и символики.

Ключевые слова: женские украшения, амулет, драгоценные камни, этнография, символизм, Азербайджан

Giriş

Arxeoloji və etnoqrafik araşdırmalara əsasən müəyyən edilmişdir ki, orta əsrlər dövründə Azərbaycanda da animizm, totemizm, fetişizm kimi qədim təsəvvürlər mövcud olmuş və həmin təsəvvürlər bəzək əşyalarında əksini

tapmışdır. Bu mənada, bəzək əşyalarına yalnız estetik zövqün təzahürü kimi baxmaq düzgün hesab oluna bilməz.

Məlumdur ki, təbiəti və təbiət hadisələrini dərk etmək iqtidarında olmayan ibtidai insanlar dünyanın müxtəlif ruhlardan ibarət olduğunu güman edirdilər. Onlar özlərini pis ruhlardan qorumaq və xeyirxah ruhları köməyə çağırmaq üçün ən müxtəlif tədbirlərə əl atırdılar. Məsələn, onların formasını yaradır və ya hər hansı əşyanın üzərini müxtəlif işarələrlə bəzəməklə, bir növ müdafiə sistemi yaradırdılar. Bu baxımdan bəzən bəzək əşyaları və geyimlər də praktiki əhəmiyyətə malik olmaqla, qoruyucu və xəstəliklərin qarşısını almaq funksiyasını yerinə yetirirdilər.

İbtidai icma quruluşundan başlayaraq, insanların həyatına daxil olan və bütün dövrlərdə simvolik məna daşıyan müxtəlif amuletlər onları şər qüvvələrdən və xəstəliklərdən qoruma vasitəsi kimi istifadə edilmişdir. Bu amuletlər uşaqların boyunlarından asılır, yaxud da paltarlarının sol çiyninə tikilirdi. Onların üzərində Qurani Kərimdən ayələr, dualar yazıldığı üçün, "yazılı amuletlər" də adlanırdı. Azərbaycan ərazisində hələ tunc dövrü abidələrindən müxtəlif heyvan fiqurları şəklində hazırlanmış asmaların tapılması sübut edir ki, bu adət hələ islamdan əvvəlki dövrlərdə mövcud olmuşdur.

Asma medalyonlar yerli əhalinin fikrincə, nəsil artımı ilə əlaqədar idi. Azərbaycanlıların qədim dini etiqadlarına görə səma cisimlərini əks etdirən amuletlər böyük əhəmiyyətə malik olmuşdur. Bunlardan "ay-ulduz", "aypara", "gül", "şarlı" kimi bəzəklər ulduz, ay və günəşi təmsil etmişdir. Azərbaycan zərgərliyində geniş istifadə olunan bu bəzək ünsürlərindən biri də "ulduz" motividir. Qadın boğazaltılarının hazırlanmasında əsas bəzək ünsürü sayılan ulduz əsasən beş, altı, səkkiz və on guşəli olurdu. Ona qəlibləmə üsulu ilə hazırlanmış qızıl piləklərin üzərində də rast gəlinir. Bu bəzəkləri həm boyunbağı kimi boyundan asır, həm də alınlıq kimi baş bəzəklərində istifadə edirdilər (əsasən tatlarda və Şahdağ qrupuna daxil olan xalqlarda). Bir sıra bölgələrdə də bu bəzəklər muncuqlarla birlikdə işlədilirdi.

Naxçıvan üçün xarakterik olan "qarabatdaq" adlanan bəzəklərdə də ulduz motivini izləmək mümkündür. Bununla bərabər "aypara" sırğalar da dəbdə olmuşdur. Bu növ sırğalara "heydəri" sırğa deyilirdi. Onları əziz-xələf oğlan uşaqlarının bir qulağına taxırdılar ki, onu pis gözdən qorusun. Aypara formalı sırğaların Qafqaz Albaniyası ərazisində hələ eramızın I əsrində mövcud olması haqqında da məlumatlar vardır.

Azərbaycan ərazisində aypara formalı döş bəzəkləri də mövcud olmuşdur. Çöl-etnoqrafik materiallarından məlum olur ki, Azərbaycanın bəzi bölgələrində anadan təzəcə doğulmuş körpə uşaqlara aypara fiqurlu bəzək bağışlanırdı. Məlumatçı Kübra Hilal qızının (Biləcəri kəndi, 1926-cı il) sözlərinə görə, Bakı və Abşeron kəndlərində aypara oğlan uşaqlarının papağına, qızların isə paltarlarının döş hissəsinə taxılırdı. Bu amulet birinci uşaq dünyaya gələndə ona yaxın qohumları tərəfindən bağışlanardı. Quba bölgəsində zahı qadının yanına gələrkən digər hədiyyələrlə yanaşı, uşaq üçün qızıl aypara da gətirirdilər [1, s. 47].

Azərbaycan zərgərləri öz yaradıcılığında quş motivlərindən də istifadə etmişlər. Bu motiv Azərbaycan ərazisində Sasani imperiyasının hakimiyyət dövrü üçün xarakterik olub, sonralar isə naxış kimi işlənmişdir. Arxeoloji qazıntılardan tapılan maddi-mədəniyyət nümunələrində quş motivindən yaradıcılıqla istifadə

olunmuşdur. İran mədəniyyətinə xas olan bu təsvirlər təmizləyici, nəsil artırma və günəş simvolu sayılmışdır.

Hələ eramızın I əsrində tovuzquşu və xoruz Zərdüştün müqəddəs odunun qoruyucusu sayılmışdır. Sonrakı dövrlərdə digər dinlərdə də quşa müsbət münasibət bəslənilmişdir.

Xalq inam və inaclarında insan ruhunun quşda, xüsusilə göyərçində yerləşməsi haqqında fikirlər geniş yayılmışdır. Ümumiyyətlə, quş səma ilə əlaqədar olduğundan günəş allahının rəmzi kimi qavranılmışdır. XIX əsrdə Rusiya imperiyasının və müasir Rusiya Federasiyasının gerbini ikibaşlı qartal təsviri bəzəyir. Azərbaycan imperiyanın hakimiyyəti altında olduğu üçün, bir çox sənət nümunələrinin hazırlanmasında quşların stilizə edilmiş təsvirlərindən istifadə edilmişdir. Lakin, azərbaycanlı ustalar bu quşları bir növ göyərçinə bənzər formada hazırlayırdı [3, s.122]. Xalq göyərçini paklığın, nəcibliyin və azadlığın rəmzi hesab etdiyindən, onu ovlamaq, öldürmək böyük qəbahət sayılmışdır. Sənətkarlar da bu etiqadı incəsənətdə bədii təsir formasına çevirirdilər.

Zərgərlik nümunələrində balıq süjetli təsvirlərdən də geniş istifadə edilmişdir. Onlara Lənkəran və Bakı bölgəsi əhalisinin bəzəklərində daha çox rast gəlinir. Hətta Azərbaycan xalçaçılığında "balıq" adlanan ayrıca xalça növü də vardır [13, s.17, 1]. Bu cəhəti Mərkəzi Asiya və Qafqaz xalqları arasında da müşahidə etmək mümkündür.

Qadın bəzək əşyaları arasında qızıldan hazırlanmış "arpa" adlanan bəzəklərin də özünəməxsus rolu olmuşdur. Bu bəzək arpa formasında olduğu üçün belə adlanmışdır. O, həm boğazlatı kimi işlənmiş, həm də bir sıra qadın üst geyimlərinin yaxa və ətəyini bəzəmişdir. Arpa bolluq rəmzi sayılmış, artım nişanəsi hesab edilmişdir.

Gözmuncuğuları da yalnız bəzək ünsürü kimi deyil, eyni zamanda qoruyucu vasitə kimi geniş istifadə olunmuşdur. Yaman gözdən, bədnəzərdən qorunmaq vasitəsi kimi o, indinin özündə də özünəməxsus funksiyanı yerinə yetirməkdədir. Mərkəzi Asiya xalqları arasında gözmuncuğu "kuzmulçok" adlanır [19, s.92].

İnsanlar gözmuncuqları ilə bərabər, mərcan muncuqları da ilahiləşdirirdi. XIX əsrdə mərcan muncuqlar dünyanın bir sıra ölkələrində ən çox dəbdə olan muncuq növü olmuşdur. Bu muncuqların rəngi qırmızı olduğu üçün, insanlar ona sağlamlıq rəmzi kimi baxırdı. Bu muncuq növü Ukrayna, tacik, özbək və s. kimi müxtəlif dini əqidəyə malik xalqların nümayəndələri tərəfindən də böyük məmnuniyyətlə gəzdirilirdi.

Tacik və özbəklərdə mərcan muncuqları əsasən cavan qızlar və qadınlar gəzdirirdi. Milli ənənələrə görə bu muncuqlar var-dövlət və bolluq rəmzi sayılır, nəsil artırma simvolu kimi çoxuşaqlılığı təmin edirdi. Mərcan muncuqlar Azərbaycan qadınları arasında da dəbdə olmuşdur.

Azərbaycan zərgərləri bəzək əşyalarının hazırlanmasında qiymətli daşlardan da istifadə etmişlər. Bəzək elementi olmaqla bərabər, bu daşlar sehrli qüvvəyə malik hesab edilmiş və bu fikir uzun müddət insanların təfəkküründə yaşamışdır. Bir sıra daşlara isə müalicəvi əhəmiyyətinə görə münasibət bəslənirdi [10, s.157].

Orta əsrlərdə yaşayıb-yaratmış Nəsirəddin Tusi "Cavahirnamə" əsərində qiymətli minerallardan qırmızı yaqut, göy yaqut, almaz, ləl və firuzə kimi daşların

təsvirini vermiş, yarımqiymətli daşlardan isə süleymandaşı, mirvari, ametist, malaxit və s. xüsusiyyətlərindən bəhs etmişdir. O, qiymətli mineralların və yarımqiymətli daşların müalicə əhəmiyyətini də göstərmişdir [6, s.8].

Etnoqrafik materiallardan da aydın olur ki, azərbaycanlı zərgərlər öz işlərində "Cəvahirnamə" əsərində adları çəkilən qiymətli daşlardan istifadə etmişlər. Bu baxımdan firuzə digər daşlara nisbətən daha üstün mövqeyə malik olmuşdur. N.Tusi firuzənin yeddi növünün olduğunu qeyd etmişdir [6, s.22].

Firuzə daşı ilə əlaqədar bir sıra inamlar da məlumdur. Həmin inamlara görə o, insana xoşbəxtlik və xoş əhval-ruhiyyə gətirir. Xüsusilə qadınlar həmişə firuzə gəzdirməlidirlər ki, sevdikləri şəxsin onlara qarşı məhəbbəti artsın.

Təmizlik rəmzi sayılan firuzə daşı haqqında Əbu Reyhan Əl-Biruni yazırdı: "...Firuzə gözdəymədən xilas edir və onu gəzdirənə qələbə gətirir" [10, s.157].

Azərbaycanlıların etdiqlarına görə, firuzə qaşlı üzük insanlara xoşbəxtlik gətirir. Qadın ərinə xəyanət edərsə, firuzə rəngini dəyişərək qaralar.

Farsların qədim etiqadlarına görə, firuzə sevgidən ölmüş insanların sümüklərindən əmələ gəlmişdir [14, s.107].

Ona çox baxdıqda insanın görmə qabiliyyəti artır, əhval-ruhiyyəsi yaxşılaşır, gün ərzində pis fikirlərdən uzaqlaşır və gecələr qorxulu yuxulardan azad olur. Deyilənlərə görə, firuzə daşı köhnəlir, təzələnir və yenidən dirilir. Müxtəlif yağlar, sabun və nəmliyin təsiri altında o, rəngini də dəyişə bilir. Firuzə daşına və firuzə qaşlı üzüklərin üzərinə "Qurani-Kərim"dən kəlamlar yazılırdı.

yaşadan dünya ölkələri bu tip abidələrin qorunması, arxeoloji qazıntı aparılan abidələrə birbaşa turistlərin gəlişinin təmin edilməsi və reklam bukletlərinə istirahət məkanları və müalicə-sanatoriya mərkəzləri ilə yanaşı tarixi-arxeoloji abidələrin şəkillərinin və ünvanlarının salınmasını həyata keçirir. Dünya təcrübəsində arxeoturizmin təşəkkülü və inkişaf etdirilərək müasir duruma gətirilməsi çoxilliklərin təcrübəsinə əsaslanır. Türkiyədə bu sahənin inkişafına hələ XX əsrin 50-60-cı illərindən başlanılmışdır. İndi isə bu sahə turizmin ayrılmaz tərkib hissəsi olaraq ölkə iqtisadiyyatına külli miqdarda gəlir gətirməkdədir. Hətta ölkənin illik büdcə hesabatlarında turizmdən gələn vəsaitin həcmi ayrıca hesablanır. Təbii ki, burada atxeoturizmin payı inanılmaz rəqəmlərlə ifadə olunur. İstanbul, İzmir, Efes, Manisa, Antaliya, Mersin, Muğla, Urfa, Qaziantep və s. onlarla şəhərlərində antik yunan və Roma şəhər qalıqları, orta əsr Səlcuqlu, Bizans və Osmanlı qəsrləri ilə yanaşı ölkənin qədim dövr abidələrini seyr etmək üçün on minlərlə turist hər il Türkiyəyə gəlir. Son illərdə Urfa yaxınlığında Göbəklitəpə abidəsinin ziyarətçilərinin sayında inanılmaz artım burada aparılmış irimiqyaslı arxeoloji qazıntılar zamanı üzə çıxarılmış möhtəşəm daş dövrü ibadətgahlarıdır.

Belə nümunələri İran, İraq, İordaniya, Misir, Yunanıstan, İtaliya, bütün Yaxın və Orta Şərq, Mərkəzi Avropa, Orta Asiya, Hind-Çin ölkələrinə də aid edə bilərik və statistik göstəricilər inanılmaz rəqəmlərlə ifadə olunur. Son illərdə Özbəkistan, Türkmənistan və Qazaxstanda arxeoloji qazıntıların əsas istiqamətinin arxeoturizmə yönəldilməsi diqqətdə saxlanılır. Qədim əkinçilik mədəniyyəti mərkəzləri sayılan Anay, Namazqatəpə, Altuntəpə, Sapallitəpə və s. abidələrdə aparılan bərpa-rekonstruksiya işləri arxeoturizm sahəsinin inkişaf etdirilməsinə istiqamətlənmişdir.

Azərbaycan ərazisində arxeoturizmə istiqamətləndirilə biləcək xeyli arxeoloji-tarixi və memarlıq abiələri vardır. Belə abidələrin böyük bir qismi də qərb bölgəsində, xüsusilə Qazax rayonu ərazisindədir [1, s. 140-170]. Qazax rayonunda daş dövründən başlayaraq son orta əsrlərə qədər maraqlı və yüksək əhəmiyyət dərəcəsi ilə seçilən abidələrin böyük bir qrupu Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində cəmləşmişdir.

Avey qoruğunda arxeoloji tədqiqatların yeni istiqamətləri. Avey Dövlət tarix-mədəniyyət qoruğu zəngin tarixi-memarlıq və arxeoloji abidələrin rast gəlindiyi məkanlardan biri olaraq ən qədim daş dövrünə aid olan Avey mağarasının və dağ zirvəsində yerləşən Avey məbədinin adı ilə adlandırılıb. Avey qoruğunun əsas iş prinsipi qoruğun inzibati sərhədləri çərçivəsində tarixi-arxeoloji abidələr haqqında məlumat toplamaq və bu abidələrin qorunması, toxunulmazlığı və bərpasını təmin etməkdir. Bununla yanaşı olaraq qoruq eyni zamanda paralel olaraq bölgənin etnoqrafiyası və folkloru ilə də məşğuldur. Qoruğun ərazisində olan arxeoloji və memarlıq abidələri, daşınan və daşınmaz tarixi və mədəniyyət abidələri qoruğun əsas mülkiyyəti hesab olunur. Ərazidə onlarla paleolit, mezolit, xalkolit, tunc, erkən dəmir, antik və orta əsrlər dövrlərinə məxsus abidələr mövcuddur. Qoruqda üç filial – Əskipara filialı (sahəsi 2783 ha), Damcılı filialı (sahəsi 800 ha), Göyəzən filialı (sahəsi 30 ha) fəaliyyət göstərir. Qoruğun ərazisində indiyədək 56 tarixi abidə qeydiyyata alınmışdır ki, bunlardan 1-i dünya, 33-ü ölkə, 22-si isə yerli əhəmiyyətlidir. Bunlardan 15-i memarlıq, 36-sı arxeoloji, 5 ədədi isə dekorativ tətbiqi sənət nümunəsinə aiddir.

Avey Dövlət tarix-mədəniyyət qoruğunun yerləşdiyi ərazi zəngin təbii coğrafiyası, əsrarəngiz relyefi və təbiəti, təbii ehtiyatları ilə hələ ən qədim dövrlərdən insanların bu ərazidə məskunlaşmasına səbəb olmuşdur. Arxeoloji-tarixi abidələrlə zəngin olan ərazidə hal-hazırda arxeoturizmin inkişaf etdirilməsi üçün münasib imkanlar vardır. Şübhəsiz ki, bu abidələr ilk növbədə turistlərin diqqətini çəkəcək zəngin arxeoloji-tarixi abidələrdir [2; 3]. Qoruq ərazisində elə unikal abidələrimiz vardır ki, belə abidələrə heç bir qədim mədəniyyətə malik olan ölkələrin ərazisində də rast gəlinmir.



Şəkil 1. Avey dağında alban məbədi

Qoruqda ilk arxeoloji tədqiqatlar keçən əsrin 50-60-cı illərində mərhum arxeoloq M.M.Hüseynov tərəfindən aparılmış, bu tədqiqatlar ərazinin arxeoloji baxımdan öyrənilməsinin əsasını qoymuşdur [12; 13]. Xüsisilə son illərdə isə qoruq ərazisindəki Damcılı mağarasında yapon alimləri ilə birlikdə yerli arxeolqların apardıqları araşdırmalar ərazinin qədim mədəniyyət mərkəzlərindən biri olmasını bir daha sübut etməklə yanaşı, burada ibtidai insanın yaşayışının izlərini, daş dövrü sakinlərinin həyat tərzini öyrənməyə imkan verən xeyli sayda maddi qalıqların aşkar edilməsinə səbəb olmuşdur. Damcılı mağarasında tədqiqatların uğurlu nəticələri olmuş, dünya mətbuatının dəfələrlə işıqlandırdığı nəşr işi olan "Damcılı mağarası" kitabının Yaponiyada təqdimatı keçirilmişdir. Damcılı mağarasındakı tədqiqatlar bir daha sübut etmişdir ki, qoruğun ərazisindəki nadir və unikal abidələrdən sayılan bu tip abidələr ərazinin qədim insan sivilizasiyasının ilk məskənlərindən olmuşdur.

Avey Dövlət tarix-mədəniyyət qoruğunun Göyəzən filialı ərazisində, eyniadlı dağın ətəklərində aparılmış arxeoloji tədqiqatlar burada erkən xristianlıq dövrünə aid olan qəbir abidələrinin tədqiqi sahəsində də mühüm uğurlara imza atmağa imkan verdi. Məlumdur ki, Qafqaz Albaniyasının Kambisena vilayətinin mərkəzi ərazilərindən sayılan müasir Qazax-Ağstafa bölgəsi xristian abidələri ilə də zəngindir. Avey alban məbədi, Əskipara alban məbədi və ərazidə onlarla alban qəbirləri, erkən xristianlıq dövrünü özündə ehtiva edən mağara komplekslər və bu qəbildən olan çoxlu abidələr Qafqaz Albaniyasının bir parçası olan bu ərazinin maddi mədəniyyətini öyrənmək baxımından özünəməxsus rola malikdir [9].



Şəkil 2. Avey məbədi qarşısındakı xristian məzarlığı (soldan qoruğun direktoru p.ü.f.d. S.B.Əliyeva və albanşünas alim, t.ü.f.d. Ü.Ş.Hacıyeva müzakirələr zamanı)

Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində arxeoloji tədqiqatların ikinci istiqaməti ərazinin tunc dövrü abidələrinin arxeoloji tədqiqidir. Bu istiqamətdə son illərdə qoruq ərazisində Qazax arxeoloji ekspedisiyasının apardığı tədqiqatlar mühüm elmi nailiyyətlərin ortaya qoyulmasına imkanlar açmışdır. Ekspedisiya 2023-cü ildən Qazax rayonunda, Avey Dövlət tarix-mədəniyyət qoruğunun ərazisində arxeoloji tədqiqat işlərini həyata keçirir. Arxeoloji ekspedisiya üç sahədə (Avey alban məbədi, Damcılı və Göyəzən kurqanları), iki elmi istiqamət (tunc və antik dövr mədəniyyətlərinin tədqiqi) üzrə tədqiqatlar aparır.

İlk olaraq Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisindəki Avey dağı zirvəsində alban məbədində tədqiqatlar aparılmışdır. Alban məbədi hesab edilən qədim məbəd Qazax rayonunun Daş Salahlı kəndinin ərazisində, Avey dağının cənub zirvəsində yerləşir (şəkil 1). 4,5×3,5 m və 3,5×2,5 m ölçülü iki otaqlı məbəd yerli Avey daşından inşa edilmişdir. Şimal hissəsinin tavanı tağvari, cənub hissəsinin tavanı isə konusvari kümbəzlə tamamlanır. Məbəd dəniz səviyyəsindən 922 metr yüksəklikdədir [4, p. 68].

Məbədin tarixi ilə bağlı müxtəlif mənbələrin məlumatları vardır. Bunları ümumiləşdirərək və aparılmış qazıntılardan əldə edilən materiallara əsasən məbədin V-VII əsrlərdə Qafqaz Albaniyası dövlətinin dövründə tikildiyi ehtimal edilir. Lakin memarlıq üslubuna görə xristianlığa qədərki Albaniya dövrünün abidələrinə daha çox bənzəyir. Roma və yunan memarlıq üslubu hiss edilir. Görkəmli tarixçi Q.Qeybullayevin fikrincə, "Avey" sözü qədim türklərdə "Ay evi" mənasını verir və məbəd yunan Ay ilahəsi Selenanın şərəfinə inşa edilmişdir. Bildiyimiz kimi, xristianlığa qədərki Albaniyada çoxallahlı dinə sitayiş edilmişdir və burada Roma və yunan allahlarına səcdə olunurdu. Digər bir versiyaya görə isə, bura ov yeri (indi də Qazax dialektində "ov" sözü "oy" kimi də ifadə olunur) olub. Lakin buranın ov yeri olması bir qədər təəccüb və şübhə doğurur. Çünki, ərazi ovalıq yox dağlıq ərazidir [4, p. 69].

Məbədin daxilində, hücrə yerlərinin birinin yuxarısında, şərq tərəfə açılmış pəncərənin yaxınında göl naxışlı bəzək elementi ilə əhatələnmiş alban xaçı təsvir edilmişdir. Bu xaç daş üzərində qabartma üsulu ilə yonulmuş, həkk edilmişdir. Xarici hissədə isə məbədin qərb tərəfində, yuxarıda eynilə daxildəki kimi xaç təsviri vardır. Hər iki xaçın üzəri zədələnmiş, hansısa küt alətlə qaşınmış, müəyyən tərəfləri qopub düşmüşdür. Avey məbədinin həyətində XIX əsrin 70-80-cı illərində qəbirlər aşkar edilmişdir. Qəbirlərin sinə daşları albanlara xas olan üslubda naxışlanmışdır. Daşlarının birinin üstündə emblem kimi albanlara məxsus lotos gülü və onun yuxarı künclərində günəş simvolu olaraq içərisi 8 hissəyə ayrılmış rozetka qazılmışdır.

Ümumilikdə, 2023-ü il qazıntıları zamanı məbədin həyətindən 34 ədəd sinə daşı aşkar edildi. Onların bəziləri isə (təxminən 3 ədədi) üst-üstə aşkarlandı. Güman ki, aralarında zaman fərqi çox olmuş və dəfnlər üst-üstə icra edilmişdir (şəkil 2). Yaxın ətrafda vaxtilə xəndək qazıntısı zamanı da belə qəbirlərin tapılması haqqında yerli əhalinin verdikləri məlumatları eyniləşdirsək görərik ki, məbədin bütün ətrafı boyunca xristian qəbirlərinin sayı çoxdur və onlar müasir yer səthindən 10-15 sm dərinlikdən başlayaraq aşkar edilirlər.

Maraqlı və məzmunlu arxeoloji tapıntılar əldə edilmişdir. 1 saylı qəbirdə insan kəlləsi yanından, çənə sümüyü ətrafından mis sikkə tapıldı. Mis sikkənin üzəri oxunarkən aydın oldu ki, bu dirhəm Elxani (Hülakü) hökmdarı Abaqa xan dövründə zərb edilmiş pul nişanıdır. Mis dirhəm hicri 663-cü ildə (miladi 1265) Təbrizdə zərb edilmiş, ölçüləri: diametri 20 mm, çəkisi isə 2,76 qramdır. "Qaan əl-adil" növünə aid mis dirhəm hesab olunur. Ehtimal ki, mis pul nişanı mərhumun ağzına qoyulmuşur. Belə bir adətin xristian dəfnlərində mövcud olması ilə bağlı məlumatlar vardır. İnsan skeletinin üzərindən mis sikkənin tapılması mərhumun dəfn olunduğu dövrü müəyyən etmək baxımından əhəmiyyətli tapıntı idi. Abaqa dövrünə aid sikkələrin bəzilərində xristian xaçı təsvir olunmuş və ərəb dilində "Ata, Oğul və Müqəddəs Ruhun adı ilə, yalnız bir Tanrı" yazısı vardır [4].

Qazıntı işləri aparılmasa da ekspedisiya Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində, qoruğa daxil olan nadir abidələrdən hesab olunan alban məbədi ətrafındakı mağaralar ilə tanış olmuş, qeydiyyat aparılmışdır (şəkil 3). Mağaralar Avey məbədinin yerləşdiyi dağ zirvəsinin bir qədər az hündürlük məsafəsini saxlayan aşağı sahəsində yerləşirlər. Giriş-çıxış imkanları bir qədər çətin olan mağaraların ağzı sərt qayalıqlarla əhatələnmişdir. Mağaralar sanki bir cərgədə, dairəvi, dövrələmə bir xətt boyunca yerləşirlər. Onların girişi bəzilərində çox səliqəli yonulmuş, bəzilərində isə sərt qaya daşlarının girintili-çıxıntılı hissələri ilə müşayiət olunurlar. Mağaraların giriş hisssələrinin hündürlüyü 1-1,5 m olmaqla ağızda divar hissənin qalınlığı təxminən 1-2 m-ə qədərdir. Mağaraların daxili divarları demək olar ki, hamısında çox qalın olan his təbəqəsi ilə örtülmüşdür. Xüsusilə mağaraların tavanında bu his qatı çox qalındır və bərkimişdir. Buna səbəb isə yuxarıdan nəmin, yağış sularının yaratdığı nəmişliyin daşlara hopması və aşağı hissədə yandırılan tonqalın his təbəqəsinin nəmlənmiş əhəngdaşına hopması nəticəsində yaranan qatdır. Mağaraların içərisi bəzən bir, bəzən isə 2-3 otaqlıdırlar [4]. Bu otaqlara giriş iç-içədir. Otaqların sahəsi 15-20, bəzən isə hətta 30-40 m^2-dək olur. Mağaraların içərisində çox yerdə rastlaşdığımız artefaktlar keramika nümunələri idi. Keramika nümunələrinin əksəriyyəti antik dövrü xarakterizə edir. Bu isə çox maraq və araşdırılması vacib olan məqamlar ortaya çıxartmış olur. Belə ki, yuxarı hissədə Alban məbədinin salındığı dövr, məbəd ətrafından tapılan antik və orta əsr keramikası, mağaraların divarlarında rast gəldiyimiz müxtəlif yazı və işarələrin eynisinin məbəd divarlarınada da mövcud olması düşündürücü faktlar və suallar ortaya çıxarır. Ehtimal edilə bilər ki, Avey məbədində ilkin dövrlərdə ibadət edən xristianlar, albanlar öz kahinləri və müqəddəs saydıqları din adamları üçün aşağıda mağaralar salmış, onlar burada qalaraq ibadətlə məşğul olmuşlar. Təbii ki, bu araşdırılması tələb olunan məqamlardan biridir və bunun üçün də ərazidə kompleks arxeoloji tədqiqatlara ehtiyac vardır.

Ekspedisiyanın tunc dövrü mədəniyyətini öyrənməklə bağlı apardığı tədqiqatlar qoruğun Damcılı filialı ərazisindəki eyniadlı kurqanlar və Göyəzən filialı ərazisindəki kurqan qəbirləri olmuşdur [7, s. 49-50].



Şəkil 3. Avey alban məbədi ətrafındakı mağaralardan biri

Avey kurqanları ümumilikdə Avey dağının bütün yaxın ətrafı boyunca yayılmışlar. Bu kurqanlar yerli əhalinin adlandırdığı lokal yer adları ilə daha çox tanınırlar. Dəlləkli kurqanları, Yovşanlı təpə kurqanları, Daşlı çökək kurqanları, Bərkin ağzı kurqanları və s. Bu kurqanların bəzilərinə yerindəcə baxış keçirilsə də, onların yerləşmə xüsusiyyətləri və strukturu haqqında müəyyən elmi informasiya verilsə də ərazidə kompelks arxeoloji qazıntılar aparılmamışdır. İlk dəfə 1961-ci ildə Qazax arxeoloji ekspedisiyası mərhum arxeoloq C.N.Rüstəmovun rəhbərliyi altında (ekspedisiyanın tərkibidə F.M.Muradova və İ.H.Nərimanov da iştirak etmişlər) Avey ətrafında arxeoloji tədqiqatlar apararkən

kurqan abidələri haqqında məlumat vermiş, Avey dağının şimal-şərq ətəyindəki Bərkin ağzı adlanan yerdə kurqanları qeydə almışdır [10, s. 25-34]. Ekspedisya eyni zamanda Daş Salahlı və Aslanbəyli kəndləri arasında tunc dövrünə aid yaşayış yeri və kurqanlar da qeydə almış, yaşayış yerində yoxlama qazıntısı aparmış və 1 kurqan abidəsi qazaraq tədqiq etmişdir. Bu barədə təqdim edilmiş elmi hesabatda və C.N.Rüstəmovun İ.H.Nərimanovla birlikdə 1965-ci ildə Azərbaycanın Maddi Mədəniyyəti toplusunun 6-cı cildində çap edilmiş "Aveydağda qədim yaşayış yeri və kurqan qəbirləri" başlıqlı məqalələrində ətraflı məlumat verilmişdir [11, s. 44-50]. 1989-1990-cı illərdə Qazax arxeoloji ekspedisiyası Daş Salahlı kəndinin qərb qurtaracağında yeni yaşayış yeri, qəbristanlıq və kurqanlar qeydə almışdır. Bu kurqanlar Daş Salahlı və Aslanbəyli kəndləri arasındakı torpaq yolun şərqində, köhnə üzümlük sahəsinin içərisində yerləşirdilər. Yerli əhalinin Yovşanlı təpə və Daşlı çökək adlandırdığı bu ərazidə ekspedisiya 4 kurqan abidəsi qazaraq tədqiq etmişlər [Rüstəmov, Muradova, 2014, s. 25]. Əldə edilən arxeoloji materialların bəziləri Azərbaycan Milli Tarix Muzeyinin arxeoloji fonduna təhvil verilmişdir. Avey Dövlət tarix-mədəniyyət qoruğu yarandıqdan sonra bir çox abidələr kimi kurqanların da qorunması nəzarətdə saxlanılmaqdadır. Lakin aradan keçən onilliklər ərzində Avey kurqanlarının qazıntısı mümkün olmamışdır. Qazax arxeoloji ekspedisiyası (Ş.N.Nəcəfovun rəhbərliyi ilə) 2012-2014-cü illərdə Avey ətrafındakı kurqanlara arxeoloji baxış keçirmiş onların sayının müəyyənləşdirilməsi istiqamətində işlər görmüşdür. 2013-2014-cü illərdə ekspedisiya Daş Salahlı (Dəlləkli) kurqanlarının qeydiyyatını aparmış, onların bəzilərinin elektron xəritəsi hazırlanmış və Qazax rayonu abidələrinin elektron xəritəsinə salınmışdır.

2024-cü ildə Qazax arxeoloji ekspedisiyasının Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində, Damcılı filialının əhatə zonasında, kurqan qəbirlərində apardığı arxeoloji tədqiqatlar bu istiqamətdə ciddi elmi araşdırma işi olmuşdur. Qazıntı üçün kurqan qəbirləri Daş Salahlı kəndinin yuxarı hissəsində, Avey dağının ətəklərində, kənddən təxminən 300-400 m aralıda, yerli əhalinin Dəlləkli adlandırdığı qəbristanlığın yaxın əhatəsində seçilmişdir [8, s. 155-156]. Bu ərazidə təxminən 40-dan çox kurqan qəbri qeydə alınmış, onlardan 4-ündə qazıntılar aparılmışdır. Kurqanlar Avey dağının ətəklərindən başlayaraq kənd evlərinin başlandığı sahəyə qədər, hazırda fəaliyyət göstərən "Mətanət" və "Arkozsement" müəssisələrinin sərhədlərinə qədər uzanırlar.



Şəkil 4. 1 saylı Göyəzən kurqanı

Avey Dövlət tarix-mədəniyyət qoruğunun Göyəzən filialının yerləşiyi Alpout kəndi tarixi-arxeoloji abidələrlə zəngin məkandır. Təbiət abidəsi hesab edilən Göyəzən dağı bu kəndin ərazisində yerləşir. Göyəzən həm də antik və orta əsrlərdə insan yaşayışının izlərini özünə qoruyub saxlayan unikal tarixi abidələrdən sayılır. Alpout kəndi ərazisində, Göyəzən dağının yaxın ətrafında kurqan qəbirlər qeydə alınmışdır (şəkil 4). Bu kurqanların bir qismi də Göyəzən dağından şərqdə, Armudlu dağının ətəyində və Murovul dağına istiqamətlənən geniş maili düzən ərazidə yerləşirlər [7]. Arxeoloji ekspedisiya kurqanların yaxın çevrəsində, onlardan şərqdə yerləşən Murovul alçaq dağının ətəklərinə və zirvəsinə baxış keçirmişdir. Burada tunc və erkən dəmir dövrlərinin zəngin arxeoloji materialları aşkar edilmişdir. Murovul yaşayış yeri hündür dağ zirvəsində yerləşməklə bölgənin unikal yaşayış məkanlarından hesab edilməlidir. Yüksək dağ zirvəsində adətən belə yaşayış yerləri müdafiə istehkamlarına malik olur və bunlar müdafiə hasarlı yaşayış yerləri adlandırlır. Dağın zirvəsində relyef-təbiət xüsusiyyətləri nəzərə alınmaqla əlverişli yaşam tərzinin seçilməsi hiss olunur. Təbii qayalar, bu qayaların ətrafında oyulmuş sığınacaq yerləri, qalacaqlar, hətta oturacaq yerləri müşahidə olunmaqdadır. Yaşayış yeri təxminən 200 m hündürlükdə yerləşir. Heç şübhə yoxdur ki, məhz Murovul yaşayış yerinin sakinləri yaxınlıqda öz dəfnlərini həyata keçirmiş və hündür dağ zirvəsindən aşağı ətrafa baxanda bu dəfn yerləri - əsasən kurqanlar və tək-tək yerləşən qəbirlər

aydın görünür. Tədqiq etdiyimiz və Göyəzən (Murovul) kurqanları adlandırdığımız bu kurqanların məhz Murovul yaşayış yerinə aidliyi şübhə doğurmur. Bu baxımdan ərazidə kompleks arxeoloji qazıntıların aparılması elmə faydalı olmaqla yanaşı, həm yaşayış yerinin, həm də bu yaşayış yerinin qədim sakinlərinin dəfn abidələrini öyrənmək baxımından əhəmiyyətli olacaqdır. 2025-ci ildə Murovulda arxeoloji tədqiqatlar aparılmış, ərazidə tunc dövrünün sonu və erkən dəmir dövründə müdafiə hasarlı yaşayış yerinin olması, sahənin divarlarla möhkəmləndirilməsi və zəngin maddi mədəniyyət bazası müəyyən edilmişdir.



Şəkil 5. Xalxalda su anbarının qalıqları (ilk orta əsrlər)

Avey qoruğunda arxeoloji abidələrin arxeoturizm təyinatı. Qoruq ərazisində istər arxeoloji qazıntısı aparılan, istərsə də tədqiqata hələlik cəlb edilməyən bütün abidələrin arxeoturizm imkanları genişdir. Damcılı və Daş Salahlı mağaralarının, Avey alban məbədinin, mağaralar kompleksinin, Xalxal şəhər yeri hesab edilən antik və ilk orta əsr şəhər yerinin (şəkil 5), Murovul yaşayış yerinin, Göyəzən təbiət abidəsi və onun ətrafındakı qala bürclərinin, kurqan abidələrinin hər biri arxeoturizm üçün potensial abidələrdir. 2023-2025-ci il tədqiqatları zamanı arxeoloji qazıntıların gedişində buraya canlı seyrə gələn yerli və əcnəbi turistlərin simasında ərazinin real arxeoturizm imkanları aydın görünür. Turistlərin marşrutlarına salınan ərazinin tarixi-arxeoloji abidələrinin onlarda yaratdığı maraq və həvəs bir daha onu sübut edir ki, qoruq ərazisində arxeoparkların yaradılması və bu istiqamətdə aparılacaq layihələndirmələr uğurlu nəticələr verə bilər. Təkcə qoruğun maddi-texniki bazasını gücləndirməyə deyil, eyni zamanda bölgənin turizm rayonlarından birinə çevrilməsinə dəstək ola

biləcək arxeoparkların yaradılması müasir dövrün tələblərindən biri kimi qiymətləndirilməlidir. Məqsəd, Avey qoruğunda turizmin bir növü olan arxeoturizmi inkişaf etdirmək və bunun ilk nəzəri-praktiki bazasını yaratmaqdır. Çox zəngin arxeoloji-tarixi abidələrə malik olan qoruğun həmin abidələrini turizmin gəlirli bir sahəsinə çevirmək əsas məqsəddir. Təbii ki, bunun davamında isə digər mühüm məqsədlər – abidələrimizin təbliği, xarici iddialara qarşı əsaslı cavab, abidələrimizi dağılmaq təhlükəsindən qurtarmaq, arxeoloji tədqiqatlar və s. dayanır. Qoruq ərazisindəki abidələrimizin turizm obyektlərinə çevrilməsi; - bəzi arxeoloji abidələrimizin turist marşrutlarına salınması; - qoruğun arxeoturizm potensialını nümayiş etdirən elektron xəritənin yaradılması; - reklam buklet-banerlərin, internet-reklam guşələrinin yaradılması; - arxeoloji qazıntı aparılan sahələrin real gəlirli bir sahəyə çevrilməsi; - qoruğun bəzi tarixi-arxeoloji abidələrinə əsassız iddialara tutarlı cavab verilməsi və bu məqama turistlərin diqqətinin yönəldilməsi və s. arxeoturizmlə bağlı layihələrin əsas məqsədini təşkil etməlidir. Arxeoparkların yaradılması əsasında respublikamızın gündən-günə inkişaf etməkdə olan turizm potensialına arxeologiyanın töhfələrini də əlavə etmək və bunun kökündə xarici ölkə təcrübəsinə əsaslanmaq dayanmalıdır. Arxeoturizmin milyonlarla gəlir gətirdiyi bir zamanda bu sahənin Azərbaycanda, eləcə də Avey Dövlət tarix-mədəniyyət qoruğunda inkişaf etdirilməsi və formalaşdırılması fikrimizcə zamanın tələbidir və bu sahəni mütləq inkişaf etdirmək lazımdır.

Arxeoturizmin nəzəri əsaslarını hazırlayarkən bu sahədə aparılacaq tədqiqatlar elmi baxımdan düzgün, əhatəli və məzmunlu olmalı, tarixi təhlil metodlarına əsasən aparılmalıdır. İşinin elmi-metodoloji əsasını əldə olunmuş arxeoloji, tarixi, memarlıq, antropoloji və etnososioloji materialların təhlilinə elmi yanaşmaq prinsipi təşkil etməlidir [5; 6]. Son illərin arxeoloji qazıntılarının nəticələrinə və bu nəticələri özündə əks etdirən hesabatlara, ədəbiyyatlara istinad edilməli, məsələyə sırf müasir tələblər baxımından yanaşılmalı, xarici ölkələrin arxeoturizm sahəsində irəliləyişlərinin metodologiyasına nəzər yetirilməlidir. Avey qoruğunda arxeoturizmlə bağlı layihələrin irəli sürülməsində əsas məqsəd rayonun çox zəngin, maraqlı və unikal arxeoloji-tarixi abidələrinin xarici və yerli turistlərin diqqətinə çatdırılması, onların reklam edilməsi, turistlərə daha rahat, uyğun marşruta malik abidələrin göstərilməsi, bu abidələrin üzərində azərbaycan və ingilis dillərində pasport lövhələrin vurulmasının təşkil edilməsi, internet saytının yaradılması və qoruğun arxeoloji abidələrinin elektron xəritəsinin yaradılması və s.-dən ibarətdir.

Respublikamızın qərb qapısı sayılan Qazax rayonu turistlərin daha sıx rast gəlindiyi ərazilərdəndir. Bu bölgədə salınan onlarla yeni istirahət zonalarında yüzlərlə xarici və yerli turistlər dincəlirlər. Bu potensialdan faydalanmaq yerinə düşərdi. İndiki durumda məhz erməni saxtakarlığına və fitnələrinə arxeoloji-tarixi dəlillərlə cavab verdiyimiz bir vaxtda, erməni alimlərinin abidələrimizə iddia etdiyi bir zamanda, alban abidələrini riyakarcasına YUNESKO-da öz adlarına çıxardıqları bir zamanda, nəinki öz ərazimizdə, hətta indiki Ermənistan adlanan respublikanın ərazisində qədim abidələrimizin, yurd yerlərimizin tarixi həqiqətə söykənərək əslində bizə maddi-mədəni abidələri ilə dünyada tanınan Qafqazın ən qədim xalqına məxsus olmasını rəsmi dövlət səviyyəsində elan etdiyimiz bir

zamanda bu tip layihələrin həyata keçirilməsi gündəmdə olmalıdır.

Avey Dövlət tarix-mədəniyyət qoruğunda planlaşdırılan arxeoturizm layihələrinin gerçəkləşməsi ilk növbədə iqtisadiyyatımıza xeyli gəlir gətirəcək və arxeologiyanın iqtisadiyyata tətbiqi imkanlarını artıracaqdır. Digər tərəfdən turist marağına səbəb olan arxeoloji abidələrimiz dünyada tanınacaq və bu da Azərbaycan xalqının qədim maddi mədəniyyətə malik bir xalq olmasını təsdiqləmiş olacaq. Son olaraq isə arxeoloji-tarixi və memarlıq abidələrimizin bir çoxu dağılmaq təhlükəsindən qurtaracaq və Avey qoruğu turizm əhəmiyyətli status alacaq.

Avey Dövlət tarix-mədəniyyət qoruğunda arxeoturizmin inkişaf etdirilməsi üçün qeyd etdiyimiz bir çox problemli məsələlər vardır ki, bunlar yalnız dövlət dəstəyi və ayrı-ayrı yerli sahibkarların qayğısı ilə həyata keçirilə bilər. Təbii ki, bu sahənin inkişaf etdirilməsi uzunmüddətli bir proqram olsa da onun nəticələri çox böyük elmi və maddi gəlirləri ortaya qoya bilər. İrəli sürdüyümüz bu təkliflər əlbəttə ki, ilkin olaraq arxeoturizmin Avey qoruğunda yaradılması və inkişaf etdirilməsinə xidmət göstərəcəkdir. Elmi baxımdan çox böyük maraq obyekti, iqtisadi baxımdan isə çox gəlirli bir sahə kimi arxeoturizmin inkişafı son nəticədə Avey qoruğunun və bölgənin özünün iqtisadi və elmi gəlirləri üçün hesablanmış bir sahədir.

Nəticələr. Avey Dövlət tarix-mədəniyyət qoruğunda arxeoturizm kompleksinin və arxeoparkların yaradılması ilk öncə arxeoloji abidələrin tanıdılmasına xidmət edəcəkdir. Qoruğun tarixi-arxeoloji abidələrini həm yerli vətəndaşlar, həm də ölkəmizdə qonaq olan turistlər tanıyıb, maraq göstərəcəklər. Bu abidələrin tanınması əhalini xeyli maarifləndirəcək, arxeoloji-tarixi abidələrimizin dağıdılmasının qarşısı alınacaqdır. Ən əsası arxeoturizmin inkişafı bütövlükdə qoruğun və ümumilikdə götürüldükdə isə bölgənin turizm imkanlarını artıracaq və ya turizm potensialını yüksəldəcəkdir. Avey qoruğunun yerləşdiyi məkanın xüsusiyyətlərini nəzərə alsaq onun turizm marşurutlarına salınması uyğundur. Bölgədə istirahət edən xarici turistləri bu abidələrlə tanış etməklə onların maraqları xeyli artacaq və açıq dağ arxeoturizminin inkişafına təkan verəcəkdir.

Qoruqda həyata keçiriləcək arxeoturizmlə bağlı layihələrin əsasını arxeoloji və tarixi tədqiqat, eyni zamanda arxeoloji tədqiqatların iqtisadiyyatımıza tətbiqi forması təşkil etməlidir. Tədqiqatın nəticələrinin istifadəsi ilə bağlı əsas tərəf isə budur: layihələrin əsas mahiyyətini milli abidələrimizin təbliği, mühafizəsi, qorunması, məkrli düşmənlərimizin abidələrimizə əsassız iddialarına cavab təşkil etdiyindən buradan ən çox xalqımız faydalanacaqdır. Arxeoturizmlə bağlı layihələrin nəticələrinin yalnız bir tətbiq sahəsi vardır: turizm. Turizmin bu növünün Avey Dövlət tarix-mədəniyyət qoruğunda yaradılması və gələcək üçün inkişaf strategiyasının hazırlanması irəli sürüləcək layihələrin əsas məram və məqsədi olmalıdır. Arxeoturizmin tətbiqi qoruq üçün böyük iqtisadi gəlir, elmimiz üçün isə inkişaf deməkdir.

Ədəbiyyat

1. Qazıyev, S.M. Qazax və Ağstafa rayonlarındakı arxeoloji və tarixi abidələr haqqında (1957-ci il) // – Bakı: Azərbaycanın Maddi Mədəniyyəti, – 1962. – cild IV, – s. 140-170.
2. Müseyibli, N.Ə., Nəcəfov, Ş.N. Arxeoloji qazıntıların böyük əhəmiyyəti var // Azərbaycan. – 2011, 6, 8 fevral. – s. 4, 6.
3. Müseyibli, N.Ə., Nəcəfov, Ş.N. Azərbaycanda arxeoturizm perspektivləri // Elm. – 2011, 31 mart. – s. 18.
4. Najafov, Sh.N., Aliyeva, S.B., Mursaguliyev, M.H. Archaeologial research in and around the Avey Albanian temple in 2023 // Ethnocultural heritage of Caucasian Albania (collection of articles). Proceedings of the 11th international conference on Caucasian Albania: ethnoarchaeology, written sources and historical monuments. – №5. Baku, Azerbaijan, 2024, – p. 68-76
5. Nəcəfov, Ş.N., Ağalarzadə, A.M. Arxeoloji qazıntıların turizm əhəmiyyəti (Azərbaycanda arxeoturizmin inkişaf istiqamətləri) // – Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları, – 2011. №1, – s. 82-90.
6. Nəcəfov, Ş.N. Arxeoturizm – neft qədər əhəmiyyətli gəlir mənbəyi // Salam-Press. – 2011, 09-15 aprel. – s. 12.
7. Nəcəfov, Ş.N., Əliyeva, S.B., Əsədov, V.A., Mursaquliyev, M.H., Hacıyeva, Ü.Ş. Avey Dövlət tarix-mədəniyyət qoruğu ərazisində 2024-cü ildə aparılmış arxeoloji tədqiqatlar // Azərbaycanda arxeoloji və antropoloji tədqiqatlar: nəticələr və perspektivlər. AMEA-nın 80 illiyinə həsr olunmuş elmi sessiyanın tezisləri. Bakı, Azərbaycan, 2025, – s. 49-51.
8. Nəcəfov, Ş.N., Mursaquliyev, M.H. Azərbaycanın qərb bölgəsində tunc dövrünə aid kurqan abidələrində son tədqiqatların yekunları // AMEA Gəncə Bölməsinin təşkilatçılığı ilə "AMEA - 80" mövzusunda respublika elmi-nəzəri konfransın materialları (İctimai və humanitar elmlər bölməsi). Gəncə, Azərbaycan, 2025, Elm, – s. 152-156.
9. Osmanov, F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV - b.e. III əsrləri). – Bakı: Elm, – 1982. – 157 s.
10. Rüstəmov, C.N., Muradova, F.M. Daş Salahlı kurqanları // – Bakı: Azərbaycan arxeologiyası, – 2014. – cild 17, – №1, – s. 25-34.
11. Rüstəmov, C.N., Nərimanov, İ.H. Avey dağında qədim yaşayış yeri və kurqan qəbirləri // – Bakı: Azərbaycanın Maddi Mədəniyyəti, – 1965. – cild VI, – s. 44-50.
12. Бунятов, Т.А., Гусейнов, М.М. Результаты археологических поездок в Акстафинский и Казахский районы в 1955 г. // – Баку: Труды музея истории Азербайджана, – 1957. – том II, – с. 68-81.
13. Петросов, М.З. Об изучении исторических памятников Казахского района Азербайджанской ССР // – Баку: Изв. АН Азерб. ССР, – 1952. – том VIII, – с. 43-50.

Məqalənin redaksiyaya daxilolma tarixi: 24.09.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 26.09.2025
Məqalənin çapa qəbul olunma tarixi: 02.10.2025

DOI: doi.org/10.61226/12.2.2023/20253.16
UOT: 94(479.24)
Aida TEYMUROVA
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, doktorant
aida.teymurova99@mail.ru
https://orcid.org/0009-0002-0075-6871

QAFQAZ ALBANİYASINDA MADDİ MƏDƏNİYYƏT

Xülasə: Məqalədə Qafqaz Albaniyasının zəngin maddi mədəni irsi üzərində sistemli və kompleks elmi təhlil aparılır. Tədqiqatda xristian dini abidələri, qədim qəbir kompleksləri, yerli zərbxanaların istehsalı olan sikkələr, dövrün pul münasibətləri, monumental heykəltəraşlıq nümunələri və estetik cəhətdən yüksək səviyyədə hazırlanmış bədii keramika məmulatları bu qədim sivilizasiyanın aparıcı maddi mədəniyyət göstəriciləri kimi geniş şəkildə qiymətləndirilir. Müəllif arxeoloji qazıntılar, müxtəlif maddi tapıntılar və elmi mənbələr əsasında həmin dövrün sosial-iqtisadi quruluşunu, dini dünyagörüşünü və əhalinin gündəlik həyat tərzini ətraflı şəkildə təhlil edir. Məqalədə, eyni zamanda, Qafqaz Albaniyasının yalnız Azərbaycan üçün deyil, bütövlükdə Cənubi Qafqaz regionunun ümumi mədəni inkişafı baxımından oynadığı mühüm tarixi rol xüsusi olaraq vurğulanır. Müəllif maddi irsin qorunmasının və elmi dövriyyəyə daxil edilməsinin əhəmiyyətinə də diqqət çəkir.

Açar sözlər: Qafqaz Albaniyası, memarlıq, daşişləmə, kilsə, abidə, türk etnomədəniyyəti.

Aida TEYMUROVA
MATERIAL CULTURE IN CAUCASIAN ALBANIA

Abstract: The article presents a systematic and comprehensive scholarly analysis of the rich material cultural heritage of Caucasian Albania. The study evaluates Christian religious monuments, ancient burial complexes, coins minted by local mints, monetary relations of the period, examples of monumental sculpture, and highly artistic ceramics as key indicators of the material culture of this ancient civilization. The author thoroughly analyzes the socio-economic structure, religious worldview, and daily life of the population of that time based on archaeological excavations, various material findings, and academic sources. The article especially highlights the significant historical role of Caucasian Albania not only for Azerbaijan but also for the overall cultural development of the entire South Caucasus region. The author also draws attention to the importance of preserving this material heritage and integrating it into academic circulation.

Keywords: Caucasian Albania, architecture, transportation, church, monument, Turkish ethnoculture.

Аида ТЕЙМУРОВА

МАТЕРИАЛЬНАЯ КУЛЬТУРА В КАВКАЗСКОЙ АЛБАНИИ

Абстракт: В статье проводится системный и комплексный научный анализ богатого материального культурного наследия Кавказской Албании. В исследовании христианские религиозные памятники, древние погребальные комплексы, монеты, выпущенные местными монетными дворами, денежные отношения эпохи, образцы монументальной скульптуры и высокохудожественная керамика оцениваются как ведущие показатели материальной культуры этой древней цивилизации. Автор подробно анализирует социально-экономическую структуру, религиозное мировоззрение и повседневную жизнь населения того времени на основе археологических раскопок, различных материальных находок и научных источников. В статье особо подчёркивается важная историческая роль Кавказской Албании не только для Азербайджана, но и для общего культурного развития всего региона Южного Кавказа. Автор также акцентирует внимание на значимости сохранения материального наследия и его интеграции в научный оборот.

Ключевые слова: Кавказская Албания, архитектура, транспорт, церковь, памятник, турецкая этнокультура.

Giriş

Hazırkı dövrədək gəlib çatan Qafqaz Albaniyası dövrünün memarlıq abidələri daha çox müdafiə və dini xarakterli abidələrdir. Qafqaz Albaniyasında memarlıq sahəsinin və mədəniyyətin inkişaf etməsində türk tayfaları mühüm yer tutmuşdur. Məhz buna görə də tarixçilərin bir çoxu Qafqaz Albaniyasında memarlıqdan söhbət getdikdə bu sahəni Alban-türk memarlığı deyə adlandırırlar. Qafqaz Albaniyasının abidələrində türklərin mədəniyyətinə, dünyagörünüşünə, etiqadlarına, sənət ənənələrinə dair çoxsaylı elementlər mövcuddur. Lakin Qafqaz Albaniyası dövrü abidələrində, həmçinin xristianlığı ifadə edən xaç təsvirləri də mövcud olmuşdur. Qafqaz Albaniyası abidələrindəki türk dünyagörüşü, türk mədəniyyəti, türk etiqadı, türk sənət ənənələrinə aid olan elementlər təsdiq edir ki, Qafqaz Albaniyası dövrü abidələri türk etnomədəniyyətinə məxsus olmuşdur [8, s.82]. Qafqaz Albaniyasında bütpərəstlik tikililəri də mövcud olmuşdur. Görkəmli tədqiqatçı Gülçöhrə Məmmədova qeyd etmişdir ki, arxeoloji tədqiqatlar nəticəsində Qəbələ rayonu Böyük Əmilidə bütpərəstlik tikililərinin qalıqları aşkar edilmişdir. Qafqaz Albaniyası ərazisində xristian dini yayılmağa başlayanda isə artıq bütpərəstliyə məxsus məbədlər kilsə üçün uyğunlaşdırılmağa başlanılmışdı. Bu cür kilsələrin ən qədimi Şəki ərazisindəki Kiş kilsəsi hesab edilir. Qafqaz Albaniyasında memarlıqla birgə digər sahələr, o cümlədən daşişləmə, qəbirüstü abidələrin inşa edilməsi kimi sahələr də inkişaf etmişdir. Yüksək nüfuzlu şəxslərin əsasən də din xadimlərinin qəbirlərinin üstündə xatirə abidələri düzəldilirdi. Bu xatirə abidələri bədii-dekorativ kompozisiyalarla tərtib edilirdi. Hazırkı dövrədək gəlib çıxan abidələrdə xristianlıqdan öncə mövcud olmuş təsəvvür və etiqadla əlaqəli çoxsaylı elementlər də vardır. Bu barədə faktlara əsaslanan elmi fikirlər mövcuddur. Qafqaz Albaniyası dövrünə dair arxeoloji tədqiqatlar nəticəsində bir

çox daşişləmə sənətinə dair nümunələr də aşkar edilmişdir. Bu nümunələrdən biri də Mingəçevir ərazisində arxeoloji tədqiqatlar aparılarkən kilsə kompleksində tapılmışdır. Həmin daş üzərində alban yazısı, xaç təsviri və tovuz quşu təsviri mövcuddur. Bir sıra tədqiqatçılar belə hesab edirlər ki, həmin daş qurbangah olmuşdur, digər tədqiqatçıların fikrincə isə bu daş xaç altlığı olmuşdur. Həmin daş üzərindəki mətni oxuyan isə Jost Gippert olmuşdur [8, s.85].

Qafqaz Albaniyası maddi mədəniyyət abidələri özündə türk etnomədəniyyətini əyani olaraq ehtiva edir. Baxmayaraq ki, ayrı-ayrı dövrlərdə bu mədəniyyət müxtəlif ideoloji təsirlərə uğramışdır, bununla belə etnomədəni mənsubluq qorunub saxlanılmışdır.

Qafqaz Albaniyasının xristian abidələri. Qafqaz Albaniyasında xristianlıq I yüzillikdən etibarən yayılmağa başlamışdır. IV yüzilliyin əvvəlində isə artıq Qafqaz Abaniyasında xristian dini dövlət dini statusu almışdır. Amma VII əsrdə ərəb istilasının nəticəsi olaraq bu ərazidə dövlətçilik çox güclü olmamışdır. Artıq VIII əsrdən başlayaraq erməni monofizit kilsəsi tərəfindən alban katalikosu seçilmiş şəxslər təsdiq edilməyə başlanmışdır [2, s.3]. Hazırkı dövrdə Azərbaycan əraizisində Qafqaz Albaniyası memarlığına dair çoxsaylı kilsə, məbəd mövcuddur. Son dövrlərdə görkəmli azərbaycanlı tədqiqatçılar tərəfindən Qafqaz Albaniyası abidələrinin tədqiq edilməsi sahəsində xeyli iş görülmüşdür. Kiş kilsəsi təkcə Qafqaz Albaniaysında yox, bütünlüklə Qafqaz ərazisində ilk xristian kilsəsi hesab edilir. Bu kilsə Şəki ərazisində Kiş kəndindədir. Doğrudur, Kiş kilsəinin üzərində hazırkı dövrdə hər hansı bir epiqrafik yazı mövcud deyil, lakin buna baxmayaraq inşaat trexnologiyası və üslubu, o cümlədən memarlıq xüsusiyyətləri sübut edir ki, Kiş kilsəsi Qafqaz Albaniyasına məxsus memarlıq abidələrindəndir. Bu kilsə bir neçə dəfə təmir edilmişdir və günümüzə qədər çox dağıntılara məruz qalmadan normal şəkildə gəlib çata bilmişdir. Kilsənin üzərində əvvəllər kitabə olmuşdur. Bu kitabə Kiş kilsəsinin müqəddəs Yelisey kilsəsi olmasını, o cümlədən kilsənin arxidiakonu Serafimin 1244-cü ildə kilsəni yenidən tikdiyini göstərirdi. Kiş kilsəsinin kitabəsi XIX yüzilliyin 30-cu illərində Kiş kilsəsi rəsmi şəkildə ləğv ediləndən sonra pozulmuşdur. Bu zaman bir sıra başqa alban məbədlərinin də taleyi bu cür olmuşdur.

Qafqaz Albaniyası dövrünə dair digər bir xristianlıq abidəsi də Qax əraizisindəki Qum kəndində yerləşən xristan məbədidir. Bu məbəd V-VI yüzilliklərdə inşa edilmişdir. Bu dövrə aid digər bir məbəd də Qum kəndindəki məbədlə eyni vaxtda inşa edilən Ləkit kəndindəki məbəddir [7]. Qafqaz Albaniyası ərazisində yeni xristian kilsələrinin tikilməyə başlanması Alban çarı Urnayr tərəfindən xristian dini dövlət dini elan ediləndən sonrakı dövrdə genişlənmişdir. Qafqaz Albaniyası dövrünə aid başqa bir xristianlıq məbədi də Avey məbədi hesab edilir. Bu məbəd Qazax rayonundadır. Buradakı Avey dağ zirvəsində inşa edilib. Avey məbədindən bir az aşağıda isə Şişqaya məbədi mövcuddur. Şişqaya məbədi ilə yanaşı bu əraizdə başqa süni mağara məbədlər də mövcuddur. Bu abidələr tədqiqatçı F.Muradova və C.Rüstəmovun tədqiqatlarına əsasən xristianlıq Qafqaz Albaniyası ərazisində ilk dəfə yayıldığı dövrdə inşa edilmişdir. Qafqaz Albaniyasında III Vaçaqan hakimiyyətdə olduğu zaman üç yüzdən artıq kilsə inşa edilmişdir. VII yüzilliyin ortalarına az qalmış artıq Qafqaz

Albaniyası ərazisində 30-dan çox monastr mövcud idi [11, s.57]. Dərbənddəki Çola monastrında IV-V yüzilliklərdə, Bərdədəki monastrda VI-VII yüzilliklərdə, Ağdərə ərazisindəki Yelisey monastrında VIII-IX yüzilliklərdə, Kəlbəcərdəki Xudavəng monastrında X-XV yüzilliklərdə, Gəncəsər monastrında XV-XIX yüzilliklərdə Albaniya karalikosluğunun taxtı mövcud olmuşdur. Bərdə kilsəsinin böyük monastra çevrilməsi Alban kilsəsi rəhbəri müqəddəs ata Abbas tərəfindən 552-ci ildə Bərdəyə Çola ərazisindən iqamətgah köçürüləndən sonrakı dövrə təsadüf edir [7].

Şəki rayonu Kiş kəndində yerləşən Kiş kilsəsi və ya müqəddəs Yelisey məbədi, Oğuz rayonunda yerləşən müqəddəs Yelisey məbədi və Şəkidəki Orta Zəyzid kəndi ərazisində yerləşən alban məbədinin planı təxminən eyni olmuşdur. Apostol Yelisey Qafqaz Albaniyasında xristian dininin yayılmasında mühüm rol oynamışdır. Buna görə də onun adına bir neçə məbəd inşa edilmişdir. Bu məbədlərdən biri də hazırkı dövrədək gəlib çatan Ağdərə rayonu ərazisindəki müqəddəs Yelisey adına monastrdır. Qafqaz Albaniyası dövrünün memarlıq abidələrini araşdıran görkəmli tədqiqatçılar belə hesab edirlər ki, Qafqaz Albaniyasının memarlıq abidələri planlaşdırılma üslubu, xüsusiyyətlər və xarakterik elementlər baxımından ermənilərə məxsus olan memarlıq abidələrindən fərqlənirlər. Təcavüzkar ermənilər öz hiyləgər hərəkətlərinə haqq qazandırmaq üçün memarlıq abidələrimizin çoxunu ermənilərə məxsus memarlıq abidələri kimi qələmə vermişdir. Erməni şovinistləri tərəfindən bu cür əməllər hər zaman, o cümlədən 1990-ci illərin əvvəlində Azərbaycana məxsus torpaqların iyirmi faizindən çoxunu işğal etdikdə və bundan sonrakı dövrlərdə də davam etdirilmişdir. Memarlıq abidələrimiz amasızcasına dağıdılmışdır. İşğalçı ermənilər bu ərazilərdə arxeoloji tədqiqatları qeyri-peşəkarlıqla aparmış, tapıntılar Ermənistana aparılmış və kurqanlar dağıdılmışdır [15, s.22].

Xalqımızın mədəni irsinin qorunması mühüm əhəmiyyət kəsb edir çünki mədəni irsimiz bəşər mədəniyyətinin mühüm hissəsidir.

Qafqaz Albaniyasının qəbir abidələri. Qafqaz Albaniyasında müxtəlif qəbir növləri mövcud olmuşdur. Arxeoloji tədqiqatların nəticəsi olaraq 8 növdə qəbir abidələri aşkar edilmişdir. Bunlar küp, təknə, quyu, torpaq, çiy kərpic, ağac,daş qutularda, katakomba qəbirlərdir. Eyni zamanda bu qəbir abidələrinin ayrı-ayrı lokal tipləri mövcud olmuşdur. Bu abidələrin fərqli olması Qafqaz Albaniyasının əhalisinin etnik cəhətdən tərkibi ilə əlaqədardır. Buna baxmayaraq Qafqaz Albaniyasının qəbir abidələri bir-biri ilə forma cəhətdən fərqli olsa da, onların ortaq cəhətləri də mövcuddur. Dəfn əşyalarını buna misal göstərə bilərik. Qafqaz Albaniyasında təxminən qəbirlərin hamısında ölülər sol və ya sağ böyü üstə bükülərək dəfn edilmişdir. Qafqaz Albanoyasında qəbir növlərindən ən geniş yayılanı torpaq qəbirlər olmuşdur. Torpaq qəbirlər Qəbələ, Yaloylutəpə, Mingəçevir, Qax, Xınıslı, Qarabulaqkənd və digər ərazilərdə tədqiqatlar nəticəsində aşkar edilmişdir. Bu tip qəbirlərin yan divarları və döşəmələri gillə örtülmüşdür və bu cür qəbirlər dördbucaq şəkildə qazılırdı. Onların dərinliyi 3,1 metrə yaxın olmuşdur [14, s.56]. Dəfn prosesi zamanı qəbirlərə ayrı-ayrı gil qablar yerləşdirilirdi. Bu qablar boz və qara rəngli olmuş və onların üzərində qırmızı zolaqlar çəkilmişdir. Qafqaz Albaniyasının qəbir abidələrinin hansı dövrə aid olmasını bu qəbirlərdə aşkar edilmiş numizmatik nümunələrə əsasən bilmək

mümkündür. Həmin materiallara əsaəsn bu qəbir abidələri e.ə. IV-I yüzilliklərə aid qəbir abidələridir. Qafqaz Albaniyasında digər növ qəbirlər quyu qəbirlər olmuşdur. Quyu qəbirlər Şamaxı ərazisində aşkar edilmişdir. Bu tip qəbirlərin dərinliyi 5 metrə qədər olmuşdur. Quyu qəbirlərin əsas xüsusiyyəti o idi ki, burada böyük gil qablar ölünün baş hissəsi tərəfdə yerləşdirilirdi. Bu növ qəbirlərdən şüşə materialları, silah, gil qablar, bəzək məmulatları aşkar edilmişdir. Bu tip qəbirlər e.ə. I minilliyə aiddir. Qafqaz Albaniyasında həmçinin gil-təknə qəbirlər də mövcud olmuşdur. Bu tip qəbirlər Qəbələ, Mmingəçevir və İsmayıllıda tədqiq edilmişdir. Tədqiqatların nəticələrinə əsasən gil-təknə qəbirlər Tüğyançay, Göyçay və Girdimançay əraziləri üçün daha xarakterikdir [11, s.24]. Təknələr oval və dördkünc formada olmuşdur və gildən düzəldilmişdir. Ölülər bu tip qəbirlərdə bükülərək böyrü üstə və fərqli istiqamətlərdə dəfn edilirdi. Qafqaz Albaniyasında mövcud olmuş qəbir növlərindən biri də taxta qutular hesab edilir. Taxta qutu qəbirlər Kürün sol sahilində və Mingəçevir əraziisndə tədqiq edilmişdir. Taxta qutu qəbirlər az tədqiq edilmişdir. Taxta qutu qəbirlər arçan ağacından hazırlanırdı. Bu tip qəbirlərdə üzbəüz yerləşdirilmiş skeletlər aşkar edilmişdir. Təkskeletli qəbirlərdəki ölülər bükülərək baş hissəsi cənub-şərq istiqamətində dəfn edilmişdir. Taxta qutu qəbirlərdən dəmir xəncərlər, mis camlar, gil qablar, bıçaqlar, qılınclar, möhür, üzüklər, şüşə, gümüş, qızıl və tuncdan düzəldilən bəzək əşyaları, ox ucluqları aşkar edilmişdir. Bu tip qəbirlər e.ə. IV-I yüzilliklərə aid qəbirlər hesab edilirlər. Qafqaz Albaniyasında torpaq qəbirlərin bir çoxu çiy kərpic ilə əhatələnmişdir. Bu cür qəbirlər Xanlar rayonu Muğan düzündəki Cəfərxan qəbiristanlığı və Mingəçevir rayonu ərazisində tədqiq edilmişdir. Bu növ qəbirlərdə ölülər fərqli istiqamətlərdə dəfn edilmişdir. Bu tip qəbirlərdən birində həmçinin cüt skelet tapılmışdır [16, s.47]. Eyni zamanda bəzək əşyaları, silah, gil qablar və digər əşyalar da bu növ qəbirlərə yerləşdirilmişdir. Çiy kərpic qəbirlər yeni eranın başlanğıcına aid qəbirlərdir. Bundan başqa Qafqaz Albaniaysında mövcud olmuş digər növ qəbirlər də daş qutu qəbirlər olmuşdur. Daş qutu qəbirlər hazırkı Dağıstan torpaqlarındakı Qafqaz Albaniyasının yaşayış məntəqələri üçün səciyyəvidir. Bu tip qəbirlərdə skeletlərin sayı çox olmuş və ölülər uzadılaraq basdırılmışdır. Dağıstan ərazisindəki daş qutu qəbirlər Xoraçay-Qayakənd mədəniyyəti ilə əlaqədardır. Daş qutu qəbirlərə azsaylı əşyalar qoyulmuşdur və bu tip qəbirlər çox az bir ərazini əhatə edir. Qafqaz Albaniyası ərazisində katakomba qəbirlər daha çox yayılmışdır. Katakomba qəbirlər Qəbələ, Mingəçevir, Qazax, Qax rayonlarında, o cümləədn Dağıstan ərazisində də yayılmışdır. Mingəçevir ərazisində iki yüzdən çox katakomba qəbirlər tədqiq edilmişdir. Katakomba qəbirlər antik və erkən orta əsr olmaqla 2 dövrü əhatə etmişdir. Bu qəbirlər quruluş cəhətdən eyni olmaqla, eni bir metrlik xəndəkdən ibarət olmuşlar. Həmin xəndəyin qurtaracaq hissəsində bir tərəfdən günbəzvari şəkildə dəfn kamerası düzəldilmişdir. Katakomba qəbirlər daha çox bir bəzən də iki kameradan ibarət olmuşdur. Bu tip qəbirlərin çox hissəsində cüt skeletlər aşkar edilmişdir. Katakomba qəbirlərdə ölülər bəzən taxta qutu və küplərdə də basdırılmışdır. Taxta qutulara və küplərə müxtəlif əşyalar qoyulurdu. Ölünü qəbrə yerləşdirdikdən sonra dəfn kamerası kərpic və ya daş ilə hörülürdü [13, s.13]. Digər qəbirlərlə müqayisədə katakomba qəbirlərdə əmək alətləri daha çox aşkar edilmişdir. Bu alətlər yaba, bıçaq oraq, qarmaq, balta, iynə,

biz və digər əmək alətlərindən ibarət olmuşdur. Bu tip qəbirlərdən tapılmış numizmatik nümunələr, həmçinin qəbirlərin avadanlığı katakomba qəbirlərin I-III yüzilliklərə aid olduğunu deməyə əsas verir.

Qafqaz Albaniysında qəbirüstü abidələrin hazırlanması da inkişaf etmiş sahələrdən olmuşdur. Qafqaz Albaniyasında xatirə daşları xarakterik xüsusiyyətləri ilə fərqlənmişdir. Qəbirüstü abidələrdə bədii oyma üsulundan istifadə olunurdu. Aşkar edilmiş tapıntılar göstərir ki, bu cür abidələrdə günəş, altıguşəli xonça, üzüm salxımı, buruq və dolama xətlər və s. kimi bəzək motivlərindən istifadə edilmişdir [17, s.99]. Qəbirüstü abidələrdə ziyafət, ov, süvarinin görüşü kimi səhnələr təsviri motivləri, plastikliyi və kompozisiyası baxımından Azərbaycan Tarix Muzeyindəki üzük qaşları və tunc möhürlərdəki təsvirlərlə oxşarlıq təşkil edir. Bu təsvirlər eyni zamanda Sankt-Peterburq Dövlət Ermitajındakı alban daş lövhəsindəki təsvirlərlə də uyuşur. Tədqiqatlar belə deməyə əsas verir ki, qəbirüstü abidələrdəki təsvirlər, xüsusilə də xaçların hazırlanmasında hələ xristian dininin burada yayılmasından əvvəl türk tayfaları mühüm rol oynamışdır. Elə buna görə də Qafqaz Albaniyasında xaçlar klassik ənənələrə əsasən hazırlanmışdır. Qafqaz Albaniyasında xaçlar klassik ənənələr, dini ayinlər, elemetlərlə bağlı olmuşdur. Qafqaz Albaniyası qəbirüstü abidələrində həmçinin hörmə və ya toxuma formasında olan haşiyə geniş yayılmış bəzək nümunələrindəndir. Bu cür haşiyələrə təkcə xaçdaşlarda deyil, eyni zamanda məbədlərin üzərində də rast gəlmək mümkündür. Mürəkkəb quruluşa malik olan bu tip nümunələrin hazırlanması üçün kifayət qədər inkişaf etmiş sənətkarlıq vərdişlərinin olması vacibdir [2, s.86].

Qafqaz Albaniyasında pul münasibətləri və aşkar edilmiş yerli sikkələr. Qafqaz Albaniyası ərazisində yerli sikkələrin tapılması sübut edir ki, antik Azərbaycanda dövlətçilik ənənələri mövcud olmuşdur. Sikkə zərb edilməsi üçün siyasi və iqtisadi cəhətdən əlverişli şərait e.ə. III yüzillikdən başlayaraq yaranmışdır. Həmin dövrdə Azərbaycanda mövcud olan xarici və daxili ticarət dünya ticarəti ilə eyni səviyyədə idi. Azərbaycanda aşkar edilən ən qədim hesab edilən pul nümunəsi Babildə e.ə. IV yüzillikdə zərb edilən iki tetradraxma olmuşdur. Həmin pul nümunələri Şamaxı ərazisində 1820-ci ildə aşkar edilmişdir. Azərbaycana məxsus ölkəmizdə aşkar edilmiş ən qədim sikkə isə ötən əsrin axırlarında Məhəmməd məscidinin yanında İçərişəhərdə aparılmış arxeoloji tədqiqatlar zamanı tapılmışdır. Həmin sikkəni Əhəməni hökmdarı II Haşayar misdən hazırlatmışdır [10, s.98].

Qafqaz Albaniyasında antik dövrdə ümumilikdə pul münasibətləri geniş inkişaf etmişdir, lakin buna baxmayaraq Strabon qeyd etmişdir ki, Qafqaz Albaniyasında pul nümunılərindən, o cümlədən sikkələrdən çox az istifadə edilmişdir, ticarət demək olar ki, ancaq əmtəə mübadiləsi şəklində mövcud olmuşdur və albanlar yüzdən sonrakı sayları tanımamışdır, ancaq yüzə qədər saya bilmişdir. Bunun əksinə olaraq ölkəmizin ərazisində aşkar edilmiş sikkələr onu göstərir ki, Qafqaz Albaniyasında pul münasibətləri yüksək səviyyədə olmuşdur. Arxeoloji tədqiqatlar zamanı tapılan numizmatik materiallar onu göstərir ki, Qafqaz Albaniyasında e.ə. III əsrin axırlarından etibarən pul zərbi mövcud olmuşdur. Həmin dövrdə Qafqaz Albaniyası ərazisində həm gümüş yerli pullar, həm də gətirilmə pullar istifadə edilmişdir [17, s.113].

